www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 avqust 2014-cü il Cümə № 216 (5925) Qiymәti 40 qəpik

**Xəbər**

## "Hafka"nın adamları taksi sürücüsünü oğurlayıb dəhşətli işgəncə verdilər

yazısı səh.15-də

**Gündəm**

## İran-Azərbaycan münasibətlərini kim pozmaq istəyir - ölkəmizi şərləyirlər



Prezident Administrasiyası, XIN və Müdafiə Nazirliyi İsrail qaynağının məlumatına kəskin təpki verdi və qəti təkzib etdi; yerli təhlilçilər də hadisədə iki ölkə münasibətlərini korlamaq istəyənlərin kobud "əl işi"ni görür...

yazısı səh.13-də

*Professor İlham Rəhimov:*

## "Roma Papasını qorxudan müharibə heç vaxt olmayacaq"

yazısı səh.5-də

## Prezident Füzulidə olub

yazısı səh.2-də

## Ziya Məmmədovun qardaşı qızı yol qəzasında öldü

yazısı səh.2-də

## Müsavat qurultayla bağlı davranış normalarını açıqladı

"Cəza nəzərdə tutulmasa da, bu, şərəf və ləyaqət məsələsidir"

yazısı səh.3-də

## Prezident Ərdoğan parlamentdə and içdi

Türkiyə rəhbərinin inauqurasiyasında gərgin anlar yaşandı

yazısı səh.9-da

*Cəmil Həsənli:*

## "Ziyalının sayının çox olması mühüm deyil, onun sanbalı mühümdür"

yazısı səh.7-də

## Hansı partiya sədrləri şeyxi təbrik edib?

yazısı səh.4-də

## ABŞ-dan da İlqar Nəsibovla bağlı bəyanat gəldi

yazısı səh.2-də

## Rusiyanın Ukraynaya hərbi müdaxiləsi fakta çevrildi

yazısı səh.9-da

## Bakıda 15 yaşlı qız intihar etdi

yazısı səh.2-də

**Gürcüstanda saxlanılan narkotiklə bağlı şok yeniliklər**

# 3 TON QAÇAQ HEROİNƏ GÖRƏ AZƏRBAYCANDA KÜTLƏVİ CƏZALAR

Astara Gömrük-Keçid Məntəqəsinin dörd məmuru işdən çıxarıldı; Qırmızı Körpüdə tutulan 60 kiloqram heroinin də bu məntəqədən keçməsi vəziyyəti daha da gərginləşdirdi, məntəqə rəisindən hesab sorulub




yazısı səh.8-də

## Azərbaycana "sağ sektor" təhlükəsi - təhlil

Kremlin ölkəmizlə bağlı qorxulu planı heç vaxt olmadığı qədər real görünür, "Azərbaycanın əbədi xoşbəxtliyini Rusiyaya bağlayan" "5-ci kolon" yenidən fəallaşıb; demokratik düşərgə isə qəribə bir susqunluq içindədir

yazısı səh.6-da



## İsa Qəmbərə başqandan üstün status təklifi verildi

yazısı səh.2-də



*Möhsün Pakayin:*

## "İŞİD İsrailin təhlükəsizliyini qorumaq məqsədilə yaradılıb"

yazısı səh.10-da



*Yusif Günaydın:*

## "Cəmil Quliyev İTV-də formal fiqurdur"

yazısı səh.3-də

29 avqust 2014

YENİ MÜSAVAT
N 215 (5926) 29 avqust 2014

## Prezident Füzulidə olub



**Prezident İlham Əliyev Füzuli rayonuna səfər edib. Dövlət başçısı Heydər Əliyevin Horadiz şəhərindəki abidəsini ziyarət edib. Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev son dövrlərdə rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib.**

Sonra Prezident İlham Əliyev parkda yerləşən Heydər Əliyev Mərkəzində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Rayon ictimaiyyəti adından çıxış edən Məcnun Namazəliyev füzulilərə göstərdiyi diqqət və qayğıya görə dövlətimiz başçısına minnətdarlığını bildirib.

İlham Əliyev səfər zamanı Horadiz şəhərində Bayraq Meydanında yaradılan şəraitlə də tanış olub.

Dövlət başçısına məlumat verilib ki, 10 hektar ərazidə salınan Bayraq Meydandan bütün Horadiz şəhəri görünür. Burada geniş yaşıllaşdırma və abadlıq işləri görülüb. Meydana qalxmaq üçün sağ və sol tərəflərdə hər biri 287 pillədən ibarət olan sütunlu pilləkən tikilib. Əraziyə avtomobil yolu çəkilib və dayanacaq inşa olunub. Bayraq dirəyinin yerdən hündürlüyü 68 metrdir və demək olar ki, bütün ətraf ərazilərdən aydın görünür. Meydanın əhəmiyyətini artıran mühüm amillərdən biri də burada 3 istirahət guşəsinin yaradılmasıdı. Beləliklə, Horadizdəki Bayraq Meydanı və burada ucaldılan dövlət bayrağı da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir.

## Bakıda 15 yaşlı qız intihar etdi



**Bakıda intihar hadisəsi baş verib. Xəzər Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Binə qəsəbəsində, Nizami Abbasov küçəsi, döngə 5, ev 10-da qeydə alınıb.**

Bakı şəhər sakini, 1999-cu il təvəllüdlü Nigar Rasim qızı Əsədova yaşadığı evin həyətində özünü turnikdən asaraq intihar edib.

Hazırda yeniyetmənin intihar etmə səbəbləri araşdırılır.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişiklikdər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# İsa Qəmbərə başqandan üstün status təklifi verildi

### Müsavat Divanının üzvü yeni məsələ qaldırdı

**Sentyabrın 27-də Müsavat Partiyasına yeni başqan seçildikdən sonra hazırkı başqan İsa Qəmbərin partiyada yeri, statusu məsələsinin necə həll ediləcəyi hər kəsin marağındadır. Partiyanın rəhbər orqanları və İsa Qəmbərin özü bu barədə hələ konkret mövqe, təklif ortaya qoymayıblar.**



Müsavat Divanının üzvü Nüşabə Sadıqlı "Yeni Müsavat"a bu barədə fikirlərini bölüşərkən təklifini irəli sürdü. N.Sadıqlı bildirdi ki, Müsavatda hər kəs İsa Qəmbərin qurultaydan sonra partiyadakı statusu barədə düşünür: "Mən təklif edirəm İsa Qəmbərə elə bir status verilsin ki, həmin status partiyada bütün məsələlərə müdaxilə etmək imkanı versin. İsa bəy təbiət etibarilə elə bir insandır ki, Müsavat Partiyasını nəzarətsiz qoymayacaq. Şübhəsiz ki, İsa Qəmbərin nəzarəti Müsavat Partiyasının üzərində olacaq. Ancaq rəsmi bir status verilməsi vacibdir. Adının necə olmasından asılı olmayaraq ciddi bir status verilməlidir. Elə bir status ki, İsa Qəmbərin həmin statusla partiyanın işinə müdaxilə eləmək imkanları olsun".

**N.Sadıqlı hesab edir ki, İsa Qəmbərə verilən statusun hətta partiya başqanının səlahiyyətlərindən də üstün olması mümkündür:** "Bu, ola bilər və mənimlə həmfikir olan bir sıra şəxslər bunun üzərində düşünürük. Mövqeyimizi də təklif kimi qurultayda rəsmən irəli sürəcəyik. Çalışacağıq ki, təklif qəbul edilsin. İnanıram ki, heç bir problem ortaya çıxmadan qurultay bunu qəbul edəcək".

Partiyada başqandan üstün səlahiyyətlərə malik statusun olmasını yeni seçilən başqanın qəbul etməməsi ehtimalının nə dərəcədə olmasına gəlincə, N. Sadıqlı vurğuladı ki, Müsavatda İsa Qəmbərin böyüklüyünü qəbul etməyən şəxs yoxdur. Ona görə də kiminsə İsa Qəmbərə üstün səlahiyyət verilməsinə razı olmayacağı gözlənilən deyil.

❑ **E.SEYİDAĞA**

## Özünü yandıran Qarabağ qazisinin həyat yoldaşı reanimasiyadan çıxıb

**Prezident Administrasiyası qarşısında həyat yoldaşı ilə birlikdə özünü yandıran Qarabağ qazisi Elçin Salahovun müalicəsi davam edir. 5 saylı xəstəxananın yanıq şöbəsində müalicə alan Salahovların durumunda irəliləyiş var.**

Bu barədə musavat.com-a məlumat verən E. Salahov bildirdi ki, hazırda hər ikisinin vəziyyəti normaldır: "Cənab prezidentin əmri ilə bizi burada çox gözəl müalicə edirlər. Allahın köməyi ilə tezliklə sağalıb evimizə, körpəmizin yanına qayıtmaq istəyirik. Hər şey yaxşıdır. Burada bizə necə lazımdırsa, qayğı göstərilir".

Qarabağ qazisi onu da bildirdi ki, həyat yoldaşı artıq reanimasiyadan çıxıb, palataya köçürülüb, vəziyyəti stabildir.

Ailənin intihara cəhd etməsinə səbəb olan ev qalmaqalına gəlincə, E.Salahov ağrıları səbəbindən çox danışa bilməyəcəyini deyərək, məlumat verməkdən imtina etdi.

Xatırladaq ki, avqustun 13-də Qarabağ müharibəsi veteranı Elçin Salahov həyat yoldaşı Jalə Salahova ilə birgə Prezident Administrasiyası önündə özlərini yandırmışdılar.

İntihar cəhdinə Sumqayıt Rayon Məhkəməsinin Salahovların evdən çıxarılması ilə bağlı qərarı səbəb olmuşdu.

Hadisəyə dərhal aidiyyəti qurumlardan reaksiya gəlmiş və ailənin müalicəsi təmin olunmuşdu.

Söz verilən ev məsələsinin həlli ilə bağlı isə hələlik məlumat yoxdur.

❑ **Nərgiz LİFTİYEVA**

## Ziya Məmmədovun qardaşı qızı avtoqəzada öldü

### Günay Ələsgərova Bakı-Quba yolunda baş verən yol nəqliyyat hadisəsində dünyasını dəyişib



**Avqustun 27-də axşam saatlarında Gəndob-Yalama yolunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın şimal bürosunun verdiyi məlumata görə, qəza magistralın 19-cu km-də Xaçmaz rayonunun Qaradağlı kəndi ərazisindən keçən hissəsində qeydə alınıb.**

1950-ci il təvəllüdlü Quba rayon sakini Almasov Ramiz Qaflan oğlu idarə etdiyi 90 CM 986 dövlət nömrə qeydiyyatlı "KİA" markalı minik maşını ilə Xaçmaz rayonu Hülövlü kənd sakini, 1962-ci il təvəllüdlü Mustafayev Bəhram Əlövsət oğlunun idarə etdiyi at arabasını vurub.

Bundan sonra "KİA"nın arxasınca eyni istiqamətdə hərəkətdə olan 1956-cı il təvəllüdlü, Xaçmaz rayonunun Köhnə Xaçmaz kənd sakini Cəbiyev Məhərrəm Şəmbala oğlunun idarə etdiyi 90 JZ 076 dövlət nömrə nişanlı "KamAZ" markalı yük maşını "KİA" ilə toqquşub.

Qəza nəticəsində "KİA"da olan sərnişin, 1977-ci il təvəllüdlü Bakı şəhər sakini Ələsgərova Günay Loğman qızı dünyasını dəyişib.

Faktla bağlı Baş Dövlət Yol Polis İdarəsinin istintaq və təhqiqat bölməsində araşdırmalar aparılır.

"Garant Holding"dən APA-ya bildirilib ki, hadisə zamanı dünyasını dəyişən Günay Ələsgərova holdinqin Müşahidə Şurasının üzvü Emil Ələsgərovun həyat yoldaşıdır. O, eyni zamanda Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədovun qardaşı qızıdır.

Oxuculardan biri musavat.com-a xəbər verib ki, rəhmətə gedən xanımın həyat yoldaşı Emil Ələsgərov da Ziya Məmmədovun bacısı oğludur. Yəni mərhumə Günay Ələsgərova ilə Emil Ələsgərov bibiqızı-dayıoğludurlar.

Günay Ələsgərovanın atası Loğman Məmmədov övladının dəfnində iştirak edə bilməyib. Buna səbəb Ziya Məmmədovun böyük qardaşı olan Loğman Məmmədovun Türkiyədə ağır əməliyyat keçirməsidir.

Mərhumənin cənazəsi dəfn olunmaq üçün avqustun 28-də Ucar rayonunun Qazıqumlaq kəndinə aparılıb. Məmmədovlar ailəsi kəndə dəfn üçün toplaşıb.

Məlumata görə, dünən prezident İlham Əliyev Kür çayının üzərindəki körpünün açılışını edərkən Ziya Məmmədov da törəndə iştirak edib və bundan sonra qardaşı qızının dəfn mərasiminə yollanıb.

Virtualaz.org saytı araşdırıb ki, Loğman Məmmədov hazırda Nəqliyyat Nazirliyinin ən böyük avtobazalarından birinə rəhbərlik edir. Onun oğlu Rövşən Məmmədov isə "Transqeyt" MMC şirkətinin təsisçisidir. Bu şirkət 2008-ci ildə yaradılıb və paytaxtda sərnişindaşıma ilə məşğuldur.

**Allah rəhmət eləsin.**

❑ **T.ƏHMƏDLİ**



## ABŞ-dan da İlqar Nəsibovla bağlı bəyanat gəldi

### Məlahət Nəsibova: "Biz bilirik, bu nəyin intiqamıdır..."

**ABŞ Naxçıvanda jurnalist və insan haqları fəalı İlqar Nəsibovun döyülməsini pisləyib.**

Avqustun 27-də yayılmış bəyanatda ABŞ Dövlət Departamenti hadisəyə görə məsuliyyət daşıyanların cəzalandırılmasını istəyib.

Departament Azərbaycan hökumətini ifadə, sərbəst toplaşma və birləşmə azadlıqlarının qorunması üçün «dərhal addımlar» atmağa çağırır.

Hüquq müdafiəçisi İlqar Nəsibov avqustun 21-i axşam saatlarında döyülüb. Aldığı zərbələrdən huşunu itirən Nəsibovu hadisə yerinə çağırılan polislər və həyat yoldaşı xəstəxanaya çatdırıb. Naxçıvan hüquq-mühafizə orqanlarından zərərçəkənə verilən məlumata görə, hadisədə əli olanlardan biri Fərid Əsgərov saxlanılıb.

İlqar Nəsibovla həyat yoldaşı Məlahət Nəsibova Naxçıvanda fəaliyyət göstərən Demokratiya və QHT-lərin İnkişaf Resurs Mərkəzinin həmtəsisçisidir.

**Məlahət Nəsibova** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, döyülən hüquq müdafiəçisinin durumunda nisbətən yaxşılaşma var. Belə ki, İ.Nəsibov artıq sulu yeməklər yeyə bilir: "Düzdür, çeynənəsi yeməkləri yeyə bilmir. Çünki vəziyyəti hələ düzəlməyib".

**Müsahibimiz baş vermiş hadisə ilə bağlı cinayət işi açılmadığını dedi:** "İnzibati araşdırma gedir. Cinayət işi açılmayıb. 1 həftə keçib. Döymə faktı göz qabağındadır.

Mən sizə bir məqamı da deyim ki, İlqarın döyülməsi Turac Zeynalovun döyülməsinin ildönümünə təsadüf edir. Bilirsiz ki, döyülərək öldürülən Turac Zeynalovun işi hazırda Avropa Məhkəməsində, kommunikasiya mərhələsindədir. Suallar göndərirlər, cavablar veririk. İlqarın eyni ərəfədə döyülməsi bir mesaj idi. Onlar bu işin intiqamını İlqardan alırdılar".

Müsahibimiz İ.Nəsibovla bağlı ekspertiza nəticələri barədə hər hansı yenilik olmadığını dedi. Onun sözlərinə görə, tikiş qoyulan yerlər artıq sağalmaq üzrədir, amma ekspertiza nəticələri ortada yoxdur.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Jurnalistikadan getsəniz, hansı işlə məşğul olarsız...?

**Son günlər media sahəsinin ən yaddaqalan xəbərlərindən biri də heç şübhəsiz “Ayna”-"Zerkalo" qəzetlərinin təsisçisi və baş redaktoru Elçin Şıxlının rəhbərlik etdiyi mətbu orqanların fəaliyyətini birdəfəlik dayandırmaqla bağlı qərar verməsi oldu. E.Şıxlı bildirdi ki, rəhbərlik etdiyi “Ayna”-"Zerkalo" qəzetlərinin fəaliyyətini müvəqqəti olaraq dayandırsa da, qəzetlərin yenidən çapı üçün hər hansı bir yenilik olmadığına görə bu qərarı qəbul etmək məcburiyyətində qalıb:**



**Səbuhi Məmmədli:** “Müəllim, məşqçi, yaxşı yemək də bişirə bilirəm...”



**Elçin Zahiroğlu:** “Tamam yeni bir sahəyə baş vuraram”



**Qabil Abbasoğlu:** “Ən faydalı və optimal yol ictimai fəaliyyətlə məşğul olmaqdır”



**Elbrus Ərud:** “Mən hiss edirəm ki, getmək zamanıdır...”

“Yaxın günlərdə qəzetləri birdəfəlik bağlamaq haqda elan verəcəm. Hətta vəziyyət o yerə gəlib çatıb ki, jurnalistikadan birdəfəlik getmək haqda da düşünürəm. Çünki normal jurnalistika ilə məşğul olmağın heç bir mənası yoxdur. Qoy havalar bir az sərinləşsin, beynimiz bir az rahatlaşsın, görək başımıza nə iş gəlir”.

E.Şıxlı jurnalistikadan getsə nə işlə məşğul olacağını bilmədiyini də deyib. Biz də tanınmış baş redaktorun bu mövqeyindən çıxış edib, tanınmış jurnalist və redaktorlardan soruşduq: mətbuatdan getsəniz, hansı işlə məşğul olarsız? Bir az kobud səslənsə də, jurnalistikadan başqa əlinizdən nə iş gəlir?

**Lent.az saytının əməkdaşı Səbuhi Məmmədli tərəddüd etmədən müəllimlik edə biləcəyini bildirdi. “Rezonans” və “Yeni Müsavat” qəzetində işləyə-işləyə 4 il boyunca müəllimlik etdiyini yada salan müsahibimiz maraqlı xatirələrinin olduğunu dedi:** “Açığını deyim ki, indi də Biləcəridəki 300 saylı məktəbdə məni xatırlayırlar. Ən azı müəllimlik edə bilərəm. Bir də mənim futbol komandam vardı. Elə məktəblilərdən, öz şagirdlərimdən ibarət. Onlara xüsusi proqramla məşq keçirdim. Təsəvvür edin ki, 9-cu sinifdə oxuyan şagirdlərim 10-11-ci sinifdəki uşaqları rahatlıqla udurdular. Hələ mən başqa məktəblərin yığmalarını demirəm. Yəni bunu da bacarıram. Bir də yaxşı yemək bişirə bilirəm. Bunu xeyli jurnalist dostumuz da təsdiqləyə bilər”.

**Qafqazinfo.az saytının baş redaktoru Elbrus Ərud isə hesab edir ki, əslində jurnalistika bir gün vaxtından tez getməyin lazım olduğunu göstərən sənətdir. Onun fikrincə, jurnalist peşəsi ulduz peşəsi olduğu üçün gərək vaxtında gedəsən:** “Bunu futbolla da müqayisə etmək olar. Tutaq, təsəvvür edə bilmirəm ki, adam 70 yaşına kimi necə xəbərlə işləməkdə davam edə bilər? Ona görə, məncə, jurnalistlər vaxtında getməlidirlər. Baxmayaraq ki, burada Elçin Şıxlının situasiyası fərqlidir”.

**Müsahibimiz jurnalistikadan gedəcəyi təqdirdə hansı işlə məşğul olacağı ilə bağlı maraqlı fikirlər səsləndirdi. Dedi ki, 50 yaşına kimi pul qazanmağın yolunu bilən adam dolanışıq, məşğuliyyət çətinliyi çəkə bilməz:** “İndi Elcin Şıxlı müəllim işləməklə, kitab yazmaqla, mətbuat müşaviri, məsləhətçisi olmaq və buna bənzər müxtəlif yollarla dolayısı ilə işləyə bilər. Şəxsən mən özüm artıq hiss edirəm ki, getmək zamanıdır. Yaxın bir-iki ilə getməyi planlaşdırıram".

**Aznevs.az saytının redaktoru Elçin Zahiroğlu da jurnalistikadan başqa bir neçə işlə məşğul ola biləcəyini dedi:** “Mən filoloqam, Azərbaycan dili və ədəbiyyat fənnindən dərs deyə bilərəm. Ali məktəbi bitirən kimi, nazirliyin göndərişi ilə bir il müəllim işləmişəm. Nəşriyyatlarda işləyə bilərəm, redaktor kimi. İndiyədək təxminən 15-20 kitabın redaktoru olmuşam. Bundan əlavə, yerli idarə orqanlarında çalışa bilərəm. Bələdiyyə üzvüyəm və bu sahəni yaxşı öyrənmək üçün Türkiyədə təcrübə keçmişəm. QHT sahəsi də mənə tanışdır. Amma mənə elə gəlir ki, indi məşğul olduğum sahədən uzaqlaşsam, sadaladıqlarım yox, tamam yeni bir sahəyə baş vuraram. Əsas inam və çalışqanlıqdır”.

**Lent.az saytının redaktoru Qabil Abbasoğlu isə mediadan uzaqlaşacağı təqdirdə ictimai fəaliyyətlə məşğul ola biləcəyini dedi:** “Bu illər ərzində bizim ictimai sferadan başqa heç yerdə ciddi fəaliyyətimiz olmayıb. Ona görə də qazanılmış təcrübəni elə bu sahədə də istifadə eləyə bilərik. Doğrusu, özümü bir neçə başqa fəaliyyət sahəsində də bacarıqlı sayıram. Amma məncə, mediadan getsəm, ən faydalı və optimal yol ictimai fəaliyyətlə məşğul olmaqdır”.

❑ **Sevìnc TELMANQIZI**

## Müsavat qurultayla bağlı davranış normalarını açıqladı

**Gülağa Aslanlı:** “Cəza nəzərdə tutulmasa da, bu, şərəf və ləyaqət məsələsidir”

**Məlum olduğu kimi, avqustun 28-dən başlayaraq Müsavat başqanlığı uğrunda mübarizəyə və seçki kampaniyasına start verilib. Namizədlərin irəli sürülməsi prosesi artıq başlayıb və sentyabrın 17-nə qədər davam edəcək.**



Gülağa Aslanlı

Kampaniya ilə eyni vaxtda VIII qurultayla bağlı davranış normaları açıqlanıb. Partiyanın qərarına görə, aşağıda qeyd olunanlar seçki kampaniyası dövründə yolverilməz hesab edilir:

**1.** Təşviqat zamanı Müsavat Partiyasının Nizamnaməsinə zidd olaraq dini, milli, irqi və etnik ayrı-seçkiliyə rəvac vermək.

**2.** Müsavat Partiyasının Proqramında əks olunan təməl prinsiplərə zidd ifadələr işlətmək.

**3.** Alternativlərinin ünvanına onun şəxsiyyətini aşağılayan, faktlara söykənməyən, “satqın”, “hakimiyyətin adamı”, “Müsavatın düşməni”, “casus, agent”, etnik və ya region mənsubiyyətini fərqləndirmə və s. kimi ifadələr işlətmək.

**4.** Qurultay nümayəndələrinə maddi yardım təklif etmək və ya göstərmək, görüş zamanı və ya görüşdən sonra namizədin hesabına haqqı ödənilən ziyafət vermək, namizədin kampaniyasında Müsavat Partiyasının maliyyə resurslarından istifadə etmək, qurultay nümayəndələrinin nəqliyyat xərclərini namizədlər tərəfindən ödəmək *(zəruri hallarda qurultay nümayəndələrinin nəqliyyat xərclərini ödəmək QHTK-da həll oluna bilər)*.

**5.** Qurultay günü qurultay nümayəndələrinə təbliğat xarakterli siyahılar paylamaq.

**6.** Namizədlərə Müsavat Partiyası qərargahının otaqlarından, zalından, texniki vasitələrindən və digər resurslarından istifadəyə qadağa qoymaq.

**7.** Namizədin təşkil etdiyi görüşlərə mane olmaq və görüşləri pozmaq.

**8.** Say komissiyasının sədri, müavini və üzvləri təbliğat işində iştirak edə bilməz.

**9.** Başqanlığa namizədlərin partiya başqanının adından sui-istifadə etməsinə yol verilmir.

Müsavat başqanının müavini Gülağa Aslanlı irəli sürülən davranış normalarına əməl olunmayacağı təqdirdə hər hansı bir cəza metodunun nəzərdə tutulmadığını bildirdi: “Bu davranış normaları ilə bağlı xüsusi bir cəzalandırma mexanizmi nəzərdə tutulmasa da, o, şərəf və ləyaqət məsələsidir”.

Başqan müavini seçkili orqanlara artıq müraciət edən namizədlərin sayının anbaan artdığını söylədi: “Seçkili orqanlara namizədlərin irəli sürülməsi prosesinə start verilən andan etibarən artıq başqanlığa 1, MNTK-ya 2, Məclisə isə 6 nəfər iddiasını irəli sürüb”.

❑ **Cavanşir ABBASLI**

# “Cəmil Quliyev İTV-də formal fiqurdur”

İTV-nin keçmiş işçisi Yusif Günaydın telekanaldakı vəziyyətdən yazır

**“Bir azdan səhhəti ilə bağlı problemləri bəhanə edib, vaxtından əvvəl istefa ərizəsi yazacaq”**

**Tanınmış telejurnalist, İTV-də yayımlanan “Qərib axşamlar” verilişinin aparıcısı Yusif Günaydın sərt yazı ilə çıxış edib. O, İTV-nin rəhbərliyi və televiziyanın bugünkü vəziyyəti ilə bağlı çox ağır ittihamların yer aldığı yazını AzNews.az-ın elektron ünvanına göndərərək, onun yayımlanmasını xahiş edib. “Yeni Müsavat” yazının olduqca böyük həcmdə(təxminən 4 qəzet səhifəsi) olduğunu nəzərə alıb, ordakı əsas nüansları oxucuların diqqətinə çatdırır.**

Y.Günaydın yazıb ki, 9 il bundan öncə öz işini yaxşı bilən professionalların gərgin, ardıcıl zəhməti sayəsində İTV-də qazanılmış nailiyyətlər təəssüf ki, bir neçə ay ərzində yenidən sıfıra endirildi, İTV yüksək reytinqi ilə yanaşı ictimaiyyətin rəğbətini, hörmətini də itirdi: “İndi heç kim üçün sirr deyil ki, bu deqrodasiya Cəmil Quliyev və onun kimi digər ”televiziya xadimlərinin" İTV-yə axışıb, əllərinə qəfil fürsət düşmüş kəmfürsətlər kimi orada qızğın fəaliyyətə başlaması ilə start götürdü. Bu fakt da artıq hər kəsə məlumdur ki, Cəmil Quliyev İTV-də formal bir fiqurdur, nominal baş direktordur. Onun əvəzinə öz qabiliyyəti miqyasında düşünən, qərar qəbul edən var. Cəmil bu qərarların dinməz icraçısıdır. Məsələ təkcə onun və onunla gələnlərin hamısının idarəçilik təcrübəsinin olmamasında deyil. Cəmil Quliyev təbiət etibarı ilə idarə edən yox, idarə olunandır! Bu gün İTV-nin bütün strukturlarını bürümüş ağır böhranın ilkin səbəbi budur!"

“İlk dəfə onunla yaxından tanış olanda Cəmil 24-25 yaşlı qırmızıyanaq bir gənc idi” yazan Y.Günaydının sözlərinə görə, hazırda sədrin adı ilə bağlı nə varsa, çoxdan xoş xatirələr düzümündən çıxıb, təəssüflər doğuran keçmişə çevrilib.



Yusif Günaydın

**Y.Günaydın yazıb ki, C.Quliyevlə işlədiyi 10 ay müddətində sədr iki dəfə kollektivi bir araya toplayıb, onun qarşısında monoloqlarla çıxış edib:** “Gərək bu fikrə düşməyəydi. Sokrat deyirdi ki, danış görüm kimsən? Bizim natiq danışmağa başlayandan dərhal sonra hamıya məlum oldu ki, o konkret nədən bəhs edəcəyini bilmir, nitqini nə ilə başlayıb nə ilə bitirəcəyi haqda dəqiq təsəvvürü yoxdur. Odur ki, bir qədər ordan-burdan danışandan sonra keçdi öz şəxsi personasına - ”mən ziyalı adamam, hamıya siz deyə müraciət edirəm"".

**Y.Günaydın daha sonra verilişinin canlı efirdən çıxarılması *(videoya yazılıb efirə buraxılması)* ilə bağlı ona rəhbərlik tərəfindən məlumat verildiyini yazıb:** “Get-gedə mənə olan təzyiq daha da artmağa başladı. Cümə axşamı səhər saat 11-də videoyazısı olacaq verilişə dəvəti nəzərdə tutulmuş qonaqların siyahısını ənənəyə sadiq qalaraq Cəmil Quliyevin yardımçısı vasitəsilə ona ötürdüm. Az sonra siyahını mənə qaytaran yardımçı buyurdu ki, Cəmil Quliyevin heç bir etirazı yoxdur, siyahını təsdiqləyir, amma onu filan müavininə də göstərib, bu şəxsin razılığını almağı tələb edir. Bəli, sürprizlər davam edir, sən demə, baş direktorun təsdiq etdiyi sənədi sonra onun müavininin müzakirəsinə vermək lazım imiş!"

**Müəllif yazıb ki, hazırda İctimai Televiziyanın tam iflasa uğrayıb tamaşaçı auditoriyasını itirməyinin ikinci ciddi səbəbi onun baş direktorunun yaradıcı konsepsiyaya, müdrik efir strategiyasına malik olmamasıdır:** “Qısa zamanda öncül televiziya kanalını AzTV-nin sönük filialına çevirməklə onu tamaşaçı auditoriyasından, dünya azərbaycanlılarının rəğbətindən, Azərbaycanı sevən, onun tarixi, mədəniyyəti ilə maraqlananların diqqətindən məhrum etdilər. Bundan kimlər qabaq düşdü, kimlər uddu, demək çətindir, amma uduzan ictimaiyyətimiz oldu, bunu hamı birmənalı şəkildə təsdiq edir”.

**Y.Günaydın onu da iddia edib ki, C.Quliyev İTV-də ötəri, müvəqqəti fiqurdur:** “Müəyyən mərhələ başa çatandan sonra çox güman ki, səhhəti ilə bağlı problemləri bəhanə edib, vaxtından əvvəl istefa ərizəsi yazacaq. Onun müavinləri arasında yatıb, özünü indidən baş direktor kreslosunun sahibi kimi görənlər var”.

**P.S.** *Qarşı tərəfin mövqeyini işıqlandırmağa hazırıq.*

❑ **Hazìrladı SEVÌNC**

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014

# Hansı partiya sədrləri şeyxi təbrik edib?

**Avqustun 26-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadənin 65 yaşı tamam oldu. A.Paşazadə 1949-cu il avqustun 26-da Lənkəran rayonunun Cil kəndində anadan olub. İlk dini təhsilini yerli din adamlarından alan şeyx 1968-ci ildə Buxarada "Mir-Ərəb" mədrəsəsinə daxil olub və dini təhsilini 1975-ci ildə Daşkənd İslam Universitetində bitirib.**



**İsa Qəmbər:**
"Biz onunla ölkə rəhbəri arasındakı münasibətlərə problem yaratmaq istəmirik"



**Mirmahmud Mirəlioğlu:**
"Hacı Allahşükür Paşazadə bütün iqtidarların dövründə öz sözünü demək gücünə malik olan şəxsiyyətdir"



**İqbal Ağazadə:**
"Şeyxin iqamətgahına hədiyyəmizi də, təbrik açıqcamızı da göndərdik, təbrik etdik"



**Sərdar Cəlaloğlu:**
"Onun rəhbərlik elədiyi Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan hakimiyyətinin bir qolu kimi fəaliyyət göstərir və kifayət qədər siyasiləşmiş qurumdur"

A.Paşazadə 1975-ci ildən QMİ-nin məsul katibi, sədr müavini, "Təzəpir" məscidinin axundu olub. 1980-ci ildə QMİ sədri seçilib və Şeyx-ül-islam dərəcəsinə yüksəlib. 1992-ci ildə Azərbaycan, Dağıstan, Kabardin-Balkar, Gürcüstan, İnquşetiya, Çeçenistan, Qaraçay-Çərkəz və Adıgeyin din xadimləri tərəfindən Qafqaz xalqlarının Ali Dini Şurasının sədri seçilib. Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktorudur.

Şeyx sırf din adamı olsa da ona münasibət birmənalı deyil. Xüsusilə də onun müəyyən anlarda siyasətə müdaxiləsi normal qarşılanmayıb. Bu fərqli yanaşmaya baxmayaraq, Paşazadə 20 Yanvar hadisələri zamanı, imperiya cəlladlarına sərt reaksiyası ilə adını tarixə yazıb.

Xəbər verildiyi kimi, Azərbaycan prezidenti İlham Əliyev Hacı Allahşükür Paşazadəni 65 illik yubileyi münasibətilə təbrik edib.

Şeyxin yubileyini müxalifət partiyalarından kimlərinsə təbrik edib-etmədiyini araşdırdıq.

**Müsavat Partiyasının başqanı İsa Qəmbərin bir cümləlik cavabından belə məlum oldu ki, o, şeyxi təbrik etməyib:** "Biz şeyxlə ölkə rəhbəri arasında idillik *(dinc, sakit, qayğısız mənasını verir.E.S.)* münasibətlərə problem yaratmaq istəmirik".

**KXCP sədri Mirmahmud Mirəlioğlu məlumat verdi ki, Hacı Allahşükür Paşazadəni şəxsən zəng edərək təbrik eləyib:** "Doğum günündən bir gün öncə danışıb təbrik eləmişəm. 50 yaşında da ona xüsusi yazılı təbrikim olmuşdu ki, həmin təbrik haqqında yazılan kitaba daxil edilib. Şeyxülislam Hacı Allahşükür Paşazadənin xidmətlərini bu gün çağdaş ictimai-siyasi həyatda yaşayan hər kəs bilir. Təlatümlü dövrlər, dəyişən hakimiyyətlər bir yana, amma Azərbaycanın ictimai-siyasi həyatında Hacı Allahşükür Paşazadənin kifayət qədər xidmətləri var. Azərbaycanda, regionda kifayət qədər xidməti olan şəxsdir Hacı Allahşükür Paşazadə. Onun 1990-cı il yanvar ayının 22-də müqəddəs şəhidlərimizin dəfn mərasiminə necə rəhbərlik elədiyi hər kəsin yadındadır. O zaman sovet imperiyasının rəhbəri Mixail Qorbaçova çox adamlar "cənab prezident" deyə müraciətlər göndərəndə Hacı Allahşükür Paşazadə tamamilə başqa cür-sərt müraciət etdi. Hamı yaxşı xatırlayır ki, o, vətəndaş mövqeyindən çıxış edərək, xalqın sözünü imperiya paytaxtına necə ünvanlamışdı. Bu, həmin dövr idi ki, çox təhlükəli vəziyyət hökm sürürdü, biz şəhidlərimizi vertolyotların, rus qoşunlarının, gəmilərin nəzarəti altında həyata keçirirdik. Azərbaycan Xalq Cəbhəsinin İdarə Heyəti də o zaman çox böyük təhdid, basqı altında idi. Sonrakı dövrlərdə, məsələn, 1992-ci ilin sentyabrında Qafqaz Evinin formalaşmasında Hacı Allahşükür Paşazadənin xidmətləri olub. Qroznıda keçirilən tədbirdə millət vəkili olaraq iştirak etmişik. Ona olan ehtiramı orada görmüşük. Sonrakı dövrlərdə də Hacı Allahşükür Paşazadənin xidmətləri ortadadır. Hacı Allahşükür Paşazadə bütün iqtidarların dövründə öz sözünü demək gücünə malik olan şəxsiyyətdir. Mən onu təbrik edirəm, cansağlığı arzulayıram. Azərbaycanda tolerantlığın da formalaşmasında onun kifayət qədər xidmətləri var. Hesab edirəm ki, hələ də Azərbaycan üçün görəcəyi işlər var".

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, Şeyx həzrətlərini 65 illik yubileyi münasibətilə təbrik edib**: "Doğum günü Şeyxin iqamətgahına hədiyyəmizi də, təbrik açıqcamızı da göndərdik, təbrik etdik. Hacı Allahşükür Paşazadə Azərbaycanın ictimai-siyasi mühitində kifayət qədər hörməti, nüfuzu və çəkisi olan, tarixin müxtəlif dönəmlərində hadisələrə məhz dini lider kimi yanaşan adam olub. Fəaliyyətində müxalifət olaraq bizi qane edən-etməyən tərəflər ola bilər, amma Şeyx həzrətlərinin ictimai-siyasi nüfuzuna və cəmiyyətdəki yerinə görə kifayət qədər samballı birisidir. Biz də hər zaman bunu dəyərləndiririk".

**ADP sədri Sərdar Cəlaloğlu isə Paşazadəni yubileyi münasibətilə təbrik etməyib və media vasitəsilə də təbrik etmək niyyətində deyil:** "Mən onu təbrik etməmişəm və etmək fikrim də yoxdur. Allahşükür Paşazadənin rəhbərlik elədiyi Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan hakimiyyətinin bir qolu kimi fəaliyyət göstərir və kifayət qədər siyasiləşmiş bir qurumdur. Azərbaycanda ümumiyyətlə dinin təbliğindən daha çox siyasi hakimiyyəti təbliğ edir. Ona görə də şəxsən mən Qafqaz Müsəlmanları İdarəsini Azərbaycanın bütün müsəlmanlarının maraqlarını müdafiə edən, heç kimə ayrı-seçkilik qoymayan qurum hesab etmirəm. Hakimiyyətin isə Allahşükür Paşazadəni təbrik eləməsi təbiidir. Çünki o, hakimiyyətə xidmət edir, heç dinin özünə hakimiyyətə etdiyi qədər xidmət eləmir. Bu gün Azərbaycanda ən müxtəlif təhlükəli dini təriqətlər insanları öz sıralarına qoşurlar. Qafqaz Müsəlmanları İdarəsi isə insanları bu yanlış yoldan döndərməkdə acizdir. Ona görə ki, insanlar arasında nüfuzu, hörməti yoxdur. Azərbaycan vətəndaşları bu baxımdan dini nöqteyi-nəzərdən başsız qalıb".

❑ Etibar SEYİDAĞA

# Arif Hacılı seçki kampaniyasını necə aparacağını açıqladı



Arif Hacılı

## "Bu seçkilər mənim indiyədək iştirak etdiyim seçkilərdən əsaslı surətdə fərqlənir"

**Dünəndən Müsavat Partiyasının başqanı vəzifəsinə namizədlərin rəsmi irəli sürülməsi və seçki kampaniyasına start verilib. İstənilən Müsavat Partiyası üzvü başqanlığa, həmçinin Məclis üzvlüyünə namizədliyini Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinə rəsmi ərizə ilə müraciət edə bilər.**

*Qeyd edək ki, indiyə qədər 4 nəfər namizədliyini irəli sürmək niyyətində olduğunu açıqlayıb. Onların iddialarını rəsmiləşdirməsinə bu gündən başlayacağı gözlənilir. Müsavat başqanlığına əsas iddiaçılardan partiyanın Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılıya seçki kampaniyası barədə suallarımızı ünvanladıq.*

***- Arif bəy, seçki kampaniyasını necə quracaqsınız, konkret iş planı varmı?***

- Mən həyatımda çoxlu seçki kampaniyalarında iştirak etmişəm. Bir sıra respublika miqyaslı seçki kampaniyalarına rəhbərlik eləmişəm. Həm özüm namizəd olaraq, həm namizədlərin nümayəndəsi olaraq seçki kampaniyalarında kifayət qədər təcrübə toplamışam. Amma açığını deyim ki, indi keçiriləcək seçkilər mənim indiyədək iştirak etdiyim seçkilərdən əsaslı surətdə fərqlənir. Çünki bu seçkilərdə faktiki olaraq Müsavat Partiyasının üzvləri ilə opponentlik etmək zərurəti ortadadır və seçkilərdən sonra indi opponent olduğumuz şəxslərlə birlikdə Müsavat Partiyasının ideoloji-siyasi xəttinə uyğun fəaliyyət göstərəcəyimizi nəzərə alsaq, təbii ki, burada bir sıra yeni nüanslar üzə çıxır. Ona görə mən seçki kampaniyasının taktikası barədə məsləhətləşmələrimi bu gün də davam etdirirəm. Biz öz seçki kampaniyamızın qurulmasında ilk növbədə opponentimizin də Müsavat Partiyasının üzvü, Müsavatın işində seçkilərdən sonra da fəal iştirak edəcək adamlar olduğunu nəzərə almaqla seçki kampaniyası qurmaq niyyətindəyik.

***- Bunu belə qəbul etmək olarmı ki, kəskin qarşılıqlı ittihamlarla müşayiət olunmayan kampaniya keçəcək?***

- Məncə, olunmamalıdır. Açığı, bu seçkilərə mən nəticələrinin həlledici rol oynayacağı seçkilər kimi yanaşmıram. Hesab edirəm ki, bu seçkilərdə qələbənin özü hansısa böyük siyasi uğur, məğlubiyyət isə siyasi uğursuzluq kimi dəyərləndirilməməlidir. Çünki burada çox səs toplayan tərəf də, az səs toplayan tərəf də Müsavat Partiyası üzvlərindən ibarət olacaq. Seçki kampaniyasını o şəkildə aparmalıyıq ki, seçkilərin sonunda Müsavat Partiyası bu sınaqdan güclənmiş çıxsın.

***- Kampaniya müddətində rayonlarda qurultay nümayəndələri ilə görüşləriniz olacaq?***

- Müsavat Partiyasının qurultay nümayəndələrinin demək olar ki, hamısını şəxsən tanıyıram. Bu şəxslərlə birlikdə 20 ildən artıqdır ki, siyasi mübarizə aparırıq. Öz işimin mahiyyətinə uyğun olaraq mən daim rayonlarda, kəndlərdə olmuşam, Müsavat Partiyası rayon təşkilatları ilə, rayon təşkilatları özəklərinin nümayəndələri ilə təmasda olmuşam. Bizim regionlarla əlaqələrimiz permonent xarakter daşıyıb. Yəni heç vaxt bu əlaqələrə həbsxanada olduğumuz dövrlər istisna olmaqla fasilə verilməyib. Seçki kampaniyası dövründə də yəqin ki, əvvəlki əlaqələrimiz yenə də davam edəcək.

***- Açıqlamalara əsasən söyləmək olar ki, hazırda başqanlığa siz də daxil olmaqla, 4 nəfər namizədliyini vermək iddiasındadır. Amma kampaniyanın gedişində indiyə qədər başqanlığa namizədlikdə adı hallanmayan, iddialı olduğu sezilməyən kimlərsə namizədliyini irəli sürə bilərmi?***

- Sentyabrın 17-dək namizədlərin irəli sürülməsi davam edəcək. Hesab edirəm ki, bu dövrdə başqa namizədlərin də irəli sürülməsi mümkündür.

***- Namizədlərin çox olması, yoxsa az olması qələbəyə iddialı namizəd üçün sərf edir?***

- İstənilən halda Müsavat başqanlığına iddiaçı adamların çox olmasını mən müsbət hal kimi dəyərləndirirəm. İndiki çətin dövrdə, müxalifətə qarşı amansız bir mübarizənin getdiyi bir məqamda belə məsuliyyətli bir vəzifəyə iddia etməyin özü müəyyən fədakarlıq tələb edir. Bu baxımdan namizədlərin çoxluğu məni narahat etmir.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014

**Rusiya və Ukrayna arasında yaşanan münaqişə Azərbaycanda da böyük maraqla izlənilir. Bir çoxları regionda mövqelərini gücləndirən şimal qonşumuzun Cənubi Qafqaza yönələ biləcəyindən ehtiyatlanır və proseslərin bizə də təsir edəcəyindən çəkinirlər. Bəs, görəsən, bu narahatçılığın əsası varmı?**
**Əməkdar hüquqşünas, hüquq elmləri doktoru, professor İlham Rəhimov moderator.az-ın suallarına cavab verir:**

# "Roma Papasını qorxudan müharibə heç vaxt olmayacaq"

## Professor İlham Rəhimov: "Amerika, Rusiya və Avropa dövlətləri bizə istədiyimiz diqqəti ayırmırlar"

*(əvvəli ötən sayımızda)*

***- Bəs o zaman Avrasiya İttifaqı nəyə xidmət edir?***

- Avrasiya İttifaqı sırf iqtisadi əməkdaşlığı nəzərdə tutan birlikdir. O, heç vaxt siyasi bir quruma çevrilməyəcək. Prinsipləri iqtisadi əməkdaşlığı gücləndirmək olan bu qurumu tamamilə başqa donda təqdim etmək doğru deyil. Bu gün bütün dünya dövlətləri iqtisadi cəhətdən bir-birinə bağlıdır. Qloballaşan dünyada milli kapitallar beynəlxalq xarakter almağa başlayıb. Fərqli geosiyasi məkanlar arasında yaranan iqtisadi əməkdaşlıqlar günün zərurətidir, belə əməkdaşlıqlar dövlətlərin izolyasiyadan çıxmasına gətirib çıxarır, onların zəifləməsinin qarşısını alır. Bu prosesdə yaranma əsaslarından *(ideoloji, iqtisadi, hərbi)* asılı olmayaraq dövlətlərin inteqrasiyası baş verir. Bu cür əməkdaşlıqdan yalnız bir tərəf yox, bütün tərəflər xeyir götürür. Mən də məhz bu həqiqətdən çıxış edərək dəfələrlə demişəm ki, Azərbaycan hakimiyyəti Avrasiya Birliyinə daxil olmaq prosesini dərindən araşdırmalıdır. Əgər bir dövlət olaraq bu ittifaqdan fayda götürəcəyiksə, önümüzdə açılan fürsəti düzgün qiymətləndirməliyik.

***- Siz necə fikirləşirsiniz, bu ittifaqa qoşulmaq bizim üçün xeyirlidirmi?***

- Bilirsinizmi, bu məsələdə bir sıra nüanslar var. Bu nüansları bilmədən həmin suallara cavab vermək mümkün deyil. İctimaiyyətdə bu gün bir sıra ziddiyyətli mülahizələr yürüdülür. Məsələn, bir tərəfdən deyilir ki, Rusiya Qarabağ probleminin həllində maraqlı deyil. Digər tərəfdən isə Rusiyanın bizi yaranmaqda olan yeni ittifaqda görmək istədiyi bildirilir. Qarabağ problemi həll olunmasa, bizim o ittifaqda yer almağımız mümkündürmü? Əlbəttə, xeyr. Belə çıxır ki, Rusiya bizi o ittifaqda görmək istəyirsə, deməli, Qarabağ probleminin həllində maraqlıdır. Qərb isə Azərbaycanı bu ittifaqda görmək istəmir və bu onun maraqlarına uyğundur. Qərbin təsiri altında olan nüfuzlu beynəlxalq təşkilatların bu illər ərzindəki fəaliyyəti buna sübutdur. Belə olan halda, əslində beynəlxalq təşkilatlar, o cümlədən də Qərb Qarabağ probleminin həllində maraqlı deyil. Məncə, səlahiyyətli şəxslər Avrasiya Birliyi haqda qərar verərkən bu məqamları düşünməli və bəzi milli maraqlarımızdan doğan prinsipləri ilkin şərt olaraq irəli sürməlidirlər. Mən o müzakirələrdə iştirak etmədiyimə və bu haqda heç bir informasiyaya malik olmadığıma görə hər hansı fikir irəli sürməkdə çətinlik çəkirəm.

***- Avrasiya İttifaqının qurulmasını istəyən Rusiyanın yeni birliyi əmələ gətirəcək subyektlərin ərazi bütövlüyündə maraqlı olduğunu deyirsiniz. Halbuki həmin Rusiyanın özü Ukraynaya hərbi müdaxilə edir.***

- Yeri gəlmişkən, bir məsələni qeyd etmək istəyirəm ki, Avrasiya İttifaqı ideyası çoxdan mövcud idi, müəllifi də Qazaxıstan prezidenti N.Nazarbayev idi. 2000-ci illərin əvvəllərində, L.Kuçmanın prezidentliyi dövründə Ukraynanın da adı çəkilən ittifaqa girməsi gündəlikdə idi. O ki qaldı Rusiyanın Ukraynaya hərbi "müdaxilə"si məsələsinə... Siz hansı əsasla bu iddianı irəli sürürsünüz? Münaqişə zonasında olmusunuz? Özünüz belə bir müşahidə aparıbsınız? Axı bayaq dedim ki, bizdə yayılan xəbərlərin əksəriyyəti müxtəlif maraqlı dairələr tərəfindən yayılır və onlara etibar etmək düz deyil.

***- Videogörüntülər var. Qatarlarla tanklar, hərbi texnikalar daşınır...***

- Bu, sadəlövh iddiadır, KİV-in indiki texniki imkanları hamıya bəllidir. Bu baxımdan dediyiniz texnikaların hara aparıldığını, hansı dövlətə aid olduğunu müəyyənləşdirmək mümkün deyil. Unutmaq olmaz ki, hazırda bu problemlə bağlı əslində nəhəng informasiya müharibəsi aparılır. Konkret şəxslər, siyasi partiyalar, milliyyətçi qruplaşmalar və s. vəziyyəti gərginləşdirmək, öz siyasi ambisiyalarını reallaşdırmaq məqsədilə bi qəbildən olan, çox vaxt heç bir reallığa əsaslanmayan informasiyalar yaymaqla məşğul olurlar. Ukrayna hökuməti isə bu barədə Rusiyaya rəsmi nota ünvanlamayıb. Ukrayna da, Rusiya da vaxtilə eyni dövlətin subyektləri olublar. Həmin dövlətin vahid bir ordusu vardı. O ordudan qalan texnikalar da eynidir. Ukraynada baş verən son hadisələr zamanı sözügedən hərbi sursatlar müxtəlif tərəflərin əlinə keçib. İndi orda vətəndaş müharibəsi gedir və tərəflər eyni tipli texnikalarla vuruşur. Görüntüyə görə mülahizə yürütmək doğru deyil. Gəldiyiniz qənaət o zaman obyektiv olar ki, hadisələri öz gözünüzlə müşahidə edəsiniz. Əks təqdirdə, bir-birini ittiham edən tərəflərin informasiya savaşı xətrinə dedikləri hər hansı hökmü çıxarmaq üçün əsas sayıla bilməz. Üstəlik, indiki Ukrayna hökumətinin tərəfdaşı olan dövlətlərin kosmosdan Yer kürəsini izləmək imkanları var. Əgər Rusiyadan Ukraynaya hər hansı silah keçirilsəydi, bunu dərhal dünyaya yayar, ifşa edərdilər. İndiyə qədər bu cür materialla tanış olmusunuzmu? Ona qalsa, Rusiya KİV-ləri də NATO haqqında eyni sözləri deyirlər. Deyirlər ki, NATO Ukraynaya silah verir. Hansı tərəfin düz dediyini müəyyənləşdirmək üçün obyektiv araşdırmalar aparılmalıdır.

***- Bəs o zaman separatçılar öz güclərini hardan alırlar?***

- Mən separatçı sözüylə razılaşmıram. Əslində bu müharibənin kökündə daha ciddi və təhlükəli, mürtəce bir siyasət durur. Bu siyasətin müəllifləri Ukraynada etnik təmizləmə məqsədi güdürlər. Müharibə prosesinin bu şəkildə davam etməsi dediklərimizə əsas verir. Hazırda Ukraynanı milyondan yuxarı rus mənşəli insan tərk edərək ac, yalavac Rusiyaya köçüblər və bu proses davam edir. Sizcə, bu nə qədər Rusiyanın xeyrinədir və marağına daxildir? Etnik siyasətin perspektivi məlumdur. Müharibə yolu ilə etnik təmizləmə prosesinin dünyada hansı fəsadlar törətməsi bəllidir. Ukraynada faktiki iki ordu bir-biriylə mübarizə aparır. "Separatçı" dediyiniz insanlar öz vətənlərində yaşamaq, öz dillərində danışmaq istəyirlər. Separatçı siyasətçidən olar, hansısa qrupdan, partiyadan olar. Ordu isə separatçı ola bilməz. Adlarını çəkdiyimiz bölgələrdəki insanlar öz taleyini müəyyənləşdirmək üçün vətəndaş müharibəsi aparır. Bu, Ukrayna dövlətinin daxili işidir.



***- Şərti olaraq onlar separatçı adlandırılırlar. Hər halda, rəsmi Kiyevə qarşı vuruşanlar Ukraynadan ayrılmaq istəklərini gizlətmirlər.***

- Onların ayrılmaq istəmələrinin səbəbləri var. Bu səbəbləri araşdıranda günahın rəsmi Kiyevdə olduğu ortaya çıxır. Mən bir dəfə bu barədə demişəm ki, Kiyev əvvəldən düzgün yol seçmədi. Gah əhalisinin əhəmiyyətli kəsimi rus olan ölkədə bu dili qadağan etdi, gah başqa millətləri sıxışdırdı. Bu da istər-istəməz ölkəni parçalanmağa doğru apardı. Rəsmi Kiyev əvvəldən rasional siyasət aparsaydı, bu nəticələr də ortaya çıxmayacaqdı. Separatizm təkcə azlığın millətçiliyi deyil və təkcə milli məsələ ilə bağlı deyil. Həm də çoxluğun özünü digərlərindən üstün tutmasıdır. Bütün çoxmillətli toplumlarda separatist meyllər çoxluğun digərlərini təcrid siyasətindən başlayır. Bu mənada Ukraynada əsl separatist qüvvənin hansı olduğunu demək çətindir.

Rəsmi Kiyev öz ölkəsinin vətəndaşı olan başqa millətlərə qarşı təcrid siyasətindən əl çəkməsə Ukraynanın parçalanmasının önünü kəsmək mümkün olmayacaq. Bu gün orda yaşayan digər millətlərin nümayəndələri dərin qorxu içindədirlər. Ultra-millətçi qüvvələrin qəzəbinə gəlməyəcəklərindən əmin deyillər və bu siyasət yalnız ruslara qarşı da yönəlməyib. Əslən Azərbaycandan olan Ukrayna vətəndaşları da basqılara az məruz qalmayıblar. Yadınızdadırsa, bir müddət əvvəl bir neçə azərbaycanlı iş adamının öldürüldüyü, mal-dövlətlərinin qəsb olunduğu xəbəri yayılmışdı. Ukraynada baş verənlər də bu səbəblərdən xali deyil. İnsanlar, müxtəlif etnik kimlik daşıyan toplumlar özlərini qorumaq üçün müqavimət göstərməyə məhkum olublar.

O ki qaldı Ukraynada yaşayan rusların öz mənəvi gücünü hardan almasına, bu məsələ aydındır. Heç kim deyə bilməz ki, Rusiya humanitar yardımını, maddi, mənəvi dəstəyini soydaşlarından əsirgəyir. Hansı dövlət Rusiyanın yerinə olsaydı o cür edərdi. Özünüz düşünün. Gürcüstanda yaşayan azərbaycanlılar çətin vəziyyətdə olsaydılar, siz onlara humanitar yardım etməzdiniz?

***- Elə seçim qarşısında qalsaydım, humanitar yardım adı altında silah da verərdim. Burada qeyri-adi heç nə görmürəm.***

- Mən Rusiyanın Ukraynadakı ruslara silah verməyini həqiqətən də bilmirəm. Amma hesab edirəm ki, Donetskidə, Slavyanskidə və Luqanskidə Ukrayna ordusundan qalma çox sayda silah var. Adlarını çəkdiyimiz bölgələrdə hələ keçmiş SSRİ-dən qalma strateji əhəmiyyətə malik hərbi-sursat ehtiyatları mövcud idi. Rusiyanın onlara silah verməsinə ehtiyac yoxdur. Rəsmi Moskva öz soydaşlarının yarasını sarımaq üçün dərman, ərzaq, geyim-keçim versə, bu elə onlar üçün böyük mənəvi dəstək olardı. Böyük ehtimalla verilən yardım da bunlardan ibarətdir.

***- İstər Ukraynada, istərsə də Yaxın Şərqdə baş verənləri Roma Papası Üçüncü Dünya müharibəsi adlandırıb. Onun fikirlərinə görə, ilk ikisindən fərqli olaraq indiki müharibə sadəcə total xarakter daşımır. Hadisələrin axarı isə Rusiyanın hadisələrə fəal müdaxilə edəcəyini göstərir. Yəqin ki, Avropa dövlətləri də buna laqeyd qalmayacaqlar. Necə fikirləşirsiniz, bu gərginlik total müharibəyə səbəb ola bilərmi?***

- Zənn etmirəm. Üçüncü Dünya müharibəsi heç kimə sərf etmir. Super gücləri idarə edənlər elə şəraitdə yaşayırlar ki, dünya veclərinə də deyil. Müharibə onlara heç nə vermir. O cür lüks həyatı, gözəl yaşayışı bir kənara atıb onlar müharibə istəyərlər? Özü də nəyə görə etməlidirlər -Ukraynaya görə?

***- Bəs onda Ukraynadakı hadisələri necə izah edirsiniz?***

- Orda baş verənlər vətəndaş müharibəsidir və ölkədaxili qüvvələr arasında gedir. Ukraynanın elə bir gücü, imkanı yoxdur ki, Rusiyayla müharibəyə girsin. Kiyev hətta sizin "separatçı" dediyiniz qüvvələrlə vuruşa bilmir. Dağılmış iqtisadiyyatı, faktiki olaraq iki yerə bölünmüş əhalisi ilə onun Rusiya qarşısında duruş gətirməyə heç vaxt gücü çatmaz. Həqiqi müharibənin olması üçün gərək Qərb ölkələriylə Rusiya vuruşsun. NATO qüvvələri işə qarışsın. Qərb ölkələri gözəl bilirlər ki, hadisələrə hərbi müdaxilə etsələr, ruslar Ukraynayla kifayətlənməzlər, ümumiyyətlə, tarixən Rusiya ilə müharibələrin nəticələrini Qərb ölkələri xatırlamaya bilməzlər. Roma Papasını qorxudan müharibə heç vaxt olmayacaq.

***- Regionda baş verən proseslər yeni bir geosiyasi vəziyyətin yarandığına dəlalət edir. Əvvəl Rusiya və ABŞ bölgəyə eyni və ya bir-birinə yaxın baxış bucağından yanaşırdılar. İndisə münasibətlərdə kifayət qədər haçalanma hiss olunur. Nəticədə bölgə dövlətləri öz ənənəvi balanslaşdırılmış xarici siyasət kursunu əvvəlki kimi davam etdirməkdə çətinlik çəkirlər. Bu çətinlik bizim üçün də keçərlidir. Sizcə, belə bir seçim qarşısında Azərbaycan nə etməlidir?***

- Biz hesab edirik ki, super dövlətlər bizimlə maraqlanır, problemlərimizi həll etməyə çalışırlar. Bir az Azərbaycandan qırağa çıxanda isə tamamilə başqa mənzərənin şahidi olursan. Görürsən ki, Azərbaycanın problemləri digər dövlətlərin diqqətini o qədər də cəlb eləmir. Hətta Qarabağ probleminin həllində belə heç bir dövlət ciddi səy göstərmir. Nə Amerika, nə Rusiya, nə də Avropa dövlətləri bizə istədiyimiz səviyyədə diqqət ayırmırlar. Onların başı ərəb ölkələrinə, İsrail-Fələstin məsələsinə qarışıb. Yaxın Şərq dünyanın ən zəngin neft ehtiyyatına malik bölgəsidir. Maraqlar da əsasən orda toqquşur. Ordakı problemlər də uzun müddət davam edəcək. Azərbaycan, Cənubi Qafqaz məsələsi bu gün olduğu kimi, yaxın gələcəkdə də diqqət mərkəzində olmaya bilər. Bir də ki, Amerikayla Rusiya arasındakı ziddiyyətləri də çox şişirtmək lazım deyil. Onlar son anda bir-biriləri ilə dil tapacaqlar. Bayaq dediyim kimi, iqtisadi maraqlar bu gün bütün güclü dövlətləri əməkdaşlığa təşviq edir. Cənubi Qafqaz məsələsi üstündə isə onlar heç vaxt ciddi şəkildə ixtilafa getməzlər. Bunun əlamətlərini biz görmüşük ki...

***- Amma görünən budur ki, ABŞ-la Rusiyanın ulduzları barışmır. Son vaxtlar hətta Sibiri də Rusiyadan ayırmaq ideyası ortaya atılıb. Bu fikir nə qədər realdır?***

- Sibir ayrılıb kimə birləşəcək ki?

***- Yəqin müstəqil olacaq.***

- Bunlar qeyri-ciddi, diletant yanaşmalardır. Sibir yüz illərlə Rusiyanın torpağı olub və burada ruslar söz sahibidirlər. Müstəqil dövlət kimi mövcud olmaq perspektivi yoxdur. Sibir zəngin təbii sərvətləri ilə bir çox dövlətlərin iştahasını artırır. Bir vaxtlar ABŞ-ın dövlət katibi xanım Madlen Olbrayt deyirdi ki, Sibir boyda zəngin bir yerin tək Rusiyanın istifadəsində qalması çox böyük ədalətsizlikdir. Baxın, belə iddianın özü də diletantlıqdır. Görünür, hansısa qüvvələr Sibirin var-dövlətindən istifadə etmək üçün bu cür sərsəm ideyalar ortaya atıblar. Rus xalqı isə bu cür məkrli planlara aldanacaq qədər sadəlövh deyil.

***- Hazırda, deyəsən, kitab yazmaqla məşğulsunuz?***

- Bəli, yeni kitabım üzərində işləyirəm.

***- Sirr deyilsə, mövzu nə ilə bağlıdır?***

- O artıq sirdir...

## Müxalifət üçün prioritet problemi

# Azərbaycana "sağ sektor" təhlükəsi - təhlil

**Kremlin ölkəmizlə bağlı qorxulu planı heç vaxt olmadığı qədər real görünür, "Azərbaycanın əbədi xoşbəxtliyini Rusiyaya bağlayan" "5-ci kolon" yenidən fəallaşıb; demokratik düşərgə isə qəribə bir susqunluq içindədir; suverenlik əldən gedəndən sonra insan haqları və demokratiya uğrunda mübarizəyə dəyəcəkmi?..**



**Yazının sərlövhəsi ilə bağlı yəqin ki, dərhal ölkənin demokratik düşərgəsindən olan dostlardan belə bir məntiqi etiraz gələcək ki: necə yəni, məgər bizim mübarizəmiz həmişə demokratiya, ədalətli seçkilər, söz və toplaşma azadlığı, korrupsiyanın kökünün kəsilməsi, insan haqlarının qorunması, avrointeqrasiya və s. uğrunda deyil?**

Elə olmağına elədir, bununla heç kim mübahisə eləmir. "Milli maraqlar" anlayışı o qədər geniş, dinamik və çoxmənalıdır ki, özündə şəxsiyyətin, cəmiyyətin və dövlətin iqtisadi-siyasi, sosial-mədəni, beynəlxalq, ideoloji, hərbi və s. sferalarda bir-birini qarşılıqlı şəkildə şərtləndirən məqsəd və vəzifələrin bütöv bir topasını birləşdirir. Bir var strateji xarakterli, çox uzun müddətli perspektivə hesablanmış hədəf və vəzifələr *(o sırada demokratiya, hüquqi dövlət və vətəndaş cəmiyyəti uğrunda mübarizə)*, bir də aktuallığı və prioritetliyi bu və ya başqa taleyüklü dönəmlərdə xüsusilə artan məqsəd və vəzifələr ki, onların müdafiəsi dövlətin suverenliyi, bütövlüyü və milli təhlükəsizliyi üçün məhəkdaşı məsələsinə çevrilir.

Bu gün Azərbaycan millətinin, Azərbaycan milli dövlətinin suverenliyimizə, milli maraqlarımıza və ərazi bütövlüyümüzə sağalmaz yaralar vura biləcək təhlükələr qarşısında olduğunu isbatlamağa çətin ki, ehtiyac olsun. Kremlin Ukraynaya qarşı davam edən təcavüzü və dünya birliyi ilə sərt konfrontasiyası əksər Şərqi Avropa və postsovet ölkələrini Putinin ekspansionist planlarına qarşı öz milli təhlükəsizliyin müdafiəsi və potensial təhlükələrin neytrallaşdırılması yönündə önləyici tədbirlər görməyə vadar edir.

Azərbaycan nəinki belə potensial təhlükələrdən kənarda deyil, əksinə, özünün geosiyasi önəmi səbəbindən Kremlin neoimperiya ambisiyalarından ötrü məxsusi maraq kəsb edir. Heç bir şübhə yox ki, Ukraynanın itirilməsi ilə barışa bilməyən və bu ölkəni silkələməkdə davam edən Moskva eyni zamanda Azərbaycanı "Avrasiya tələsi"nə salmaq və tamamilə öz təsiri altına almaq üçün fəal addımlar atacaq. Özü də Bakıya permanent təzyiqlərində Rusiya heç də uzun müddət "imperiya kökələri"ndən istifadə etməyəcək, müəyyən mərhələdə o, öncədən hazırlanmış "imperiya qamçısı"nı da işə sala bilər.

"Şər işlər" həyata keçirməkdə virtual usta olan Kremlə təzədən Qarabağ kartından istifadə eləmək və yeni separatçı ocaqlar alovlandırmaq, o sırada Azərbaycanda situasiyanı arzu elədiyi məcrada gərginləşdirmək böyük çətinlik törətməyəcək. Bu anlamda özünün çoxillik müstəqilliyi dönəmində Azərbaycan ilk dəfə olaraq real müharibə xaosu, neft siyasətinin iflası, inteqrasiya vektorunun məcburən dəyişməsi, ərazilərin, suverenliyin və dövlətçiliyin itirilməsi təhlükəsi vəd edən situasiyaya düşə bilər.

Belə real təhdidlər kontekstində demokratiya və insan haqlarının müdafiəsi haqda söz-söhbətlər bir qədər sxolastik məna alır. Axı, qərbyönlü inkişaf kursunun itirilməsi və Moskvadan müstəmləkə asılılığına qayıdılmaqla və yaxud Ukrayna hadisələrinə bənzər "müharibə xaosu" ssenarisinin gerçəkləşəcəyi halda Azərbaycan demokratiya, insan haqları və vətəndaş cəmiyyəti uğrunda mübarizə iqtidarında olmayacaq. Mümkündür ki, belə mübarizəni aparmaq üçün daha siyasi qüvvələr də mövcud olmasın.

Bu cür real təhdid fonunda Azərbaycan cəmiyyətində hökm sürən biveclik atmosferi heyrət doğurur. Son vaxtlar isə biz ölkədə rusiyayönlü "5-ci kolon"un fəallaşmasında növbəti mərhələni müşahidə eləməkdəyik. Sosial şəbəkələrdə, KİV-lərdə və məişət səviyyəsində bu "kolon"un nümayəndələri psevdobeynəlmiləl və psevdosülhpərvər ritorikası altında gizlənərək ölkəmizin milli maraqlarına və milli-vətənpərvər qüvvələrinə qarşı əsl müharibə aparır, "Azərbaycanın əbədi xoşbəxtliyi Rusiyaya bağlıdır" köhnə imperiya şüarına yeni nəfəs verməyə cəhd edirlər.

Bəs bizim "sağ sektor" hardadır? Nə üçün ölkənin vətənpərvər ictimaiyyəti və demokratik müxalifəti susur və rusiyayönlü "5-ci kolon"a sərt təpki göstərmir? Əgər gündəlik problemlərin yükü altında əzilən və yaxınlaşan xarici təhlükələri bütün ciddiliyi ilə anlamayan sıravi vətəndaşların laqeydliyini hardasa anlamaq və ona haqq qazandırmaq mümkündürsə, ictimai-siyasi qüvvələrə bəraət vermək qeyri-mümkündür axı. Onların belə vəziyyətdə susmaq və hərəkətsiz qalmaq haqqı yoxdur.

Bu yerdə bizim dağınıq durumda olan müxalif qüvvələrin hətta ölkə üçün taleyüklü inkişaf mərhələsində mürgülü vəziyyətdə olmasını təəssüflə vurğulamaq lazım gəlir. Ən yaxşı halda onlar indi "stəkanda tufan" yaratmaqla məşğuldurlar: ya hansısa yeni formatlar kəşf edir, ya da ənənəvi olaraq bir-birinə qarşı intriqa aparırlar.

Misal üçün, bugünlərdə təxminən 15 partiya Müsavatın təşəbbüsü əsasında yığışaraq Azərbaycanda siyasi məhbus və insan haqları problemlərinin həllini hədəf seçən Birləşmiş Hüquq Müdafiə Mərkəzi (BHMM) yaratdı. Mərkəzin yaradıcıları güman edirlər ki, bu format parlament seçkiləri ərəfəsində bütün müxalifətin yenidən birləşdirilməsi prosesinin başlanğıcı ola bilər. Ancaq ardınca dərhal kənarda qalmaq istəməyən Milli Şuranın təşəbbüsü ilə Siyasi Dustaqların Müdafiəsi Komitəsi yaradıldı, hansının işinə ki, qeyri-sağlam rəqabəti aradan qaldırmaq naminə BHMM-dən də bir sıra nümayəndələr qatıldı.

Olsun. Hər iki təşəbbüs lazımlı və tərifəlayiqdir. Bununla belə, müxalif düşərgədə bütün maskalayıcı addımlara rəğmən, siyasi rəqabətlilik və liderlik "yorğanını öz tərəfinə çəkmək" ovqatı yenə də hiss edilir. Üstəlik, siyasi dustaqlar məsələsi bugünkü Azərbaycan üçün nə qədər aktuallıq kəsb eləsə də, yenə müəyyən çaşqınlıq mövcuddur. Sual ortaya çıxır: nədən demokratik düşərgə ölkənin suverenliyinə, milli təhlükəsizliyinə və bütünlüyünə real təhlükələrə qarşı dirəniş göstərmək məsələsində birləşmək və fəallıq üçün eyni canıyananlıq göstərmir? Nədən bu yaxınlarda Qarabağ məsələsinin hərbi yolla həllinin aktuallaşmasına gətirən və bütün cəmiyyəti həyəcanlandıran Azərbaycanla Ermənistan arasında cəbhə xəttindəki son döyüş əməliyyatları müxalifət üçün əsas diqqəti artıq prioritet əhəmiyyət daşıyan ümummilli məsələlərə fokuslamaq üçün impulsa çevrilmədi?

Sözsüz, insan haqlarının müdafiəsi və ya parlament seçkilərinə hazırlıq demokratik qüvvələrin gündəliyindən tamamilə çıxa bilməz. Ancaq söhbət üzücü hərbi və separatçı təxribatlara, ölkədə vəziyyətin qarışmasına və xaosa, ərazimizin bir hissəsinin və ya suveren dövlətçiliyimizin itirilməsinə gətirən təhlükələrdən gedirsə, o zaman vətənpərvər və sağ müxalifətin vəzifəsi sözdə və işdə milli maraqların qorunmasına yardımçı olmaq deyil ki?

Bəzən təəssürat yaranır ki, bizim sağ təmayüllü müxalifətin müəyyən kəsimi Qərbə və demokratiyaya sadiqliyi ölkənin milli maraqlarına sadiqlikdən yuxarıda qoyub, yaxud eyni zamanda demokrat və millətçi-patriot olmağı yersiz ("ayıb") sayır. Halbuki bəsit həqiqətdir ki, ölkənin sabitliyi və strateji kursu qorunmadan, işğal altındakı ərazilər azad olunmadan, milli maraqlarımıza, suverenliyimizə və ərazi bütövlüyümüzə təhlükələr dəf edilmədən ölkənin demokratik inkişafı haqda söhbətlər mənasını itirir.

Bu gün müxalifət də daxil, cəmiyyətin bütün demokratik və vətəndaş səyləri, ictimai-siyasi səyləri ağıllı milli-vətənpərvər mövqe ilə motivlənməlidir. Yeri gəlmişkən, bu ilin yazında aparıcı siyasətçilərin və ictimai xadimlərin bir qrupu tərəfindən beyin "böhran mərkəzi"nin *(Milli Strateji Düşüncə Mərkəzinin)* yaradılması xoş bir istisna oldu. Mərkəz artıq bir sıra seminarlar keçirməyə, Qarabağ münaqişəsinə və Azərbaycanı gözləyən mümkün hədələr kontekstində milli təhlükəsizliyin aktual problemlərinə dair bir neçə analitik material hazırlamağa müvəffəq olub.

Lakin belə "beyin qrupu"na real tələbatın olmasına baxmayaraq, Mərkəzin ciddi perspektivindən danışmaq yəqin ki, hələ tezdir. Ona görə ki, qurumun fəaliyyətində artan xətt üzrə dinamika və sistemlilik hələlik zəifdir. Ancaq bu təşəbbüs ən azı gündəlik problemlərin həllinə yönəlib. Əgər ölkənin bütün ictimai-siyasi çevrələri milli maraqların müdafiəsi və xarici hədələrə qarşı müqavimət üçün həmrəy şəkildə çalışsa, o zaman pozitiv nəticə mütləq gələcək. Və bu nəticə həm də demokratikləşmə məsələlərinə yardımçı olacaq.



**"Bizim dağınıq durumda olan müxalif qüvvələrin hətta ölkə üçün taleyüklü mərhələdə mürgülü vəziyyətdə olması təəssüf doğurur. Ən yaxşı halda onlar indi "stəkanda tufan" yaratmaqla məşğuldurlar: ya hansısa yeni formatlar kəşf edir, ya da ənənəvi olaraq bir-birinə qarşı intriqa aparırlar..."**

❑ **Zəfər QULİYEV, politoloq**

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014

# “Siyasət həyatımın kiçik bir hissəsidir”

## Cəmil Həsənli: “Ziyalının sayının çox olması mühüm deyil, onun sanbalı mühümdür”

**Professor, Milli Şura sədri Cəmil Həsənli ilə müsahibənin növbəti, ikinci hissəsini təqdim edirik.**



(əvvəli ötən sayda)

- Turançılığın və türkçülüyün vətəni Azərbaycandır. Bu ideyaların əsasları, bünövrəsi ölkəmizdə yaranıb. Bunun yaranma səbəbi isə xalqın nicatı üçün ideya axtarışı idi. İdeya axtarışında isə iki yoldan biri olmalı idi. Ya islamçılıq olmalı idi, ya da türkçülük. Məlum oldu ki, islamçılıq millətin xilasını öz üzərinə götürmək, milli yükü çəkmək iqtidarına malik deyil. Ona görə də millətçilik zəminində türkçülük və turançılıq ideyası ortaya çıxdı və bu, Rusiya müsəlmanlarının, dünya türklərinin birliyi baxımından çox mütərəqqi bir ideya idi. Təsəvvür edin ki, Əlimərdan bəy Topçubaşov Krım, Kazan, Hacı Tərxan (Həştərxan) Volqaboyu, Ural, ta Sibirdə Qarğalıya qədər bütün türk ellərini gəzmişdi. Yetirmələri xatırlayır ki, XX əsrin əvvəllərində rus məktəblərində oxuyan müsəlman uşaqlarına din dərsi deyən Axund Yusif Ziya Talibzadə dərsə Quran ayəsinin oxunması ilə başlayıb sonra keçirdi Azərbaycan tarixinə. Çünki Azərbaycan tarixinin keçilməsi həmin vaxt məktəblərdə qadağan edilmişdi. Məhz Axund Yusif Ziya *(O, Abdulla Şaiqin qardaşı idi)* kimi şəxslərin fədakarlığı ilə Azərbaycan tarixi müzakirələrində gənclər millətçilik dərsi keçirdilər. Hacı Tərxanda millətçi dərnəyi əslən Şamaxıdan olan, “Bürhani-Tərəqqi” qəzetinin naşiri Mustafa Lütfi əfəndi İsmayılov *(Məhəmməd Hadinin qohumu)* yaratmışdı. Nijni Novqorodun Makariya ticarət yarmarkasındakı millətçi dərnəyin də əsasını Bakıdan gedən tacirlər qoymuşdular. Şimali Qazaxıstanda bu işləri Çingiz xanın vərəsələrindən olan Əli xan Bukeyxanov görürdü. Kazanda, Krımda, Volqaboyunda təəssübkeş bir dairə formalaşmışdı. Sizin dediyiniz türkçülük və turançılıq 100 il bundan əvvəl daha güclü idi, nəinki bu gün. 1908-ci ilin may ayının 2-də Baxçasarayda “Tərcüman” qəzetinin 25 illiyi qeyd edilərkən Krımdan və digər yerlərdən gələn 1000-dən çox qonağın iştirakı ilə keçirilən mərasimdə Baxçasaray imamı iki nəfərin canına, iki nəfərin də ruhuna dualar oxudu. Bunun 4-ü də Azərbaycandan idi. Mərasimində imam dedi: “Yazıları və xalq işlərində hizmətləri ilə məlum Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağayev əfəndilərin sağlığı və səlamətliyini Xudadan təmənna edirik, yaşasınlar. Amin!” Həsən bəy Zərdabi və onunla eyni ildə dünyasını dəyişmiş şeyxülislam axund Əbdüssəlam Axundzadənin ruhuna da dualar oxundu. Hanı indi belə adamlar. Dediyiniz o türkçülüyü və turançılığı kim inkişaf etdirəcək. Hökumətin qoltuğuna qısılıb böyük ideyalara iddiaçı olmaq mümkünsüz bir işdir. 100 il əvvəl şeyxülislam və nüfuzlu din xadimləri türk müsəlman yurdlarına səfər edəndə İsmayıl Qaspralı kimi adamların məzarını ziyarət edirdi. Şeyximiz isə Şimalı Qafqaza səfərini Əhməd Qədirovun məzarını ziyarətdən başlayır. 1914-cü illə 2014-cü il arasındakı 100 ildə milli düşüncədə eniş, mənəvi bağlarda itirdiklərimiz təxminən bu qədərdir.

**“Azərbaycan tənha müsəlman yurdu idi ki, orda çox nadir bir tarixi proses - ümmətdən millətə keçid prosesi baş verdi. Bu prosesin ideya müəllifi Zərdabi idi. Bunun bəzi konturlarını Mirzə Fətəli vermişdi. Amma ictimai ideyanı və siyasi hədəfləri Zərdabi göstərdi”**

Azərbaycanın o vaxtkı halını göz önünə alıb öndə olan ziyalılar məzhəbçiliyə qarşı türkçülüyü, millətçiliyi qoydular. Azərbaycan tənha müsəlman yurdu idi ki, orda çox nadir bir tarixi proses - ümmətdən millətə keçid prosesi baş verdi. Bu prosesin ideya müəllifi Zərdabi idi. Bunun bəzi konturlarını Mirzə Fətəli vermişdi. Amma ictimai ideyanı və siyasi hədəfləri Zərdabi göstərdi. Həmin ərəfədə islam Çar idarə üsulunun bir həlqəsinə çevrilmişdi. O, xalqdan daha çox hakimiyyətə xidmət etməyə meylli idi. Ona görə də millətləşmə zəruri idi. Satirik şer ustadımız Mirzə Ələkbər Sabirin məzhəbçiliklə bağlı maraqlı bir sözü var. Deyirdi ki:

**“Bizdə hakimiyyətin iştahası o qədər böyükdür ki, müxalifətini də özü müəyyən etmək istəyir”**

***“Daüvvü üxuvvət olur ikən bizə Qur’an,***
***Əmr eylər ikən birliyə peyğəmbəri-zişan,***
***Tapmazsan iki müttəfiqi rəyi müsəlman***
***Qafqazda olan bir neçə milyon arasında!"***

Zərdabinin ardıcılları olan istedadlı və mübariz gənclər Əlimərdan bəy, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Mirzə Cəlil, az sonra Rəsulzadə bu təhlükəni hiss edib çıxış yolunu millətləşmədə görürlər və bu yolu uğurla getdilər. Biz bəzən ziyalı anlayışını dəyərləndirəndə kəmiyyət məsələsinə diqqət yetiririk. Bu, tamamilə yanlış yanaşmadır. Ziyalının sayının çox olması mühüm deyil, onun sanbalı mühümdür.

***- Təəssüf ki, yüzillər hesabına qazanılmış bu dəyər indiki zəmanədə yenidən təhdid altındadır. Yenidən məzhəbçilik, sünni, şiə, vəhhabi, sələfi kimi anlayışlar insanlar arasında aqressiv münasibətlərə, faciələrə yol açır.***

- Bu, əslində nadanlığın ayaq açmasıdır. Milli inkişaf proqramının olmaması ölkəmizi gətirib bu həddə çıxardı. Hakimiyyət üçün, onun korrupsiya şəbəkəsi üçün təhlükə törətməyən bütün dini təmayüllər, qruplar Azərbaycanda yuva qurdu. XX əsrin əvvəllərində vətənpərvər gənclər Osmanlı tərəfində vuruşmaq üçün Balkan müharibələrinə gedirdilər, indi isə ərazisi işğal olunmuş, yurdu yağmalanmış bir ölkənin gəncləri döyüşmək üçün Suriyaya gedirlər. Bu, taleyin acı bir ironiyasıdır, milli düşüncədə yaranmış boşluqların təzahür formasıdır. Birinci Cümhuriyyətin bir yaşı tamam olanda Üzeyir bəy deyirdi ki, bu dövlətin yaranması üçün biz dəryalarca qan vermişik. Çağdaş dünyada biz hakim yox, məhkum millət olmuşuq, bizim dövlətimiz milli ideologiya zəminində vücuda gəlib. Bax bir məqamı misal gətirim. 1988-ci illərdə ay-ulduzlu, üç rəngli bayrağımız meydana gətiriləndə millət heç nə soruşmadan o bayrağın altına toplandı. Baxmayaraq ki, o bayraq 70 il təqib olunaraq, qadağan edilmişdi. Hətta görüntüsünü belə yaddaşlardan silməyə çalışmışdılar. Amma o bayrağın rəngləri genetik yaddaşa hopmuşdu, hilalın qoynuna sığınmış 8 guşəli ulduz üç rəngin qovşağında bərq vuranda millət o bayrağın kölgəsinə toplaşdı. Bir sıra xalqlar həmin illərdə özləri üçün milli atributlar yaratmağa başladılar, biz isə onları hazır formada aldıq.



**“Hökumətin qoltuğuna qısılıb böyük ideyalara iddiaçı olmaq mümkünsüz bir işdir. Əlimərdan bəy türk müsəlman yurdlarına səfər edəndə İsmayıl Qaspralı kimi adamların məzarını ziyarət edirdi. Şeyximiz isə Şimalı Qafqaza səfərini Əhməd Qədirovun məzarını ziyarətdən başlayır”**

***- Cəmil bəy, keçək siyasi fəaliyyətinizə. Rəhbərlik etdiyiniz Milli Şuranın yaxın aylardakı planları nədir?***

- Azərbaycanda planla, proqnozla işləmək bir az çətindir. Çünki stabil proses, rahat, azad mühit yoxdur ki, nəyisə planlayıb ona uyğun işləyəsən. Məsələn, biz nəzərdə tutmamışdıq ki, QHT sektorundan bu qədər adam tutulacaq. İndi sən bunu hansı plana salmalısan? Bilirsiniz, Milli Şura ictimai əsaslarla fəaliyyət göstərən bir təşkilatdır. Bir il ərzində maraqlı yol keçib, yarandığı gündən hökumətin hədəfində olub. Bu gün də onu dağıtmaq üçün bütün vasitələrdən istifadə edirlər. Ayrı-ayrı üzvləri çəkindirməyə çalışırlar, süni həbslər, sifarişli istintaq, ədalətsiz məhkəmə hökmləri Milli Şuranı qarabaqara izləyir. Bax, Milli Şura belə bir ekstremal şəraitdə işləyir.

**“XX əsrin əvvəllərində vətənpərvər gənclər Osmanlı tərəfində vuruşmaq üçün Balkan müharibələrinə gedirdilər, indi isə ərazisi işğal olunmuş, yurdu yağmalanmış bir ölkənin gəncləri döyüşmək üçün Suriyaya gedirlər. Bu, taleyin acı bir ironiyasıdır, milli düşüncədə yaranmış boşluqların təzahür formasıdır”**

Bu gün Azərbaycanda avtoritar bir idarə üsulu var. Hakimiyyət öz tənqidçilərini, ona biət etməyənləri qanunsuz üsullarla sıradan çıxarır, qorxudur, həbsə alır, İlqar Nəsibovun gününə salır. Birbaşa, ünvanla İlham Əliyev rejimini tənqid edən çox az adam qalıb. Kimi onun ətrafını tənqid etməklə özünə bəraət qazandırır, kimisi vicdanının artıq xırıldayan səsini içində boğur, kimisi siyasi məhbus dalğasında müxalifət yapıncısını yenidən çiyninə atmaq istəyir, əvvəlki konstruktivlər uşaq konstruktoru kimi sökülüb abırsız vəziyyətə düşdüyündən, kimisi də onları əvəzləməyin “abırlı” yollarını axtarır. 9 oktyabrda bəlirlənmiş siyasi müstəvinin təftiş edilməsi məhz bu istiqamətdə gedir.

***- O şəxsləri qınayırsınız? (Araya sakitlik düşür və cavab verir...)***

- Yox, mən heç kəsi qınamıram, hər kəs öz taleyini yaşayır. Əslində xalq o qədər həssasdır ki, bütün baş verənləri izahsız da hiss edir. Hakimiyyət iddia edir ki, müxalifət getməlidir, yeni müxalifət yaranmalıdır. Çünki bizdə hakimiyyətin iştahası o qədər böyükdür ki, hakimiyyəti tutmaq bəs etmir, hakimiyyət olub öz müxalifətini də özü müəyyən etmək istəyir. İdarə olunan cəmiyyət yaratmaq iddiasına düşmək məhz bu zərurətdən yaranır. Ancaq hakimiyyətlərin çox imtiyazları olsa da, onların öz müxalifətlərini müəyyən etmək imtiyazı yoxdur. Əl müxalifətinin necə müzir bir vəziyyətə düşdüyünü xalq açıq-aydın gördü və onlar da təğyiri - libas oldular.

***- Hakimiyyət hüquq müdafiəçilərinin bir hissəsini həbs etdi, digərləri də neytrallaşmış vəziyyətdə qalıblar... Ölkədən gizlicə gedənlər də var. Yəni bu önəmli sektor darmadağın edilib. Bu itkinin yerini nə ilə doldurmaq olar?***

- Əslində qeyri-hökumət sektorunun o dairəsi həbs olundu ki, onlar hakimiyyət tərəfindən idarə olunmurdular. İlham Əliyev Strasburqda çıxış edərkən demişdi ki, Azərbaycanda siyasi məhbus yoxdur. Amma birdən elə adamlar meydana çıxdı ki, onlar bir siyahı razılaşdırdılar və məlum oldu ki, həmin siyahıda 97 siyasi məhbus var. Kimdi bu adamlar? Leyla Yunus, Rəsul Cəfərov, İntiqam Əliyev, Emin Hüseynov və həmin siyahıya imza atan başqaları.

Deyirsiniz ki, meydan boş qaldı. Bununla razı deyiləm. Həbs olunan adamlar həbsdə belə, öz təmiz adı və nüfuzları ilə hakimiyyətə qulluq edən QHT nümayəndələrindən daha güclüdürlər. Leyla xanımın həbsdən yazdığı məktubları yəqin ki, oxuyursunuz. Bu xanım öz iradəsi və yetkinlik səviyyəsi, intellektual potensialı, vəziyyəti dəyərləndirmək qabiliyyəti ilə bütün cəmiyyətə nümunə verdi. Bir anlığa fikirləşək: İntiqam Əliyev niyə həbs olundu?

***- Niyə?***

(Davamı sabahkı sayımızda)

❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014



# Qeyri-standart gəlin

Zamin HACI
zaminhaci@gmail.com

**Vasif Talıbov Naxçıvan Standartlaşdırma Komitəsinin sədri Malik müəllimi işdən çıxarıbdır. Bu əhvalatın səbəbləri haqda müxtəlif versiyalar dolaşır. Ancaq ortada bir fakt var ki, neçə ay qabaq Malik müəllimi kabinetində döyübmüşlər, hətta işi polis araşdırırmış.**

Məncə, Vasif müəllimi qəzəbləndirən əsas səbəb budur. Necə ola bilər ki, sən Naxçıvanda o cür dövlət vəzifəsi daşıyasan, ancaq səni kabinetində döysünlər? Ayıbdır! Belə şeylərin üstündə dövlətçilik dağılar. Dövlət adamı özü başqalarını döyməlidir. Xüsusən Naxçıvanda. Hələ siz komitənin adına fikir verdinizmi? Standartlaşdırma! Yəni, Malik müəllim Naxçıvanda dövlət standartlarına cavabdeh insan imiş! Biabırçılıq ta necə olur!? Dövlətin Naxçıvan standartı tələb edir ki, sən camaatı ayaqlayasan, qanına qəltan edəsən, yoxsa camaat gəlsin səni kabinetində döysün...

Standartların pozulması Oğuz rayonu istiqamətində də qeydə alınmışdır. Telekanalizasiyalar son günlərdə çox maraqlı bir fakt yazdılar: sən demə, orda bir kənddə toy olacaqmış, lakin gəlin bəyi sevmədiyi üçün toy günü qaçıb aradan çıxıbdır. Məcbur olublar bəyə qaçan gəlinin bacısını - bəyin mümkün baldızını versinlər. Nəticədə ortaya heç bir narazılıq çıxmamışdır, hamı yeyib-içib-dingildəşib evlərinə dağılışmışdır.

Burada ilk diqqəti çəkən reportajlardakı ictimai qınaq tonu olmuşdur. Uca millətimiz ailə dəyərlərinə, yeznənin bacanağı baltalaması, qayınananın gəlini doğraması, uşaqların bu gərginliyə dözməyib evdən qaçması və ya damdan hoppanması kimi milli adət-ənənələrimizə böyük hörmətlə yanaşır. Odur, iki gün qabaq bulvarda Xalça Muzeyi də dövlət səviyyəsində açıldı. Muzey sevindirici haldır ki, palaz formasındadır. Necə dəyərlər, palaza bürün, elnən sürün. El üçün ağlayan göz kor olar. Dünya beş günlükdür, hər cür dəyyusluq elə. Belə müdrik fikirlərimiz çoxdur. Arzu edərdik forma və məzmunun vəhdəti Urologiya Xəstəxanasının açılışında da nəzərə alınsın! Qoy millətdə ruh yaşasın!

Amma və lakin mövzuya qayıdaq. Yazdığımız kimi, gəlinin toydan qaçması çox mənfi haldır, yeddi qat tuman geyən ağbirçəklərimizə, kabab yeyib qəyirəndə yetmiş ağac uzaqdan nəriltisi duyulan ağsaqqal ərənlərimizə yaraşmaz. Ona görə mövzunu elliklə diqqətdə saxlayırdıq. Ukraynanın Donetsk vilayətində vəziyyət, İŞİD-in hansı jurnalistin başını kəsməsi belə bizim üçün önəmli deyildi. Yeganə diqqətimiz toy günü qaçan gəlin idi.

Axı bu, ilk hal deyildi! Ötən illərdə də belə hadisələr təkrarlanmışdı. Yadımdadır, Ağcabədidə olmuşdu. Demək gəlinlər arasında bir üsyan ruhu dolaşır. Onlar hər vəchlə gərdəyə girmək istəmirlər. Sanki ora polis idarəsidir. Suriya-filandır.

İndi gəlin görək bu vacib ictimai-siyasi, geopolitik-bioloji, psixoloji-iqtisadi olaya hakimiyyətin münasibəti necədir. Təəssüf! Lənət olsun! İstefa! Ya Qarabağ, ya ölüm! Gəlin Oğuz rayon icra hakimiyyətinin açıqlamasını oxuyaq: “Bu hadisənin bizə dəxli yoxdur, hadisə icra hakimiyyətinin səlahiyyətləri çərçivəsində deyil. Bu, ailənin şəxsi işidir”.

Boyunuzu yerə soxum... Necə yəni şəxsi işdir? Bu gün toydan qaçan gəlin, sabah siyasi bəyanat verər, deputat Fərəc Quliyevin İraq türkmənlərinə yardım etmədiyini qınayar. Yaxud gəlinin yerinə baldızı itələyən xalq kim qarantiya verir ki, gələcəkdə seçkiləri də saxtalaşdırmayacaqdır!? Belə xalq hətta Qarabağ probleminin “hurrey” yolu ilə alınmasına qarşı çıxar!

Halbuki, bizdə keçirilən seçkilər demokratiya örnəyidir. Kimi bəzəyib-düzəyib hamama aparırlarsa, axırda kresloya da həmin şəxs oturur.

Oğuz rayon İcra Hakimiyyətindən tələb edirik səhvini aradan qaldırsın, gedib o ailədəki vəziyyətlə maraqlansın. Qaçan gəlini isə fərari, vətən xaini elan edib tutmalıyıq.

Görən hardadır?

# Gürcüstanda saxlanılan narkotiklə bağlı şok yeniliklər

**Astara Gömrük - Keçid Məntəqəsinin qaçaqmalçılıq şöbəsində çalışan 4 məmur işdən çıxarılıb. Gömrükçülər Azərbaycandan keçən və Gürcüstanda tutulan 3 ton heroin əməliyyatına görə vəzifədən kənarlaşdırılıblar. Bu barədə “Yeni Müsavat”a Astaradan məlumat daxil olub.**



# 3 ton qaçaq heroinə görə Azərbaycanda kütləvi cəzalar

## Astara Gömrük-Keçid Məntəqəsinin dörd məmuru işdən çıxarıldı; Qırmızı Körpüdə tutulan 60 kiloqram heroinin də bu məntəqədən keçməsi vəziyyəti daha da gərginləşdirdi, məntəqə rəisindən hesab sorulub

Məlumatda qeyd olunur ki, işdən qovulan gömrükçülərdən biri Astara sakinidir, digərləri isə başqa bölgələrdəndir. Onların adları açıqlanmasa da, mənbənin sözlərinə görə, işdən çıxarılan gömrükçülər məhz Gürcüstanda saxlanılan 3 ton herion, ardınca da Qırmızı Körpü sərhəd-keçid məntəqəsində saxlanılan 60 kiloqram heroin əməliyyatlarının qurbanı olublar.

Qaynağımız iddia edir ki, gömrükçülər məsuliyyətsizlikdə təqsirli bilinərək gömrük sistemindən kənarlaşdırılıblar: “Bu əməliyyatı ört-basdır etmək üçün Astara gömrüyü ”günah keçi"si axtarıb tapıb. Gürcüstanda saxlanılan 3 ton heroinin məhz bu məntəqədən Azərbaycana keçməsi barədə məlumatlar var. Gürcüstandakı əməliyyat ictimailəşəndən sonra Astara gömrüyünə qarşı yuxarı dairələrdən ciddi təzyiq olub, gömrük rəisi Hikmət Məmmədovdan haqq-hesab sorulub, bu işin necə baş verməsinin izahatı tələb edilib.

Gömrük rəisi də təcili Astara gömrüyündə araşdırmalara başlayıb, 3 ton heroinin keçməsində müqəssirlər ortaya çıxarılıb. Nəticədə 4 gömrükçü işindən uzaqlaşdırılıb. Amma bu, elə böyük miqyaslı işdir ki, 4 gömrükçünün səlahiyyətləri çərçivəsinə sığmır. Onları işdən “gözə kül üfürmək” üçün uzaqlaşdırıblar".

Xəbəri dəqiqləşdirmək üçün başqa bir qaynağımızla da əlaqə saxladıq və həmin mənbə də məlumatı təsdiqlədi. Onun sözlərinə görə, Gürcüstandakı şok əməliyyatdan başqa iki həftə öncə Astara gömrüyündən çıxan 60 kq heroin də Qazaxda tutulub. Narkotik maddələr çıxan gün Astara gömrüyünün yük və narkotik şöbələrində növbədə olan 4 məmur işdən azad edilib. Gömrük rəhbərliyi məmurlardan “könüllü” istefa ərizəsi yazmağı tələb edib. Yalnız biri - astaralı məmur buna etiraz etdiyi üçün işdən qovulub. Qalanları isə öz ərizələri ilə işdən çıxıblar.

İddialarla bağlı rəsmi mövqe almaq üçün Dövlət Gömrük Komitəsinin mətbuat xidmətinə zəng etsək də, həmişə olduğu kimi yenə də zəngimizə cavab verilmədi.

Qeyd edək ki, bu il iyulun 12-də Gürcüstan Daxili İşlər Nazirliyi Azərbaycandan keçməklə bu ölkəyə daxil olan əfqan mənşəli, 2 ton 790 kiloqram çəkidə, maye halında olan heroin partiyasını əməliyyat nəticəsində ələ keçirib. Bu, Qafqaz ölkələrində ələ keçən ən iri və fantastik qiymətli narkotik partiyasıdır. Qara bazarda Gürcüstanda tutulan heroinin ümumi dəyəri 250 milyon dollardır.

Gürcüstan DİN-in yaydığı ilkin rəsmi məlumatda işlə bağlı iki Gürcüstan və bir Türkiyə vətəndaşının saxlanıldığı, maye heroinin 93 ədəd 30 litrlik maye çəlləklərdə qablaşdırılaraq daşındığı vurğulanır. Bildirilir ki, böyük heroin partiyası yük maşınında Azərbaycandan keçməklə, Gürcüstana daxil olub.

**Gürcüstan DİN-in səlahiyyətlisi Georgi Saxokia isə “Yeni Müsavat”ın sorğusuna rəsmi cavabında yazıb ki, narkotiklərin qanunsuz daşınması faktı üzrə Gürcüstan Cinayət Məcəlləsinin 262-ci (külli miqdarda narkotiklərin qanunsuz daşınması) maddəsi ilə N 00911071404 nömrəli cinayət işinin istintaqı aparılır:** “12 iyul 2014-cü ildə Batum şəhərində, Senaki-Poti-Sarpi yolunun üzərində yerləşən Sərhəd Departamenti zonasında əməliyyat-axtarış tədbiri həyata keçirilib. Nəticədə 3 nəfərdən ibarət mütəşəkkil dəstə üzvləri yaxalanıb.

Onlardan xüsusilə külli miqdarda narkotik vasitə götürülüb. Tutulanlardan biri Türkiyə, ikisi isə Gürcüstan vətəndaşıdır. Hər üç şəxsə Gürcüstan Cinayət Məcəlləsinin 262-3 “a” 262-4 “a” və “b” , 19 - 262 - 4 “a” və “b” maddələri ilə ittiham elan olunub. Həmin yük Türkiyə, İran və Azərbaycan sərhədlərini keçməklə Gürcüstana daxil olub. Yük maye sabun adı altında daşınıb. Yükün Moldovaya daşınması nəzərdə tutulubmuş".

G.Saxokianın imzaladığı rəsmi cavab müdhiş cinayətin bəzi məqamlarına aydınlıq gətirsə də, bir çox suallar bu gün də qaranlıq qalır. Xüsusilə ölkəmizə bu yükün necə daxil olması, iki sərhədimizi necə aşması aydınlaşdırılmayıb.

**Xatırladaq ki, narkotrafik əsasən bu trayektoriyada hərəkət edir: Əfqanıstan - İran - Azərbaycan - Gürcüstan-Avropa. Əfqanıstan-Orta Asiya - Azərbaycan - Gürcüstan-Avropa. Əfqanıstan - İran - Azərbaycan -Rusiya - Avropa. Əfqanıstan - İran - Dağlıq Qarabağ - Ermənistan.**

Mövzunu diqqətdə saxlayacağıq.

**E.SALAMOĞLU**

**MDB məkanının ən qatı anti-Rusiya siyasətçisi, Ukrayna prezidenti Poroşenkonun rusiyalı həmkarı Putinə nifrət dolu baxışı çökməkdə olan imperiyanı diriltmək istəyən bir simaya münasibətin bariz nümunəsi idi.**

**Xatırladaq ki, avropalı diplomat Ketrin Eştonla səmimi olaraq görüşən Poroşenko Putinin ona yaxınlaşdığını görüncə birdən-birə üzünün ifadəsi dəyişib və Rusiya prezidenti ilə məmnun olmayan bir əl tutuşması kameralara yaxalanıb. Bu videogörüntü sürətlə bütün dünya mediasına yayılmaqdadır və ciddi şəkildə müzakirə edilir.**

Azər RƏŞİDOĞLU



# Poroşenkonun silah kimi baxışları

## Ukrayna prezidenti ilə Xəlil Rza Ulutürkü birləşdirən dəyər...

Əslində Poroşenkonun Putinə ünvanlandığı nifrət dolu baxışlar Rusiyanın müstəmləkəçilik siyasətindən boğaza yığılan və azad olmaq istəyən xalqların Kremlə yerini bildirmək cəhdidir.

Bu da anlaşılandır. Bu gün Rusiya heç bir beynəlxalq qanunlara hörmət qoymadan Ukraynaya tanklar yeridib.

Kreml üçün hüquq və qanun anlayışı yoxdur. Odur ki, əksər müşahidəçilər bu fikirdədirlər ki, bu gün Ukraynada bütün dünyanın taleyi həll edilir. Əgər dünya yalnız silah dilində danışmağı bacaran rusların Ukraynanı işğalına seyrçi qalsa, proseslər daha da gərginləşə bilər.

Kreml heç bir qanuna hörmət etmir. Rusiya öz ordusuna güvənir. Ruslar üçün “güc varsa, ağla ehtiyac yoxdur” deyimi yenə də keçərlidir.

Lakin Moskva unudur ki, SSRİ-nin hər hansı bir formada bərpası ona nəsib ola bilməz. Ən azı ona görə ki, bu dəfə ABŞ, Türkiyə, İran və digər ölkələrin də maraqları nəzərə alınmalıdır. Rusiya isə bunu etmək istəmir və öz vəziyyətini daha da qəlizləşdirir.

Ukraynaya qoşun yeritməklə Moskva bütün dünyaya barmaq silkələmiş oldu. Ehtimal edə bilərik ki, Qərbin də Moskvaya təzyiqi elə də çətin olmayacaq. Söhbət heç də növbəti maliyyə böhranının yaranma ehtimalından və yaxud neftin qiymətinin aşağı salınmasından da getmir. Bu addımlar Moskvanın diz çökməsini sürətləndirə bilərdi. Lakin Birləşmiş Ştatlar başda olmaqla, Qərb ruslara başqa, daha asan təzyiq metodları ilə zərbələr endirməyə hazırlaşırlar.

Putinin sərsəm ideyaları bütün dünyada ruslara qarşı növbəti qəzəb dalğası yaradıb. Hazırda Rusiya bir dövlət olaraq, çox dairələr üçün, o cümlədən dünyanı idarə edən maliyyə mənbələri üçün lazımsız bir ölkə imicini qazanıb.

Maraqlısı odur ki, daha çox katolik və nisbətən protestant Qərb dünyası pravoslav Rusiyanı məhv etmək cəhdləri ilə eyni zamanda əsrlərdən bəri davam edən məzhəb müharibəsinə yeni nəfəs vermək niyyətini güdür.

Artıq ABŞ Rusiya ilə mübarizəsini pərdələmək belə istəmir. ABŞ analitikləri hesab edirlər ki, “soyuq müharibə” illərində ABŞ-a qarşı çıxmaqla SSRİ diz çökdürüldü. Bu dəfə isə Ukrayna və MDB ölkələrini hədələməklə, Rusiya özünü labüd məhvə sürükləyir.

Rusiya şovinist ambisiyalardan əl çəkməyənə qədər bu ölkə özü üçün yeni problemlər yaradacaq. Lakin Qərb strateqləri də əmindirlər ki, Rusiyada demokratik quruluş mövcud ola bilməz.

Rusiyada sərt hakimiyyət fəsadlar törədir. Bu fəsadın acısını isə ruslarla yanaşı bütün dünya dadır. Araşdırmaçılar əmindirlər ki, bu qədər nəhəng əraziyə malik olan, on saat qurşağına yayılan ölkə yalnız bir mərkəzdən idarə edilə bilməz. Bir qrup başıpozuq şovinistin, qaragüruh elitanın idarə etdiyi ölkə hamı üçün təhlükə mənbəyidir.

Putin Poroşenkonun nifrət dolu baxışlarına layiq bir siyasətçidir. Dünyanı vahimə altında saxlamaq istəyən bu çılğın lideri durdurmağın zamanı çoxdan çatıb. Dünya mediasını bəzəyən fotolarda Poroşenkonun demək istədiyi də elə bu idi...

***

Azərbaycanın istiqlal şairi mərhum Xəlil Rza Ulutürk hərəkat dövründə “Silahlan” adlı şeir yazmışdı. Xəlil Rza həmin şeirdə xalqa düşmənə qarşı silahlanmaqla bağlı çağırış edirdi. Şair xalqa xitabən deyirdi ki, əgər silahlanmağa heç nəyin yoxdursa baxışlarınla silahlan, nifrət dolu baxışlarını düşmənə qarşı silah kimi istifadə et. Xəlil Rzanın nə qədər haqlı olduğu onillər sonra bir daha isbatlandı.

Bəzən düşmənə bir baxış, bir tank mərmisindən, bir top gülləsindən, bir raket atəşindən effektli olur...

# Prezident Ərdoğan and içdi

## Türkiyə rəhbərinin inauqurasiyasında gərgin anlar yaşandı



**Türkiyənin 12-ci prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə parlamentində and içərək, öz vəzifəsinin icrasına başlayıb. Türkiyə Böyük Millət Məclisində and içən Ərdoğanın prezidentlik dönəmi dünəndən başlayıb. Daha sonra Türkiyənin İstiqlal Marşı səslənib. Ərdoğan TBMM binasından Mustafa Kamal Atatürkün məzarını ziyarət etməyə yollanıb.**

Andiçmə mərasimində bir çox ölkələrin dövlət və hökumət rəhbərlərinin başçılıq etdikləri nümayəndə heyətləri də iştirak edib. Azərbaycanı mərasimdə baş nazir Artur Rasizadənin başçılıq etdiyi heyət təmsil edib.

Dünən axşam saatlarında prezident R.T.Ərdoğan baş nazirliyə namizəd Əhməd Davudoğlunu Çankaya Köşkündə qəbul edib. Prezident ona 62-ci hökuməti qurmağı tapşırıb.

Andiçmə mərasimində gərgin anlar da yaşanıb. Belə ki, CHP-dən olan millət vəkillərindən biri - Engin Altay prezident R.T.Ərdoğanın and içməsindən öncə ona söz verilməsini tələb edib.

TBMM-nin sədri Cəmil Çiçək bunun mümkün olmadığını bildirib. Buna cavab olaraq, Engin Altay əlindəki Türkiyə Anayasasını spiker Cəmil Çiçəyə doğru atıb.

Nəticədə bəzi AKP-çi və CHP-çi deputatlar arasında başlayan mübahisələrin yumruq davasına çevrilməsinin qarşısını yalnız parlament salonundakı digər millət vəkillərinin müdaxiləsindən sonra almaq mümkün olub.

Bu arada Ərdoğanın sərvəti açıqlanıb.

Türkiyə prezidentinin sərvətinə bunlar daxildir:

**Daşınmaz əmlak: Güney-su-Dumankaya kəndi - 2.000 kvadrat metr torpaq *(dəyəri-təxminən 6 min manat)***

**Minik avtomobili (dəyəri - təxminən 105 min manat)**

**Bank hesablarında nağd pul - *təxminən 200 min dollar.***

Yeni prezidentin sərvəti araşdırılarkən ən diqqət çəkən məqam Ərdoğanın oğlu Əhməd Burakın atasına 250 min manat borcunun olmasıdır.

Türkiyədə hökuməti qurmağa hazırlaşan Əhməd Davudoğlunun isə kabinetdə mühüm dəyişikliklər edəcəyi gözlənilir.

Avropa.info-nun məlumatına görə, bəzi nazirlərin kənarda qalacağı ehtimal edilir.

Davudoğlu vaxt itirmədən yeni kabineti prezidentə təqdim edəcək.

Yeni Nazirlər Kabinetində bəzi şəxslərin kənarda qalacağı, bəzilərinin isə yerinin dəyişdiriləcəyi gözlənilir. Kabinetdən Bülənt Arınç, Beşir Atalay, Tanər Yıldız, Hayati Yazıcı, Faruk Çelik, Mehdi Əkərin kənarlaşdırılacağı gözlənilir.

Bunun əvəzində Yalçın Akdoğan, Numan Kurtulmuş, Mahir Ünal, Nurəddin Canıklının isə kabinetə girəcəyi ehtimal edilir.

# Rusiyanın Ukraynaya hərbi müdaxiləsi fakta çevrildi

## Sürünən işğala görə Qərb Putindən izahat tələb elədi; prezident Poroşenko kritik vəziyyətlə bağlı Türkiyəyə səfərini təxirə saldı; Kiyevdə etirazlar başladı...

**Minskdə üçtərəfli Rusiya-Avropa Birliyi-Ukrayna formatında keçirilən görüş Ukraynanın şərqində situasiyanın yumşalmasına təkan verməyib. Əksinə, Rusiya tərəfi suveren ölkənin parçalamaq yönündə səylərini bir az da artırıb. Bunu separatçı qüvvələrə sərhədin o tayından canlı qüvvə və hərbi texnika ilə edilən köməyin həcminin kəskin artması bir daha sübut edir.**



Rəsmi Moskva faktı israrla dansa da, müşahidələr əlbəttə ki, əksini deyir. Yəni əminliklə söyləmək olar ki, Rusiya hərbi mövcudluq etibarilə artıq Ukraynandır. Ölkənin daxili işlər nazirinin müşaviri Zoryan Şikirkann da təsdiqlədiyi kimi, hərbi müdaxilə özü də bir neçə istiqamətdə gedir (AzadlıqRadiosu).

Artıq separatçılar Novoazovsk limanını nəzarətə götürüb Mariupol tərəfə gedirlər. “New York Times” qəzetinin əməkdaşı Andrey Kramer isə xəbər verir ki, Rusiya tərəfdən Ukraynaya tanklar, artilleriya və xeyli piyada keçib. Novoazovsk rus hərbçiləri tərəfindən tutulub, tanklarla mühasirəyə alınıb. Sakinlərin şəhərdən çıxması yasaqlanıb. “Kommersant” qəzetinin yazdığına görə, Ukrayna ordusu şəhəri hələ avqustun 26-da tərk etməyə başlayıb. Ukrayna qüvvələri Mariupol tərəfə keçiblər.

“Frans Press” də ordunun geri çəkilməsindən yazır. Ordu təmsilçiləri isə bildirirlər ki, şəhər əvvəlki tək onların nəzarətindədir. Ukrayna ordusu iyunda Mariupolu nəzarətə götürüb. Hazırda Donetsk vilayətinin İlovaysk şəhəri yaxınlığında və Luqanskda ağır döyüşlər gedir. Ordu eyni zamanda separatçıların mərkəzinə çevrilmiş Donetski mühasirəyə almağa çalışır.

Yaranmış vəziyyətdən təbii ki, Qərb də ciddi narahatdır. Məsələn, Almaniya kansleri Angela Merkel son olaylarla bağlı Putindən izahat tələb edib. Təbii ki, qanedici izahat alınmayıb. Avqustun 28-də yazdığı tvitdə isə ABŞ-ın Ukraynadakı səfiri Cefri Pyatt deyib ki, “getdikcə daha çox rus əsgəri birbaşa Ukrayna ərazisinə döyüşməyə gəlir”. Onun sözlərinə görə, Rusiyanın təchiz etdiyi tanklar, zirehli texnika, artilleriya “Ukrayna silahlı qüvvələrini məğlub etməyə yetməyib”. ABŞ Dövlət Departamentindən isə bildirilib ki, Donetsk və Luqansk regionlarında Ukraynanın hökumət qüvvələrinə qarşı “Rusiyanın rəhbərliyi ilə əks-əməliyyatın” başlamasından şübhələnir.

Bu arada prezidenti Pyotr Poroşenko qəfil qərar qəbul edərək, Türkiyə səfərini təxirə salıb. Musavat.com-un xarici KİV-lərə istinadən verdiyi xəbərə görə, Ukrayna prezidenti Türkiyə səfərini təxirə salması Donbasdakı münaqişə bölgəsində vəziyyətin böhranlı həddə qədər gərginləşməsi ilə izah edib. Təcili olaraq Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının iclasını çağıran prezident P.Poroşenko vurğulayıb ki, Rusiya qoşunları artıq ölkə ərazisinə daxil olub: **“Vəziyyət kəskin şəkildə gərginləşib. Rusiya qoşunlarının Ukraynaya daxil olması artıq baş verib. Belə vəziyyətdə Ukrayna prezidenti yalnız Kiyevdə olmalıdır”.**

Ölkədə ilk dəfə Poroşenkonun istefası tələbləri də səslənib. Virtualaz.org UNİAN agentliyinə istinadən xəbər verir ki, aksiya iştirakçıları Nazirlər Kabinetinə ölkədəki iqtisadi vəziyyəti düzəltmək üçün bir həftə vaxt vermək təklifini irəli sürüblər. Əks halda, hökuməti də istefa verməyə çağırıblar. Onlar habelə Donbasda həyata keçirilən antiterror əməliyyatının bütün rəhbərlərinin dəyişdirilməsini, müdafiə naziri Valeri Geleteyin istefasını tələb edirlər.

❑ **Siyasət şöbəsi**

# Bir siyasətçinin triumfu...



Hüseynbala SƏLİMOV

**Hər şey sadədir. Bu gün Türkiyədə bir qalib var. O da Rəcəp Tayyib Ərdoğandır. Türkiyənin sayca 12-ci prezidenti bunu nəinki gizlətməyə çalışmır, əksinə, böyük zallarda böyük çıxışlar edir, onu dinləyənlərə də qələbə impulsunu aşılamağa cəhd edir.**

Amma insanlar bu impulsu qəbul etməyə hazırdırlarmı? Onlar özlərini qalib hesab edirmi? Bax, bu suallara cavab vermək hələ tezdir. Bir az gözləmək və yeni prezidentin planlarından agah olmaq üçün vaxt ayırmaq lazım gələcək.

Elə Rəcəp Tayyib Ərdoğannın özü üçün də sınaq dövrü başlayır. O, nə edəcək? Türkiyənin 12-ci prezidenti olmaqla kifayətlənəcək, yoxsa bu adamın hələ başqa planları da var?

İndi hamı üçün də olmasa, siyasi təhlilçilər üçün aydındır ki, prezidentin planları əhəmiyyətli dərəcədə növbəti parlament seçkisinin nəticələrindən asılı olacaq. Ona isə çox qalmayıb.

Ona görə də düşünürük ki, prezidentə qalib deməklə elə biz də bir az tələsmişik. O səbəbdən ki, ölkədə ən yüksək vəzifəyə də yetişmək güman ki, prezident üçün hələ tam qələbə demək deyil. Baxmayaraq ki, baş nazir kimi onun yardımçısı artıq sınanmış silahdaşı - Əhməd Davudoğlu olacaq...

Bununla Əhməd Davudoğlunu heç də aciz siyasətçi qismində təqdim etmək və bu adamın yeni prezidentin fonunda sezilməz olacağını iddia etmək fikrimiz yoxdur. Yadımıza gəlir ki, məşhur Wikiealks açıqlamalarında amerikalı həmkarları onu olduqca ağıllı və hətta bir az da təhlükəli adam kimi xarakterizə etmişdilər.

Amma Türkiyənin ali qanunu hələ dəyişməyib. Prezidentin bir o qədər də böyük səlahiyyətləri yoxdur. Belə bir vəziyyətdə Rəcəp Tayyib Ərdoğan kimi enerjili adam çox davam gətirə bilməz, o, mütləq səlahiyyətlərini artırmağa cəhd edəcək.

Amma böyük səlahiyyətlərə yol böyük də konstitusiya islahatlarından keçir...

Bu vaxta qədər Türkiyədə parlament üsul-idarəsi mövcud idi. Yeni prezidenti bu vəziyyət bir o qədər xoşlandırmır və o, bunu gizlətmir də.

Nə demək olar? Parlament və ya prezident üsul-idarəsi haqqında çox yazılıb, çox deyilib. Hər iksinin tərəfdarları da var, əleyhdarları da. Amma burada kiçik bir nüans var.

Dünyada prezident respublikası adlanan, amma çox avtoritar idarəçiliyə malik olan xeyli dövlət olub və indi də var. Yada salaq ki, Səddam Hüseyn, Hüsni Mübarək və onlarla bu adamlara bənzər başqa siyasi liderlər prezident adlanır. Amma parlament idarəçiliyinə malik olan və eyni zamanda da avtoritar siyasi sistemi olan ölkə demək olar ki, tapmaq mümkün deyil...

Hətta dünyada bir neçə konstitusiyalı monarxiya var ki, onlar da parlament respublikasıdır. Bu ölkələr monarxiyanın olmasına rəğmən istənilən demokratik dövlətə örnək ola bilər. Amma prezident respublikaları haqqında bunu demək olmur. Səbəbini də bir az əvvəldə dedik...

Ən əsası odur ki, Ərdoğan təbiətən də avtoritar adamdır. Bunu sübut etmək, bu fikri dəlillərlə təsdiq etməyə çalışmağa elə bir ehtiyac yoxdur. Siyasətdə Ərdoğan dövrü həm də böyük qalmaqallarla, böyük məhkəmə prosesləri ilə, həm də böyük, gurultulu həbslərlə yadda qaldı.

Bunlar bir tərəfə, məsələ tamamilə Ərdoğandan asılı olsaydı indi Türkiyə ictimaiyyəti sosial şəbəkələrə girişdən məhrum olacaqdı. O vaxt Ali Məhkəmə Türkiyədə müstəqil məhkəmənin olduğunu sübut edə bildi.

Elə indiki andiçmə mərasimi də az şey demir. Mərasimdə iki dövlət - Misir və İsrail təmsil olunmayacaq.

Tutaq ki, Misiri başa düşmək mümkündür. Bəli, bu ölkədə faktiki olaraq hərbi çevriliş oldu. Amma İsrail məsələsi mübahisəli olaraq qalır. Rəcəp Tayyib Ərdoğanın xarici siyasət doktrinasının əsas prinsipi “qonşularla sıfır problem” idi. Amma sıfır problem alınmadı.

Bu gün Türkiyənin İsraillə münasibətləri olduqca gərgindir. Əslində bu gərginlikdən baş açmaq da elə də asan deyil. Türkiyədə başa düşə bilmirlər ki, İsrail kimi kiçik dövləti özünün probleminə çevirmək, konkret olaraq heç nə edə bilməmək və yaddaşlarda “one minute” diplomatiyası ilə qalmaq regional güc mərkəzi iddiasında olan Türkiyəyə o qədər də yüksəklik gətirmir...

Amma nə etmək olar? Bu gün Ərdoğan özü üçün xəyali bir siyasi areal cızıb. O, bu arealda lider olmaq istəyir. Amma gəl, bir detalı unudur: onun da iddiaları elə Əbubəkr əl-Bağdadinin xəlifəlik iddiaları kimi, yumşaq şəkildə desək, bir o qədər də ciddi təəssürat oyatmır...

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014

# "İŞİD İsrailin təhlükəsizliyini qorumaq məqsədilə yaradılıb" - İran səfiri

## Səfir Möhsün Pakayin: "İran-Azərbaycan münasibətlərində hər hansı problem yoxdur"

**Son günlər İran ətrafında, eləcə də Yaxın Şərqdə baş verən proseslərdə Azərbaycana qonşu olan İranın rolu daha qabarıq şəkildə görünür. Eyni zamanda iki ölkə münasibətlərində son zamanlar müşahidə olunan irəliləyişlər diqqət çəkməkdədir.**

*Belə ki, bu ayın əvvəlində İranın rabitə və informasiya texnologiyaları naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezinin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda olub, ardınca İran sərhəd qoşunlarının komandanı paytaxtımıza təşrif buyurub. Səfərlər zamanı iqtisadi sahədə hökumətlər arasında bir sıra razılaşmalar əldə edilib. İran ətrafında aktual olan bu və digər sualları Azərbaycandakı səfir Möhsün Pakayinə ünvanladıq.*

***- Cənab səfir, Bakıda səfərdə olan İran İqtisadiyyat Nazirliyinin nümayəndəsi Sadiq Əkbəri bildirdi ki, Azərbaycan iş adamları İrana yatırım qoyur. Bu yatırımlar hansı sahələri əhatə edir?***

- İki ölkə arasında iqtisadi münasibətlərin asanlaşdırılması və genişləndirilməsi üçün hər iki ölkənin məsul şəxsləri ortaq mövqeyə gəliblər. Qərara alınıb ki, ticarətçilər, sənaye sahəsindəki iş adamları, sərmayəçilər üçün müəyyən güzəştlər və sadələşdirilmiş qanunlar qəbul edilsinlər. Bu barədə iki ölkənin müvafiq qurumları arasında, yəni Azərbaycan tərəfindən "Azpromo" deyilən, Sahibkarlığa Dövlət Dəstəyi Fondu ilə İranın İqtisadi və Sənaye İnkişaf Fondu arasında anlaşma memorandumu imzalandı.

İnvestisiya sahələrinin məhdudiyyəti yoxdur. Bu, çoxşaxəli fəaliyyətdir. Və daha çox sərmayə yatırmaq istəyənlərin imkanlarına baxır. Müxtəlif sahələrdə investisiya yatırımları ola bilər, o cümlədən yol, hotel inşaatı, yaşayış binalarının tikintisi və sair. Xüsusən də Azərbaycan investorları İranın Azərbaycanla sərhəddə yerləşən azad ticarət zonalarında Araz, Maku, Ənzəli ticarət zonalarına üstünlük verirlər. Bu qeyd olunan sahələrə investisiya yatırımları edə bilirlər. Sadaladığım azad ticarət zonalarında iş adamları üçün yaradılmış imkanlar, sadələşdirilmiş qanunvericilik və güzəştlər onların orda iş qurması və fəaliyyətləri üçün yaxşı zəmin yaradır.

***- Hazırda hansısa Azərbaycan şirkətləri İrana yatırım ediblərmi və hansı sahələrdə?***

- Bir neçə şirkət var ki, "Araz" Azad Ticarət Zonasında işə başlayıblar. Bəzi başqa şirkətlər isə Tehran və Məşhəd şəhərlərində hotel tikintisi biznesi ilə maraqlanıblar. Eyni zamanda İranın Azərbaycan dilli vilayətlərində iş imkanlarını araşdırıblar.

***- İran nümayəndə heyətinin səfəri zamanı elan olundu ki, sərhəd-keçid məntəqələri sutkalıq iş rejiminə keçəcək. Bu məsələ ilə bağlı irəliləyiş oldumu? Belə bir rejimə nə zamandan keçiləcək?***

- İki ölkə arasında bu haqda razılıq əldə olunub. 24 saatlıq iş rejiminə keçmək üçün bəzi işlər görülməlidir. O cümlədən gömrük-keçid məntəqələrində işləyənlərin sayı artırılmalı, başqa texniki işlər həyata keçirilməlidir. Bu yöndə artıq işlər başlanılıb. Hazırda Culfa gömrük-keçid məntəqəsi 24 saatlıq iş rejimində çalışır, yaxın zamanlarda Biləsuvar gömrük-keçid məntəqəsinin də eyni rejimə keçməsi planlaşdırılır.

- Belə demək olar ki, iki ölkə arasında münasibətlərdəki soyuqluq olan dövrlər arxada qalıb və münasibətlər yüksək səviyyədədir...

- Azərbaycan və İran dost-qardaş ölkədir. Ancaq müəyyən səbəblərdən iki ölkə münasibətlərində soyuqluqlar yaranırdı. Lakin iki ölkənin siyasi rəhbərliyi əlaqələrin inkişafına mane olan 3-cü qüvvələri tanıdılar və onları yollarının üstündən qaldırdılar. Bu yöndə ciddi qərarlar qəbul olundu və düşünürəm ki, artıq münasibətlərdə hər hansı problem yoxdur.

***- Urmiya gölü ilə bağlı vəziyyət necədir? Azərbaycan mediasında Urmiya gölünün quruma təhlükəsi olduğu haqda məlumatlar yayılır. İran hökumətinin bu gölün qurumasının qarşısını almaq üçün hansısa planı varmı?***

- İran, ümumiyyətlə, quraq ölkədir. Artıq neçə ildir baş verən quraqlıq səbəbindən İranda daxili şirin su hövzələri quruyur. Urmiya gölü, eləcə də Zayenderud kimi su hövzələrinin qurumasına səbəb İranda iqlimin quru keçməsi, yağıntıların az olması ilə əlaqədardı. Bildiyiniz kimi, cənab Ruhani də prezident seçilərkən bəyan etdi ki, dövlətin prioritet vəzifələrindən biri Urmiya gölünün qurumasının qarşısını almaq və onu yenidən diriltməkdir. Mən özüm də son günlərdə ora səfər etmişəm, mənə məlumat verilib ki, göldə vəziyyət müsbətə doğru dəyişir və gölün durumu 15 faiz həcmində qaydaya düşüb. Bizim dövlətimiz vəziyyətin düzəlməsi üçün səylərini artırır və bu, onun iradəsidir.

***- Bu ayın əvvəlində Azərbaycan-Ermənistan cəbhə xəttində atəşkəsin yenidən pozulması və erməni təxribatı nəticəsində Azərbaycan hərbçiləri şəhid oldu. Hətta ehtimal olunurdu ki, savaş yenidən başlayır. İran tərəfinin bu məsələyə münasibəti necədir? Azərbaycan öz torpaqlarını azad etmək üçün hərbi əməliyyatları başlatsa, Tehranın mövqeyi necə olacaq?***

- Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı ümumi mövqeyimiz belədir ki, istər Qarabağ, istərsə də regionda digər münaqişələr sülh yolu ilə həll olunmalıdır. Biz müharibənin region ölkələri üçün faydalı olacağını güman eləmirik. Regionda müharibə gedən ölkələrdə hazırda qeyri-sabitlik hökm sürür. Bu səbəbdən də biz, ümumiyyətlə, müharibə haqda fikirləşmirik. Eyni zamanda Ermənistanla Azərbaycan arasında müharibə baş verəcəyini düşünmürük. Çünki hər iki ölkənin rəhbərliyi də münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduqlarını bəyan edib. Həmçinin region dövləti olan Rusiya da müharibənin başlamasını istəmir və lazımi vaxtlarda savaşın başlamasının qarşısını alır. Necə ki, son dövrdə cənab Putinin vasitəçiliyi ilə iki ölkə rəhbərlərinin Soçidə görüşü təşkil olundu. Biz ümid edirik ki, Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə, ədalətli şəkildə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması çərçivəsində həllini tapacaq.

***- Bir neçə gün əvvəl İran ordusunun İraq ərazisinə göndərilməsi xəbərləri yayıldı. Bu xəbərlər doğrudurmu, ümumiyyətlə, İran İraqa qoşun yeridə bilərmi hansısa durumda?***

- İraqın qüdrətli ordusu var. Eyni zamanda İŞİD-in məlum fitnəsindən sonra mərcəyi-təqlidlərin, İslam alimlərinin fətvası ilə İraq xalqı da silaha sarılaraq İŞİD-ə qarşı mübarizəyə qalxdı. İraq əhalisi - istər sünnilər olsun, istərsə də şiələr - bilirlər ki, İŞİD məsələsi İsrailin təhlükəsizliyini qorumaq məqsədilə yaradılaraq ortaya atılıb. Suriyada və İraqda baş verənlər, qarşıdurmaların yayılması və bəzi dövlətlərin bunu müdafiə etməsi onu göstərir ki, bütün bunlar İsrailin təhlükəsizliyini təmin etmək üçündür. Son dövrlərdə ABŞ-ın keçmiş dövlət katibi xanım Hillari Klinton öz xatirələr kitabında bəzi etiraflar edir.



**"Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır"**

O, kitabında bildirir ki, İŞİD-i İraq və Suriyanı zəiflətmək üçün biz yaratmışıq. Bütün bunları nəzərə alaraq, eyni zamanda İraq dövlətinin müdafiə qüdrətini nəzərə alaraq bu ölkəyə ordu göndərməyə ehtiyac görmürük. Eyni zamanda biz İran hökuməti olaraq İraqa qoşun göndərilməsini təkzib edirik.

Əlbəttə, bir məqam da unudulmamalıdır ki, İraqda baş verənlər sünni-şiə qarşıdurması deyil. Bu gün dünyada və bizim regionda bütün müsəlmanlar terrorizmin əleyhinədirlər. Bütün müsəlman ölkələri birləşməli, Qərbə neft satışını dayandırmalıdırlar. Tələb etməlidirlər ki, İŞİD və buna oxşar fitnələri İslam ölkələri arasında yaymasınlar. Müsəlman ölkələri İsraillə olan əlaqələrini kəsməlidirlər. İslam dünyasının problemlərini həll etmək üçün birləşməlidirlər. Eyni zamanda müsəlman ölkələri Qəzzanın məzlum və müdafiəsiz xalqına yardım etməlidir. İsrail bu gün özünün ən zəif dövrünü yaşayır və addım-addım yox olmağa doğru gedir.

Cənubi Afrika Respublikasında aparteid rejimi mövcud olan zaman mən Zambiyada səfir işləyirdim. CAR-da aparteid rejiminin necə addım-addım məhvə doğru getdiyinin şahidi olmuşam. O rejimi də bütün Qərb ölkələri dəstəkləyirdi. Nelson Mandela Qərb ölkələrinin istəyi ilə həbsxanaya salındı. Lakin xalqın dəstəyi və müqaviməti, eləcə də İran kimi sülhsevər ölkələrin yardımı ilə aparteid rejimi devrildi. Məhz İranın CAR-a neft satışını dayandırmasından sonra bu rejim zəifləməyə başladı və məhvə yaxınlaşdı. Sionizmi də bu tale gözləyir. Aparteid və sionizm irqçiliyə dayanan iki ayrı proqramdır. İnanıram ki, mən Bakıda olduğum müddətdə sionizm rejiminin məhv olduğunun şahidi olacağam, necə ki Zambiyada aparteid rejiminin məhvinin şahidi oldum. Doğrudur, hazırda Qəzza xalqı müdafiəsizdir və 12 min nəfərdən çox şəhid verib - uşaqdan tutmuş böyüyə qədər. İsrail özü də Qəzzaya hücuma görə ciddi təzyiq altındadır. Mənim bildiyimə görə, təkcə son həftələrdə Qəzzaya hücum zamanı İsrail rejimi müharibədə 497 hərbçisini itirib. Bunlardan 113 nəfəri zabitdir. 10 mindən çox insan yaralanıb. Bir çox insanlar bu müharibəyə qatılmamaq üçün intihar ediblər. Hətta Ben Qurion Hava Limanı işini dayandırdı. Bu, yalnız Qəzzadakı müqavimət sayəsində belə olub. Əgər İordan çayının qərb sahilindəki Fələstin administrasiyası İsrailə qarşı savaşa qoşulsaydı, daha fərqli nəticə ola bilərdi. Ümumiyyətlə, qonşu, regionun ərəb ölkələri də Qəzzaya dəstək verib İsrailə qarşı savaşsa, nəticədə İsrailin məhvi asan olacaq. Qərb ölkələri də İsrailin məğlubiyyətini gördükdən sonra onu əvvəlki kimi dəstəkləməyəcəklər. Biz CAR-dakı aparteid rejimi zamanı bunun şahidi olduq. Qərblilər gördə ki, bu rejim süquta uğrayır, onun sonu çatır, o zaman özlərini antiaparteid kimi göstərməyə başladılar. Hətta indinin özündə Qərb ölkələri arasında İsraili dəstəkləməklə bağlı əvvəlki birlik yoxdur.

***- İran və Qərb arasında nüvə danışıqlarında durum necədir? Tam şəkildə anlaşma əldə olunması realdırmı?***

- Danışıqların müqəddimə mərhələsi daha asan keçdi. Ancaq yekun mərhələ, yəni sanksiyaların aradan qaldırılması və yekin razılığın əldə olunması mürəkkəb mərhələdir və müəyyən zaman tələb edir. Ötən həftə Beynəlxalq Atom Enerjisi Agentliyinin rəhbəri də İrana səfər edib, işlərin gedişindən razı olduğunu bəyan etdi. Biz İran tərəfi olaraq verdiyimiz sözə, qəbul etdiyimiz öhdəliklərə sadiqik. Əgər Qərb də bu məsələyə müdrik yanaşsa, problem aradan qalxacaq. Biz hər iki tərəfi təmin edən razılaşmanın əldə olunmasının tərəfdarıyıq. İran hökuməti nüvə silahı əldə etməməklə bağlı öhdəlik götürüb və bu qərara sadiqliyini təsdiqləyib. Qərb də İranın nüvə silahı əldə etmədiyi, yalnız sülh məqsədli nüvə enerjisindən istifadə etmək hüququndan istifadə etdiyini qəbul edir. Biz isə İrana qarşı tətbiq olunan sanksiyalara qarşıyıq, bunların aradan qaldırılmasını tələb edirik. Biz istəyirik ki, hər iki tərəf bu danışıqlardan uduşla çıxsın.

❑ **Kənan RÖVŞƏNOĞLU**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014

# XİN Kaliforniya ştatının Qarabağla bağlı qərarına reaksiya verdi

**Elman Abdullayev:** "Ştatın sənədi kağız parçasından başqa bir çey deyil"



Elman Abdullayev

**"ABŞ-ın Kaliforniya Ştatında qəbul olunmuş sənədin heç bir hüquqi mahiyyəti yoxdur, o, kağız parçasından başqa bir şey deyil. Bu sənəddə Dağlıq Qarabağ respublika kimi tanınmır, ştatın belə bir qərar qəbul etmək hüququ yoxdur".**

APA-nın xəbərinə görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Elman Abdullayev dünən keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, Kaliforniyadakı senatorlar erməni təbliğatının qurbanıdır: "Onlar erməni icmasının maliyyə təsiri altındadırlar. Qəbul olunmuş sənədə 40 senatordan 17-si, o cümlədən Senat prezidenti də səs vermədən imtina edib. Sənəd deklorativ xarakter daşıyır və heç bir təsiri yoxdur. Ancaq erməni tərəfi bunun üzərində yalançı təbliğat qurmağa, başda radikal erməni lobbisi olmaqla sadə erməniləri hər zamankı kimi aldatmağa çalışırlar. Bu yalanları biz - Azərbaycan tərəfi ifşa edəcəyik".

Qeyd edək ki, dünən ABŞ-ın Kaliforniya ştatının senatı qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınması üçün ABŞ Konqresinə və prezidentinə müraciət ünvanlayıb. Erməni KİV-ləri isə bunu Kaliforniya ştatının "Dağlıq Qarabağ Respublikası"nın "müstəqilliyini" "tanıması" kimi qələmə veriblər.

**Bununla bağlı Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğu da bəyanatla çıxış edib. Bəyanatda qeyd olunub ki, qətnamə layihəsi bir müddət öncə Kaliforniya Senatının gündəliyinə daxil edilib:** "Qətnamə gündəliyə gətirilən andan Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğu tərəfindən bütün senatorlara dəfələrlə məktub göndərilib, onlarla çoxsaylı görüşlər keçirilib, qətnamənin tam qərəzli, ABŞ xarici siyasətinə zidd olduğu, o cümlədən etnik təmizləməyə, qanunsuz işğala haqq qazandırdığı diqqətə çatdırılıb. Bundan başqa, Kaliforniyadakı Azərbaycan icması səfərbər olunub, Senata müxtəlif vasitələrlə öz etirazlarını çatdırıb".

**Bəyanda göstərilib ki, ştatın Senatındakı 40 senatordan 17-si qətnamənin lehinə səs verməkdən imtina edib:** "Erməni lobbisindən seçki kampaniyaları üçün daim külli miqdarda maliyyə dəstəyi alan, beləliklə, onlardan tam asılı vəziyyətdə olan senatorlar isə lobbini razı salmaq üçün bu qətnaməyə səs veriblər. Bu isə əsl siyasi korrupsiyadır. Buna başqa ad vermək mümkün deyil. Bu, həmçinin ABŞ demokratiyasının və siyasi sisteminin qüsurlu olmasının bariz göstəricisidir. Hansısa etnik lobbi razı qalsın deyə, ABŞ-ın rəsmi mövqeyinə və milli maraqlarına zidd olan belə qətnamənin qəbulunun mümkün olması göstərir ki, Amerika siyasi sisteminin ciddi islahatlara ehtiyacı var".

**Bəyanatda bu qətnamənin hüquqi-siyasi önəmi olmadığı xatırladılıb və "deklarativ xarakterli kağız parçası" adlandırılıb:** "Bütün dünya, eləcə də ABŞ Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. Və belə kağız parçaları bu mövqeyi dəyişmək iqtidarında deyil".

**E.Abdullayevin digər bəyanatı isə İraqda yaşayan yezidi kürdlərinin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsi IV Cenevrə Konvensiyasının 49-cu bəndinin pozulması ilə bağlı olub.**

**Diplomat qeyd edib ki, ermənilərin bu addımı beynəlxalq hüquqa ziddir:** "Erməni tərəfi istənilən durumda münaqişənin həlli prosesinə xələl gətirməyə cəhd edir. Ermənilərin bu qanunsuz əməlləri dəfələrlə ATƏT-in Minsk Qrupunun hesabatlarında da öz əksini tapıb".

**"Müharibə dayanmayıb, davam edir. Atəşkəs pozulur, dinc insanlar qətlə yetirilir. Əsrin əvvəlində olduğu kimi bu gün də Ermənistanın arxasında duran dövlətlər məkrli siyasətlərindən əl çəkmir, Ermənistan BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsini yerinə yetirmir".**

# Azərbaycan Ermənistandan 350 milyard təzminat istəyə bilər

## Erməni təcavüzü nəticəsində məruz qaldığımız itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu fəaliyyətə başlayır; ekspertlər dəyən maddi-mənəvi ziyana görə Avropa Məhkəməsinə üz tutmağı məsləhət görür



Qabil Hüseynli



Üzeyir Cəfərov

APA-nın məlumatına görə, bunu "Təqsirkarlardan təzminatların tələb edilməsi özü də bir iqtisadi sanksiyadır" mövzusunda dəyirmi masada Nazirlər Kabinetinin Qaçqın və Məcburi Köçkünlərin İşləri, Miqrasiya problemləri şöbəsinin müdiri **Qurban Sadıqov** bildirib.

Q.Sadıqov deyib ki, Ermənistanın Silahlı Təcavüzü Nəticəsində Azərbaycan Respublikasının Məruz Qaldığı İtki və Tələfatların Qiymətləndirilməsi üzrə İşçi Qrupunun fəaliyyətinin təmin edilməsi üçün 50 min manat ayrılıb.

**Hazırda Ədliyyə və Maliyyə nazirlikləri ilə birlikdə İşçi Qrupunun Nizamnaməsi üzərində iş aparılır, gələn həftə Nazirlər Kabineti tərəfindən təsdiq olunacaq. Onun sözlərinə görə, İşçi Qrupu 2 il müddətində yaradılıb:**

"İşçi Qrupu 2 il müddətində tapşırılan işi yerinə yetirməli, hesabatı Nazirlər Kabinetinə təqdim etməlidir. Daha sonra bu hesabat beynəlxalq təşkilatlara təqdim ediləcək, dünya ictimaiyyətinə çatdırılacaq. Bundan sonra isə Ermənistan dövlətindən təzminat tələb olunacaq, bu istiqamətində iş aparılacaq".

***

Azərbaycan hökuməti tərəfindən irəli sürülən bu təşəbbüs əslində ciddi fəaliyyətə söykənsə, böyük nəticələr verə bilər. O halda bu, həm ermənilər tərəfindən Dağlıq Qarabağın işğal olunmuş ərazi olduğuna növbəti təsdiqləyici sübut, həm də ölkəmiz üçün beynəlxalq miqyasda siyasi divident ola bilər. Çünki illərdir Azərbaycanın işğal olunmuş torpaqlarına görə əhaliyə və dövlətə dəymiş ziyanın hesablanması məsələsində bir fəaliyyətsizlik müşahidə olunur.

**Politoloq Qabil Hüseynli** də düşünür ki, çox yaxşı təşəbbüs irəli sürülüb. Onun sözlərinə görə, İşçi Qrupunun fəaliyyəti məsələsi iki ildir dövriyyədədir. Siyasi ekspert "Yeni Müsavat"a şərhində bu təşəbbüsün reallaşmasını mümkün saydığını vurğuladı.

**Q.Hüseynli qeyd etdi ki, əvvəllər bu işi deputatlar aparırdılar:** "İndi müşahidə edirik ki, hökumətin nəzarətində işlərə başlanıb və dövlət büdcəsindən vəsait də ayrılıb. O halda təxmini hesablama metodu tətbiq edilə bilər. Bunun üçün sovet dövründə işğaldakı torpaqlarımızın statistik məlumatları əsas götürülür.

Buna əsaslanaraq bilmək lazımdır ki, işğal edilmiş ərazirlərimizdə nə qədər məktəb, ictimai müəssisə, mədəniyyət müəssisəsi var, kənd və qəsəbələrin, rayon mərkəzi infrastrukturunun məbləği dəqiq hesablanmalıdır. Əslində bu günə kimi hesablamanın müəyyən bir mərhələsi geridə qalıb. Amma bundan sonra dəymiş zərərin ümumi məbləği müəyyənləşdiriləcək ki, onu da düzgün hesablama lazımdır".

***

**Siyasi şərhçi bu günə kimi dəymiş zərərin təqribən 350 milyard dollardan çox olduğunu açıqladı:** "Belə hesab edilir ki, bu da dəqiq hesablama deyil. Çünki ilkin hesablamadır və hər gün keçdikcə dəyən ziyanın məbləği artır.

Ola bilsin ki, gələn il 450 milyardı keçəcək. Çünki işğal edilmiş ərazilərimizdə iqtisadi layihələr, infrastruktur, əhalinin əmlakı məqbul normativlərlə hesablanmayıb. Bunun üçün İşçi Qrupu tərəfindən yenidən qiymətləndirmə prosesi aparılacaq.

İctimai və şəxsi mülkiyyətə dəymiş ziyanı dəqiq iqtisadi amillərə söykənməklə, o cümlədən beynəlxalq praktikadan istifadə etməklə hesablayacaqlar. Əgər belə hesablama olsa beynəlxalq məhkəməyə müraciət etmək və udmaq olar".

**Q.Hüseynli Haaqa Məhkəməsində bu işi udmağın yollarını göstərdi:** "Məhkəməyə əsaslandırılmış rəqəmlər verilərsə, işin arxasında güclü vəkillər dayanarsa, sübutlar təqdim olunarsa, mülahizələr əsaslı olarsa, onda bu işi udmaq çətin deyil.

Çünki bir misal deyim; Kiprin ikiyə bölünməsi nəticəsində yunanlar iddia etdilər ki, Marat şəhərinə ziyan dəyib, əhalinin əmlakı dağıdılıb. Guya bunu türklər ediblər və belə bir iddia ilə Haaqa Məhkəməsinə üz tutdular.

Yunanlar kiçik bir şəhərə dəyən kiçik zərərə görə 100 milyonlarla təzminat uddular. İndi görün Azərbaycana nə qədər ziyan dəyib. Ona görə də Avropa Məhkəməsində hüquqi qərarın çıxarılmasına nail ola bilərik".

**Müsahibimiz hesab edir ki, Azərbaycan diplomatiyası bu məsələ ilə bağlı ciddi şəkildə fəaliyyət göstərməlidir:** "Diplomatiyamız güclü şəkildə işləsə, biz həm iqtisadi, həm siyasi cəhətdən uğur əldə edəcəyik.

Təbii ki, Ermənistan tərəfi qərardan apelyasiya şikayəti verə bilər. Ancaq o demək deyil ki, onların apelyasiya şikayəti təmin olunacaq və Avropa Məhkəməsinin qərarı ləğv olunacaq. Sadəcə, ciddi mülahizələr və faktlar varsa Azərbaycan uda bilər".

**Hərbi ekspert Üzeyir Cəfərov dedi ki, bu təşəbbüs çoxdan irəli sürülməli idi:** "Bütün maddi-mənəvi ziyan qəpiyinə kimi hesablanmalıdır. Biz niyə bu işi uzatmalıyıq? Erməniləri dünya ictimaiyyəti və fakt qarşısında qoymalıyıq.

Nəinki maddi, eləcə də mənəvi ziyanın kompensasiyası ödənməlidir. Azərbaycan tərəfi dəymiş ziyanı hesablayıb məhkəməyə təqdim etməlidir. Biz gözləməli deyilik ki, bunu əvəzimizə kimsə edəcək. Azərbaycan öz problemini özü həll etməlidir. Hələ təkcə sovet dövrünü götürəndə bizim işğal olunmuş ərazilərimizdə nə qədər müəssisə, binalar, şəxsi mülklər var. Kəlbəcər, Şuşada dəyəri milyardlarla ölçülən sərvətlərimiz var. Hesab edirəm ki, bu məsələyə ciddi yanaşmaq və intensiv işləmək lazımdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Teymur HƏSƏNLİ

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014

# Ermənistan vətəndaşları Azərbaycana keçsinmi?

**Etimad Əsədov:** "Ermənistan Azərbaycan torpaqlarını qeyd-şərtsiz boşaldarsa, bizim vətəndaşlarımız olan ermənilərin də orada yaşaması mümkündür"

**Vəfa Quluzadə:** "Erməni xalqı uzun zamandır ki, sülh istəyir. Rusiya isə bu sülhə imkan yaratmır"

**Azər Qaraçənli:** "Qarabağ münaqişəsi elə bir mərhələdədir ki, cəmiyyətin, vətəndaşların rəyi burada həlledici rol oynamır"

**Zeynal Məmmədli:** "Bunun üçün demokratik dialoq mühiti də şərtdir"



**"Ermənistanda yaşaya bilmirik, Azərbaycan təminat versə, hamımız buraya köçərdik". Bu sözləri, ötən gün Qazağın Kəmərli kəndində hərbçilərimiz tərəfindən saxlanılan Ermənistan vətəndaşı deyib. Adı və soyadı hələ ki dəqiq bilinməyən kişi cinsindən olan bu şəxs deyib ki, Ermənistanda vəziyyət çox acınacaqlıdır, əgər Azərbaycan dövləti təminat versə köçüb burada yaşamağa hazırıq.**

Bir neçə gün öncə Ermənistan prezidenti Serj Sarkisyan da jurnalistlərlə görüşü zamanı etiraf etmişdi ki, Ermənistanın əksər vətəndaşları ədalət çatışmazlığı və ya qanunun aliliyinin olmamasına görə daha yaxşı həyat üçün ölkəni tərk edirlər.

**Düşmən ölkə prezidenti çıxışında deyib ki, sayca az olan millət miqrasiyadan sonra daha da pis vəziyyətə düşür:** "Məsələ ondadır ki, biz sayca azıq və miqrasiya bizə ikiqat pis təsir edir. Başqa yandan, siz başa düşməlisiniz ki, digər ölkələrlə müqayisədə bizdə ən azı iki əlavə motiv var ki, ölkədən köçü daha da stimullaşdırır: birincisi, erməniləri maqnit kimi özünə çəkən diasporadır. İkincisi isə başa çatmayan müharibə, təhlükəsizlik problemidir. Valideynlər həyəcan keçirir".

Bütün bu deyilənlər onu göstərir ki, arada Dağlıq Qarabağ münaqişəsi olduğuna baxmayaraq, Ermənistan vətəndaşlarının bir qismi Azərbaycan tərəfi təminat verdiyi halda bizimlə birgə yaşamağa hazırdır. Bəs bu durumdan Azərbaycan hökuməti necə faydalana bilər? Bu durum Dağlıq Qarabağ münaqişəsinin həllində nəyi dəyişə bilər? Azərbaycan cəmiyyəti ermənilərlə birgə yaşayışa hazırdırmı?

"Yeni Müsavat" bu sualı tanınmış ictimai xadimlərin iştirakı ilə cavablandırmağa çalışıb.

**Qarabağ Qaziləri Birliyinin sədri Etimad Əsədov deyir ki, əgər Ermənistan Azərbaycan torpaqlarını qeyd-şərtsiz boşaldarsa, o zaman keçmiş Azərbaycan vətəndaşları olan ermənilərin orada yaşamasına razı olmaq mümkündür:** "Azərbaycan demokratik ölkədir, bu ölkənin keçmiş vətəndaşlarının da burada yaşamaq hüququ var. Ancaq öncə torpaqlarımızı qaytarmalıdırlar. İndiki halda isə hər hansı erməniyə ölkəmizdə sığınacaq verilməsi qəbuledilməzdir, birmənalı olaraq biz buna razı deyilik. Zaman keçdikcə, Azərbaycan daha da inkişaf edəcək, Ermənistanın isə əksinə, heç bir gələcəyi yoxdur. Ermənistan Qafqazda baş verən geosiyasi proseslərdən hər zaman geri qalıb, bu da o deməkdir ki, Ermənistan vətəndaşlarını heç də yaxşı gələcək gözləmir. Onlar nə zamansa Azərbaycanda yaşamağa can atacaqlar. Ancaq o zamana qədər Azərbaycan özü torpaqlarını qaytaracaq və ermənilərin burada yaşamaq üçün müraciət etməsi gec olacaq".

**Politoloq Vəfa Quluzadə isə hesab edir ki, Ermənistanı bu cür acınacaqlı vəziyyətə salan Rusiyadır, ona görə əhali bu ölkədən qaçır:** "Hətta gəlib Azərbaycanda yaşamaq istəyənlər də çoxdur. Dağlıq Qarabağın müstəqilliyini də, Ermənistanın tərkibinə daxil olmasını da ermənilər istəmir. Erməni xalqı uzun zamandır ki, sülh istəyir. Rusiya isə bu sülhə imkan yaratmır. Azərbaycan bu durumdan heç cür faydalana bilməz. Çünki burada tərəf müqabil Rusiyadır, Ermənistan deyil. Ermənistan bir neçə dəfə Azərbaycanla razılığa gəldi. Ancaq hər dəfə razılığa gələndə bir hadisə baş verir və Rusiya onu dağıdır, ya parlament güllələnir, ya prezident istefaya göndərilir. Ermənilər bizim tərəfə keçə də bilərlər, vətəndaşlıq da istəyə bilərlər, ancaq onların qohumlarını Ermənistanda təqib edəcəklər, başqaları da qorxacaq. O da kütləvi halda olmayacaq, ən yoxsul, hər şeyini itirmiş ümidsiz insanlar bura gələcək. Ermənilərin Azərbaycandan kütləvi sığınacaq istəməsi isə bəlkə də gələcəkdə olacaq, bu zaman Ermənistan dövləti çökəcək.

Ermənistanda əhalinin imkanı olsa hamısı qaçar. Ancaq Azərbaycan bu durumdan istifadə edə bilməyəcək. Çünki bu dəqiqə regionda diktə edən tərəf Rusiyadır».

**Sosioloq Azər Qaraçənli isə deyir ki, Qarabağ münaqişəsi uzun zamandır elə bir mərhələdədir ki, cəmiyyətin, vətəndaşların rəyi burada həlledici rol oynamır:** "Ona görə istər işğal olunmuş Azərbaycan ərazilərində yaşayan, istər Ermənistan ərazisində yaşayan ermənilərin mövqeyi - fərqi yoxdur, xeyrimizə və ya ziyanımıza olsun - bu münaqişənin həllində ciddi rol oynamır. Münaqişəni yaradan Rusiyadır, münaqişənin həllinə mane olmaq istəyən dövlətlərin sayı daha çoxdur. Münaqişənin həlli həmin dövlətlərin mövqeyindən asılı olduğuna görə ermənilərin bu cür mövqeyi nəinki azlıqda, hətta çoxluqda olsa belə problemin ədalətli həllinə təsir etməyəcək. Xalqları bu münaqişənin həllindən uzaqlaşdırıblar. Ermənilər də hər zaman münaqişə əleyhinə fikirlər səsləndiriblər, bəlkə də çoxluq bu mövqedədir. Ancaq bunun münaqişənin həllinə təsiri yoxdur".

**Media eksperti Zeynal Məmmədli bu durumu Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bir şans kimi qiymətləndirir:** "Ermənistandan bizim tərəfə keçmək istəyən vətəndaşlara Azərbaycanın qucaq açması, Dağlıq Qarabağ ermənilərinə də bir mesajdır ki, əgər onlar gəlib yaşaya bilirsə, bu ölkənin vətəndaşları olan ermənilər də yaşaya bilər. Təbii ki, Azərbaycan erməniləri bu ölkənin tərkibində bütün mədəni, siyasi hüquqlara əməl olunması şərti ilə yaşamağa hazırdırlarsa, bu, Qarabağ konfliktinin bitməsi deməkdir. Bu həmin insanların Ermənistanı idarə edənlərə təsiri deməkdir, onlar idarəedən şəxsi dəyişə bilər və bu problem həll oluna bilər. Dünya ictimai rəyi üçün də bu yaxşı haldır ki, Azərbaycan ermənilərin təqdim etdiyi kimi vəhşi bir xalq deyil".

**Cəmiyyət buna tolerant yanaşacaqmı sualına gəlincə, Zeynal Məmmədli bildirdi ki, əksər postsovet ölkələrində bu problem var və məsələni normal müzakirəyə çıxarmaqla həll edə bilərik, qarşıdurma yaratmaqla yox:** "Bu dialoqun yaranmasında hökumətin çox böyük rolu var. Ancaq təəssüf ki, nə Azərbaycan hökuməti , nə də müxalifəti bu demokratik dialoqu həvəsləndirəcək şəkildə davranmır. Cəmiyyət yetkin olarsa, bu məsələni də doğru anlayacaq, burada Ermənistan vətəndaşlarının heç bir hüququ pozulmadan yaşamasının da mahiyyətini doğru anlaya biləcəklər. Ancaq bunun üçün demokratik dialoq mühiti də şərtdir".

**Nərgiz LİFTİYEVA**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**


## «Bakcell» şirkəti Çimərlik Futbolu üzrə Avropa Kubokunun sponsoru oldu

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkətinin sponsorluğu ilə 28-31 avqust 2014- cü il tarixlərində Çimərlik Futbolu üzrə Avropa Kuboku - Bakı 2014 (Europen Beach Soccer Cup - Baku 2014) turniri keçiriləcək. Turnirdə Azərbaycan, İsveçrə, Yunanıstan, Rusiya, İspaniya və Macarıstan milli komandaları iştirak edəcək.**

**Turnir oyunları «Jumeirah Bilgah Beach» otelinin çimərlik futbolu meydançasında keçiriləcək.**

**Azarkeşlər üçün giriş pulsuzdur.**

**«Bakcell» şirkəti milli komandamıza uğurlar arzu edir və bütün həmyerlilərimizi millimizə dəstək olmağa çağırır.**

**«Bakcell» şirkəti Azərbaycanda futbolun inkişafına böyük diqqət və qayğı ilə yanaşır və Azərbaycan**

**Futbol Federasiyaları Assosiasiyası ilə əməkdaşlığı çərçivəsində bir sıra uğurlu layihələr həyata keçirir.**

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014



# İran-Azərbaycan münasibətlərini kim pozmaq istəyir - ölkəmizi şərləyirlər

**Avqustun 23-də İran səmasında, Natanz Nüvə Mərkəzi üzərində kəşfiyyat apararkən vurulmuş pilotsuz təyyarənin Azərbaycandan havaya qalxdığı barədə iddialar rəsmi Bakı tərəfindən qəti şəkildə təkzib olunub.**
**Məsələyə münasibət bildirən Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov virtualaz.org-a deyib ki, bu, bəzi xarici dairələrin Azərbaycana qarşı növbəti təxribatıdır.**

## Prezident Administrasiyası, XİN və Müdafiə Nazirliyi İsrail qaynağının məlumatına sərt təpki verdi və qəti təkzib etdi; yerli təhlilçilər də hadisədə iki ölkə münasibətlərini korlamaq istəyənlərin kobud "əl işi"ni görür...

Onun sözlərinə görə, işğalçı Ermənistan istisna olmaqla, Azərbaycan bütün qonşuları ilə öz münasibətlərini qarşılıqlı etimad, səmimilik, dostluq, bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri üzərində qurub: "Bu ilin aprelində prezident İlham Əliyevin İrana rəsmi səfəri yüksək səviyyədə keçib, qonşu ölkənin rəhbərləri ilə görüşlərdə ikitərəfli münasibətlər kompleks şəkildə müzakirə olunub, əvvəlki dövrdə mövcud olan bütün problemlərə aydınlıq gətirilib və sual doğura biləcək heç bir məqam qalmayıb. Görünür, belə vəziyyət bəzi xarici dairələri narahat edir və bu tipli informasiyalar Azərbaycanın qonşuları ilə, o cümlədən İranla münasibətlərini korlamaq üçün bilərəkdən dövriyyəyə buraxılır".


Əli Həsənov

"Təxribat xarakterli informasiyanı təkzib edirik. Yayılan məlumatları yaxın qonşularla münasibətləri korlamağa cəhd kimi qiymətləndiririk". **Bunu isə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı** bəyan edib. Dərgahlının fikrincə, belə təxribat xarakterli məlumatlar Azərbaycanın qonşuları ilə münasibətlərini korlamaq məqsədilə yayılıb: "Bu tipli pilotsuz uçuş aparatları Azərbaycanın Silahlı Qüvvələrində yoxdur".


Vaqif Dərgahlı

**"Azərbaycanın İranla tarixi, mədəni bağlantıları var. Azərbaycan qonşu dövlətlərlə münasibətlərinə böyük əhəmiyyət verir. Heç bir 3-cü tərəf qonşu ölkələrlə münasibətlərimizə xələl gətirə bilməz". Bu fikirlər isə XİN mətbuat xidmətinin rəhbəri Elman Abdullayevə məxsusdur. (axar.az) Nazirlik rəsmisi onu da bildirib ki, İranın Azərbaycandakı səfiri ilə qarşılıqlı məsləhətləşmələr aparılır:** "Məsləhətləşməyə gəlincə, bu, təkcə indi yox, mütəmadi olaraq aparılır. Bizim əsas prioritet istiqamətlərimizdən biri də qarşılıqlı, bərabərhüquqlu münasibət qurmaqdır. Hazırda İranla Azərbaycan arasında münasibətlər yüksələn xətlə inkişaf edir".


Elman Abdullayev

Virtualaz.org xəbər verir ki, təyyarənin Azərbaycanda qalxdığı barədə iddiaları neçə gündür dövriyyəyə buraxan İsrail və Qərb dairələri bu gün daha da irəli gedərək "konkret detallar" təqdim ediblər. İsrailin kəşfiyyat xidməti "Mossad"a yaxınlığı ilə bilinən "Debkafile" saytı xəbər verir ki, İranda vurulan təyyarə həqiqətən "Hermes 450"dir və Azərbaycanın Naxçıvan bölgəsində yerləşən aviabazadan qalxıb. Sayt məlumatı İsrail hərbi qaynaqlarından və İrandakı mənbələrdən əldə etdiyini yazır. Bildirilir ki, İranın aviasiya ekspertlərinin və xüsusi xidmət əməkdaşlarının apardıqları araşdırmalar İnqilab Keşikçiləri Korpusunun komandirlərinin təyyarənin Səudiyyə Ərəbistanından qalxdığını bildirərkən tələsdiklərini müəyyən edib. Sayt Naxçıvanın İran, Türkiyə və Ermənistanla həmsərhəd olduğunu, üç il əvvəl Azərbaycanın İsraildən aldığı "Hermes 450" təyyarəsini Qarabağda kəşfiyyat aparmaq üçün istifadə etdiyini, ancaq təyyarənin vurulduğunu bildirir. "Debkafile" yazır ki, İsrailin İrandan 1100 kilometrlik hava məsafəsinin olduğunu nəzərə alan israilli hərbi analitiklər İnqilab Keşikçiləri Korpusunun təqdim etdiyi görüntülərdəki təyyarə qalıqlarının "Hermes 450"yə aid olmadığını, həmçinin onun İsrailə məxsus olmadığını deməklə səhvə yol veriblər. Analitiklər hesab edirlər ki, İsrailin çoxsaylı casus peykləri şəbəkəsinə malik olduğu bir vaxtda məxfi informasiya sistemləri ilə təchiz olunmuş təyyarəni İranın hava səhəsinə göndərməyə ehtiyacı yox idi. "Lakin bu iradlar heç bir tənqidə davam gətirmir. "Debka"nın hərbi qaynaqları bildirir ki, "Hermes 450" təchiz olunduğu foto və videokameralar sayəsində yüksək keyfiyyətlə rəngli təsvirlər çəkə bilir. Təyyarənin kameraları istənilən hava şəraitində işləməyə imkan verir. İranın müdafiə naziri Hüseyn Dehqan təyyarənin haradan qalxdığını göstərmədən deyib ki, onun ölkəsi fələstinlilərə silah göndərməklə bunun qisasını alacaq. Bizim mənbələrimizin bildirdiyinə görə, Tehranın bu qarışıq reaksiyası bir neçə həftədən bir Naxçıvandan qalxan pilotsuz kəşfiyyat təyyarələrinin İranın nüvə obyektləri üzərində uçuşlar keçirməsi qarşısında çarəsizliyi ilə bağlıdır. Pilotsuz kəşfiyyat təyyarələri radiasiya səviyyəsini ölçərək İranda uranın zənginləşdirilməsi proqramına dair dəqiq məlumatlar toplayır" deyə sayt yazır.

"Debka" bildirir ki, İran iki ildir bu pilotsuz təyyarələri vurmağa, yaxud elektron vasitələrlə endirməyə çalışırdı, ancaq uğur əldə edə bilmirdi. Bu həftə baş verən insident isə istisnadır. İran təyyarəni yer-hava raketi ilə vurub. Sayt qeyd edir ki, İran təyyarənin Stels texnologiyasına malik olduğunu deməklə bu uğursuzluğunu ört-basdır etməyə çalışırdı. **"Əslində isə təyyarə Stels texnologiyasına malik deyil və Naxçıvandan qalxandan sonra İranın hava məkanında 300 kilometr irəliləyib, yalnız bundan sonra hava hücumundan müdafiə sistemləri tərəfindən aşkarlanıb"**, - deyə sayt bildirir.

****

**Ortaya çıxan qənaət budur ki, İsrail çevrələri açıq-aşkar İranı Azərbaycana qarşı qoymaq istəyir və bunun hansı məqsəd güddüyünə dair bir çox mülahizələr ola bilər. Bu arada İran bəyan edib ki, pilotsuz kəşfiyyat təyyarəsinin ölkənin hava məkanına soxulmasına görə İsrailə hərbi yolla cavab veriləcək. "Fars" agentliyinin məlumatına görə, İnqilab Keşikçiləri Korpusunun komandanı, briqada generalı Hüseyn Salami avqustun 26-da Tehranda "Bəsic" şəhidlərini anma mərasimində çıxışı zamanı deyib:** "Bizim bu təcavüzə cavabımız diplomatik olmayacaq, biz düşmənin cavabını döyüş meydanında verəcəyik, ancaq bu haqda əvvəlcədən elan etməyəcəyik". Salami bildirib ki, pilotsuz təyyarə yəhudi dövlətinin ərazisindən yox, İsrailə qonşu olan ölkələrdən birindən havaya qalxıb. Lakin onun sözlərinə görə, təyyarənin İsrailə məxsus olmasına heç bir şübhə yoxdur. İran təyyarənin Azərbaycandan qalxdığına dair İsrail və Qərb dairələrinin ortaya atdığı iddialara hələ münasibət bildirməyib.

İran Silahlı Qüvvələrinin baş qərargah rəis müavini Seyid Məsud Cəzairi ölkəsində məhv edilən təyyarənin keçmiş sovet respublikalarının birindən havaya qalxdığını deyib. İsrailin xüsusi xidmət orqanlarına yaxınlığı ilə seçilən media orqanı iddia edir ki, Azərbaycan Qarabağda kəşfiyyat məqsədi ilə həmin təyyarələri İsraildən alıb.

***

**Politoloq Vəfa Quluzadə yayılan məlumatın səhihliyinə inanmır:** "Mən inanmıram ki, İran səmasına Azərbaycan ərazisindən pilotsuz kəşfiyyat təyyarəsi buraxılsın. Çünki Azərbaycan bilir ki, İran bu cür məsələlərə nə qədər həssasdır və münasibətlərə xələl yetirmək olmaz. Odur ki, İsrail mənbəsinin iddiasına da inanmıram. Bəlkə bu, başqa dövlətlərin kəşfiyyat məlumatıdır və aranı qarışdırmaq istəyirlər. Hər halda, Azərbaycanla İranın münasibətini korlamaq İsrailin də xeyrinə deyil. Çünki belə bir addım Azərbaycanın mənafeyinə zidd olardı. Digər tərəfdən, Azərbaycanda İsrailin hərbi bazası yoxdur ki, buradan pilotsuz təyyarə uçurulsun".


Vəfa Quluzadə

**Quluzadə bu məsələdə Azərbaycan izinin axtarılmasını mənasız sayır:** "İsrailin özü elə İran ərazisinə yaxın məsafədədir. Gərək Azərbaycan İranla buna icazə versin. Ola bilər bu, Azərbaycanla İranı üz-üzə qoymaq istəyənlərin əməlidir. Hər halda, bu, Azərbaycanın əleyhinə yönəlmiş əməliyyatdır".

***

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun da məsələyə maraqlı yanaşması var:** "Əlbəttə, İsrailə aid pilotsuz təyyarənin İran səmasında vurulması ilk növbədə bu sualı gündəmə gətirir ki, vurulan təyyarə hansı ölkədən havaya qalxıb? Çünki bu təyyarənin İsraildən qalxaraq İran səmasına yetişməsi problematikdir. Bəziləri Azərbaycanda, şübhələnib ki, guya bu təyyarə Azərbaycandan qalxa bilərdi. Bu şübhəni irəli sürənlər İsrailin Azərbaycana bir neçə pilotsuz təyyarə satdığını irəli sürürlər. Bu versiyaya inanmıram. Birincisi, Azərbaycanın İranın nüvə obyektləri haqqında məlumat toplamaq kimi dərdi yoxdur. Bu, daha çox ABŞ və İsraili maraqlandırır. İkincisi, rəsmi Bakı onsuz da İranla münasibətlərdə ehtiyatlıdır, Qərbin İrana qarşı planlarında yer almır. Belə olan halda Azərbaycan İran səmasına niyə pilotsuz təyyarə göndərməlidir ki?"

**E.Şahinoğlu bir məqama da diqqət çəkdi:** "Heç iranlı rəsmilər də Azərbaycanın adını çəkmirlər. Çünki onlar da anlayırlar ki, rəsmi Bakı bu cür riskli oyuna getməz. Digər tərəfdən, İsrailin və ABŞ-ın Azərbaycanda hərbi bazaları da yoxdur ki, buradan İran səmasına pilotsuz təyyarə buraxsınlar. Mən az səsləndirilən başqa bir variantın üzərində dayanmaq istərdim. Həmin pilotsuz təyyarə Şimali İraqdan havaya qaldırıla bilərdi. Bəllidir ki, İraqın şimalındakı kürd liderlərlə İsrailin çox sıx münasibətləri var. İsrail illərdir kürdlərə silah ötürür, oradan isə kəşfiyyat məlumatları əldə edir. Təsadüfi deyil ki, İsrail rəsmiləri Şimali İraqın "müstəqilliyini" tanıyacaq ilk ölkə kimi açıqlama vermişdilər. Ona görə də İsrailin pilotsuz təyyarəni məhz İraqın şimalından İranın səmasına göndərdiyini istisna etmirəm".


Elxan Şahinoğlu

****

Yeri gəlmişkən, avqustun 28-də ABŞ Müdafiə Nazirliyi ölkə donanmasına aid bir patrul gəmisinin İran gəmisinə atəş açdığını açıqlayıb. Açılan atəş nəticəsində gəmiyə hər hansısa zərərin dəyib-dəymədiyi məlum olmasa da, Pentaqonun açıqlamasında İran gəmisinin ABŞ patrul gəmisinə silah tuşladığı və buna görə onlar tərəfindən atəş açıldığı qeyd edilib. Bu barədə İranın "Fars" xəbər agentliyi də məlumat yayıb. Pilotsuz gəminin vurulmasının ardınca İran gəmisinə atəş açılması, hər halda, böyük bir savaşın simptomları da sayıla bilər. Belə görünür ki, ABŞ-İran anlaşması barədə deyilənlər, İranın dondurulan bank hesablarının açılması aldadıcı məsələlərdir və istənilən vaxt bölgədə böyük gərginlik ocağı çatıla bilər. Azərbaycanın adının isə bu məsələdə hallandırılması heç də təsadüfə oxşamır.

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014




# Ömrünü mənasız keçirməmək üçün nə etməlidir insan?

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rəhmənir-Rahim! Bəşəriyyət meydana gəldiyi, formalaşmağa başladığı zamandan bəri təkamülə can atır. Bütün dövrlərdə, bütün zamanlarda pisliklərdən çəkinərək məhv olmaqdan qurtulmaq, daxili vəziyyətini düzəltmək, onu narahat edən siqnalları aradan qaldırmaq kimi mövzular insanları dərindən düşündürüb. Hər kəs həyatında, özü barədə düşündüyü anlarda belə suallarla qarşı-qarşıya olub: nə edək ki, durumumuz, mənəvi halımız yaxşı olsun? Nə edək ki, təkamül, tərəqqi edə bilək? Digər tərəfdən, nələrə diqqət edək və qarşısını alaq ki, məhv olmayaq, tənəzzülə uğramayaq? İnsan bilsə ki, nələr ona zərər verir və nələr kömək edir, vəziyyətini düzəldə bilər.**

## Mənəvi təkamül üçün əxlaqi mövzularda davamlı maariflənməyə ehtiyac var

Böyük əxlaq ustadları buyururlar ki, insanın mənəvi təkamülü üçün davamlı əxlaqi mövzularda və bəhslərdə moizə dinləməsinin önəmi var. İnsan bir gün, iki gün, bir neçə gün diqqət etməyə bilər. Nəhayət bir gün bu bəhslər onun qəlb siminə toxunur. Bir gün ayılır ki, həmin moizədə sadalanan pis xüsusiyyətlər onda da var. Misal üçün, insanlar var, bilmirlər ki, birinin başına pis iş gələndə sevinmək - pis işdir. İnsan öz-özünə bu məsələlərdən xəbərdar olmur. Əxlaqi mövzularda mütaliə edir, bu məsələlər barədə oxuyur və ya əxlaqi moizələrə qulaq asır, nəhayətdə aydın olur ki, bir insanın uğursuzluğuna sevinmək - olduqca böyük günahdır. İnsanlar bu mövzuda mesajlar almayanda, davamlı bilgilənmələri olmayanda, qəbahətli işləri rahatlıqla edə bilirlər. Bəzən insan bütün ömrü boyu beləcə mənasız şeylərə şadlanmaqla yaşaya bilər. Bəzən öz uğursuzluqlarını da elə bununla həll edir, özünü rahatlaşdırır. Və ya öz uğurlarını bununla böyüdür. Birdən anlayanda ki, bu, yaxşı bir iş deyil, məhz o zaman düzəlməyə başlayır, təkamül yolunda addım ata bilir.

## İslamda əxlaq sistemi tövhid və məadla bağlıdır

İslam əxlaq sisteminin başqa əxlaq sistemlərindən ciddi, fundamental fərqi bundan ibarətdir ki, İslamda əxlaq sistemi başlanğıc və sonucla əlaqələnir. İslamda əxlaq sistemi dünyagörüşündən irəli gələrək, Tövhid *(təkallahlığa etiqad)* və Məad *(həyatın əbədiliyinə, Qiyamət sorğusuna, axirət mükafatına və cəzasına inam bəsləmək)* ilə bağlıdır. Tövhid və məada bağlı olmayan bir əməlin, rəftarın İslam əxlaq sistemində əxlaqi dəyər gücü yoxdur. Kiminsə halına, uğursuzluğuna, dərdinə sevinmək - ola bilər müvəqqəti həyat yaşayan, dünyagörüşündə həyatın yalnız bura ilə məhdudlaşdığına inanan, bu çərçivələrlə düşünən insanlar üçün fəlakətli olmasın. Amma əgər bir insan buraya müvəqqəti imtahan yeri kimi baxır və bütün rəftarlarının aqibətinə təsir qoyduğunu anlayırsa, yaradılış baxımından Allahdan olduğunu dərk edirsə, Allah dərgahında etdiyi bu rəftarın eybəcərliyini anlayacaq.

## Namazın əxlaqla əlaqəsi

Bəzən soruşurlar ki, namazın əxlaqla nə əlaqəsi var? Namazın əxlaqa birbaşa aidiyyəti var. Namaz - insanın təqvasının əmələ gəlməsinin ilk və zəruri şərtidir. Təqva isə ən ciddi İslami əxlaqi anlayışlardandır. Əxlaqi təkamül təqvasız mümkün deyil. Deməli, əxlaqi təkamül namazsız da mümkün deyil.

Hicabın da əxlaqi yüksəlişlə birbaşa bağlantısı var. Hicab - bir insanın iradəvi həyatının bir hissəsi, geyim tərzinin iradəvi təzahürüdür. Ona riayət etmədən, kamil təqvaya riayət etmək mümkün deyil. Hicab - təqvanın elementlərindən, tərkib hissələrindəndir. Əxlaqi kateqoriyalardan biri olan iffətliliyin kamil duruma gəlməsinin ən zəruri amillərindən biridir hicab. Hicab olmayan yerdə təqva kamil formada formalaşmaz. Hicab olmayan yerdə iffət kamil formada formalaşmır və təkamül baş vermir. Yeməyimiz, içməyimiz, oturmağımız, durmağımız, ünsiyyətimiz - hər bir davranışımızın əxlaqi təkamülümüzə təsiri var.

Bəşəriyyətin əxlaqi təkamülünə təsir edən əsas amillərdən biri də qəzəb qüvvəsidir. Bəşəriyyətin bir çox müsibətlərinin kökündə qəzəb qüvvəsi dayanır. Qəzəb qüvvəsi çox güclü, fundamental qüvvələrdən biridir. Öz-özlüyündə nemətdir. Yəni, yerində istifadə olunanda nemət olur. Nemət, o neməti verən Rəbbimizin buyurduğu kimi istifadə olunanda, qəzəb qüvvəsi də nemət olur və ona şükür edirsən. Amma sən ona nemət kimi yanaşmasan və onu Allahın şükrünü əda etmək üçün istifadə etməsən, ən böyük dağıdıcı qüvvəyə çevrilə bilir insan üçün. Nemət olaraq insana verilmiş qəzəb, insanın müqəddəratını viran edən, taleyini bədbəxt edən bir dağıdıcı qüvvəyə çevrilir - əgər düzgün və yerində istifadə olunmazsa.

## İslamin nəzərində ən güclü insan kimdir?

Əziz İslam Peyğəmbəri (s) buyurur: "Sizə ən güclünüzdən xəbər verimmi? Bu, sizlərdən o kəsdir ki, qəzəbli olanda özünü saxlayır". Kim ki, qəzəbli olanda özünü saxlaya bilir - ən güclü insan odur. Əslində bunu etmək fövqəladə dərəcədə çətindir. İnsan özünü tərbiyə etməzsə, özünə nəzarət etməzsə, özünə sahib çıxmazsa - qəzəb qüvvəsi gəlib nəyi varsa, dağıdar. Qəzəb qüvvəsi insana gələndə və düzgün tənzimlənməyəndə, özündən sonra insanın daxilində böyük bir peşmançılıq üçün əsər qoyar. İnsan özünü nəzarətdə saxlasa, qəzəbdən öncə onun gəldiyini hiss etsə, onu kontrola alar, cilovlayar, bu qəzəbin ona hakim kəsilməsinə imkan verməz. Amma əgər nəzarətə almasa, insan çox böyük yanlışlıqlar edə bilər. Qəzəb - çox ağır məsələdir. Ən güclü adam - o adamdır ki, qəzəb qüvvəsini nəzarətdə saxlaya bilir, lazım olan yerlərdə istifadə edə bilir. Hətta belə deyək: ağıllı adam - o adamdır ki, qəzəb qüvvəsinin tənzimlənməsi üçün öncədən daxili hazırlığı var. Qəzəb qüvvəsini elə tənzimləyə bilir ki, bu sunami kimi hal ona gələnə qədər, bunu cilovlamağa daxili hazırlığı olur. O, bu mənəvi sunaminin gəlməsini hiss edir və onun gəlməsinə əngəl yarada bilir. Axı sunami gələndə, yoluna çıxan hər şeyi dağıda bilir və onun qarşısında dayanmaq çətin ola bilir, bəzən mümkünsüz olur. Amma ağıllı insan bu kimi hallara öncədən hazır olur, qəzəbinin kortəbii hal aldə etməsinin qarşısını alır.

Onu da qeyd edək ki, bu kimi hallar gəlməmişdən öncə, onların gəlişini hiss etmək, gəlməsinə əngəl törətmək - olduqca böyük cəsarət və dərrakə tələb edir.

İmam Cəfər Sadiq (ə) buyurur: **"Kim öz qəzəbinə sahib deyilsə, ağlına da sahib deyil"**. Qəzəb özü ilə gətirdiyi ab-hava sayəsində insanın özündən çıxardar. İnsanın ağlı zəifləyər, ağlın dominantlığı itər. Ağlı başında olduğu vaxt etdiyi işləri, insan qəzəbli halda edə bilməz. Qəzəb, insanın beynini dumanlandırar. İnsan bir vəziyyətə gəlib çatar ki, hər mənada anlayışı, dərki, qavrama qabiliyyəti, məntiqi - hamısı zədələnər. Qəzəb gələndə bunların işləməsinə imkan vermir. Ona görə də kim öz qəzəbinə sahib deyilsə, ağlına da sahib deyil.

## Qəzəb - iblisin (lən) alovudur

Həzrət Rəsulallah (s) qəzəblə bağlı daha bir xəbərdarlıq edir: **"Qəzəb - şeytan (lən) alovunun bir hissəsidir"**. Qəzəb fitnə alovunu, kin-küdurət, dağıdıcılıq alovunu gətirər. İllərlə qurulan münasibətləri, illərlə qurulan evləri, illərlə qurulan İlahi təsisatları dağıdar, aradan aparar. Əgər qəzəb əqlin nəzarətində olmazsa, əgər əxlaqi tutum qəzəb qüvvəsini üstələməzsə, insan şeytanın (lən) ixtiyarına keçər. Bu zaman həmin qəzəb qüvvəsini şeytan (lən) öz əlində vasitə kimi istifadə edər və insanın həmin qəzəbi şeytanın (lən) alovuna çevrilər.

Qəzəb öz ardınca çoxsaylı pisliklər gətirər. İmam Sadiq (ə) buyurur: **"Qəzəb - hər bir pisliyin açarıdır"**. Qəzəblənən insan pis danışar, ibadətə laqeyd olar, onun etiqadı zədələnər, o, ağvalideyn olar, dostunun, yaxınının qəlbini qırar, həyat yoldaşına, övladına əziyyət verər. Qəzəbli halda elə bir işlər görər ki, sonradan bir ömür boyunca onların peşmançılığı ilə yaşayar. Qəzəbli halda insan elə pis işlər görə bilər ki, adi halında onları heç bir zaman edə bilməz. Qəzəb insanın daxilində elə bir alov püskürdər ki, sonradan nə etsələr, onu söndürmək mümkün olmaz. Qəzəbli halda insan mövcud haldan fərqli bir axında rəftar edər.

## Qəzəbdən necə qurtulaq?

Əziz İslam Peyğəmbəri (s) buyurur: **"Kim qəzəbinin qarşısını almazsa, Allah da ona qarşı əzabının qarşısını almaz"**. Qəzəbi sərbəst buraxsaq, Allah Təalanın bizim üzərimizə əzabı da sərbəst olar. Qəzəb - əzabgətiricidir. Qəzəb səbəb olar ki, İlahi əzaba düçar olaq. Qəzəbimizi nəzarətə almasaq, İlahi əzabla üzləşəcəyik. Qəzəbimizi ələ almağı bacarsaq, Allah da bizə mərhəmət edər, əzablardan qoruyar.

Həzrət Əmirəlmöminin (ə) qəzəbdən qurtulmağın yolunu öyrədir. Həzrət (ə) buyurur: **"Qəzəbinizə susmaqla, nəfsin istəklərinə ağılla dərman edin"**. Susmaq - çox ciddi mövzudur. İnsan qəzəbli halda danışdıqca, onun qəzəbi daha da alovlanır. İradəvi sükut - qəzəbi dayandıran amillərdəndir. Qəzəbli halda susmaq, sükut etmək çox çətindir. İradəvi sükut çox çətindir, ağırdır. Amma Allahın buyuruşu budur ki, qəzəbli halda sükut edəsən. Buna itaətdə səbir deyilir. Allaha etiqadı olan, inamı olan, Allaha itaət edən bəndə gərək qəzəbli halında sükut etməyi bacarsın. Qəzəbli halda sükut edən insan, xeyli fəsadın qarşısını alır. Qəzəbli halda danışmaq - insanı məhvə, geriqayıtmaz nəticələrə apara bilər.

Öz nəfsani istəklərinə, nəfsani tələbatına görə qəzəblənən insan, Allahdan qəflətdə olmuş olur. Ona görə də Həzrət Əli (ə) qəzəbli durumda sükut etməyi, nəfsin istəyinə ağılla dərman etməyi tövsiyə edir. Ağıl, düşüncə nəfsin istəklərini təhlil etməlidir. Bu istəklərin Allahın razılığına zidd olduğunu anlayanda, onlara "dayan" deməyi bacarmalıdır. Nəfsi istəkləri əqli müstəviyə keçirdikdən sonra hər şey öz yerini tapmış olur.

## Qəzəbi nemət kimi istifadə edə bilənə verilən mükafat

İmam Muhəmməd Baqir (ə) buyurur: **"Kim qəzəbini soyuda bilsə və onu udsa, Allah Qiyamət günündə onun qəlbini iman və rahatlıqla aşırıb-daşırar"**. Qəzəbi soyutmağı bacarmaq böyük iradə və əzmkarlıq tələb edir. Əgər insan buna nail ola bilsə, Qiyamət günü onun qəlbi iman və rahatlıqla aşıb-daşar. Qəzəbi nemət kimi istifadə etməyin, nəfsin istəklərinə qurban verməməyin Allah dərgahında nəhəng mükafatı var.

Mübarək Qurani-Kərimdə də qəzəblə bağlı Allah Təala tərəfindən açıq-aşkar işarələr var. Allah Təala "Ali-İmran" surəsinin 134-cü ayəsində buyurur: "(Təqvalılar) həmin o kəslər(dirlər) ki, mallarını rifah və şadlıqda, mallarında və hallarında (maddi və mənəvi) yoxsulluqda xərcləyirlər, qəzəblərini udan və camaat(ın xətaların)dan keçənlərdirlər. Allah yaxşılıq edənləri sevir". Göründüyü kimi, Allah Təala ən müsbət keyfiyyətlərin içərisində qəzəbi udmağı da göstərir. Rəbbimiz belə insanları sevdiyini də insanlara çatdırır. Qəzəbi udmağın, qəzəbli haldan çıxmağın Allah qarşısında bu qədər böyük məqamı və yeri var ki, onlar Allah yolunda hər bir halda infaq edənlərlə bir tutulur.

**"Şura" surəsinin 37-ci ayəsində buyurulur: "(Həmçinin) böyük günahlardan və çirkin əməllərdən çəkinən və (şəxsi məsələlərdə birinə) qəzəbləinəndə (intiqam almaq əvəzinə onu) bağışlayan kəslər (üçün)".**

Görürük ki, Qurani-Kərim insanın hətta kiməsə qəzəbləndiyi zaman belə, onu bağışlamağa çağırır. Müqəddəs dinimiz bunu böyük bir imtiyaz kimi göstərir. Qəzəblənən zaman bağışlamağı, böyük günahlardan və çirkin əməllərdən çəkinməklə eyni dəyərdə tutur.

**Allahım, bizlərə qəzəbi tənəzzülə, məhvə aparacaq səbəb deyil, təkamülümüzə aparacaq nemət olmağı nəsib et!**

**Allahım, bizlərə Sənin razılığına səbəb olacaq həyat yaşamağı nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 216 (5925) 29 avqust 2014



# "Qardaş, bu ceyranı hardan almısan?"

## Toydan qaçan gəlin sindromu barədə bilinməyənlər

**Sanki son vaxtların dəbinə çevrilib. Günaşırı Azərbaycanın müxtəlif bölgələrindən "gəlin toydan qaçdı" tipli xəbərlər gəlir. Səbəblər bir-birindən fərqlidir. Birində gəlinin evlənəcəyi oğlanı yox, başqasını sevməsi göstərilir. Bir başqasında səbəb daha fərqli nüanslarda gizlədilir...**

### Filmlər, seriallar və qaçan gəlin romantikası...

Daha çox serialların, Türkiyə və xarici filmlərin sevimli ssenarisi olan bu "evdən qaçan gəlin" mövzusu günümüzə daşınıb. Məlum, xaricilərdə gəlinlər toyun depressiyasına dözmədikləri, evliliyin çətinliyinə tab gətirməyəcəklərini anladıqları üçün "yol yaxınkən" əyinlərində ağ gəlinlik libası məkanı tərk edirlər. Filmə daha çox məna qatmaq üçün bəzən gəlinlərin nikah məmurunun məlum sualından dərhal sonra "start" düyməsinə basıb, qaçması səhnəsi klassikdir...

"Siz, filankəsova filankəs bəhmənkəsov bəhmənkəslə evlənməyə razısınızmı?" Bax, bu ədəbi və əzəli sualın ardınca gəlin də dabanına tüpürüb aradan çıxır. Tapa bilənə halal olsun...

İndi deyilə bilər ki, bizim qızlar da filmlərin təsiri altına düşüblər. Zarafat deyil, ötən il Türkiyə telekanallarından birində yayımlanan serialın adı məhz belə idi: "Kaçak gelinler". Sevmədiyi adamla evlənməmək üçün qaçan bir gəlin, onu toy günü tərk edən adamın arxasınca qaçan gəlin. Hərəsinin bir hekayəsi vardı. Kim təminat verə bilər ki, bizim gənc qızları bu hekayələr "yoldan çıxarmayıb"?

### Əsas kateqoriya - zorla evləndirilən qızlar

Amma sosioloji araşdırmalar səbəblərin bu qədər bəsit olmadığını sübut edib. Məlum olub ki, toyundan qaçan xanımlar bir neçə kateqoriyaya bölünür. Başlayaq birincidən.

**Zorla evləndirilən qadınlar:** Bu qadınlar ailənin basqısı ilə evlənirlər. Ailə, ya pulun gücü, ya da böyüklərin məsləhəti ilə qızı sevmədiyi oğlanla evləndirməyə qərar verir. Əgər qız cəsarətlidirsə və hər şeyi göz önünə alıbsa, ilk fürsətdə evdən qaçır. Təbii ki, qaçanda da özünü maddi cəhətdən təmin etmək üçün

## Gəlin toydan qaçırsa, günah kimdədir?

toyda alınan qızıl əşyalarını və pulları da götürür. Bu arada bir haşiyə çıxaq ki, toyundan qaçan gəlinlərlə bağlı statistika Türkiyədə də xeyli zəngindir. Bu halda gəlinlər toy günü qonaqların hədiyyə olaraq taxdığı zinyət əşyaları və pulları da götürüb aradan çıxır. Çox vaxt da Türkiyədə dələduz qızların, qadınların asan yolla pul qazanmaq üçün belə toy teatrlarından istifadə etdiyi üzə çıxır.

Sözügedən situasiyada daha çox bəylər zərərçəkən sayılır. Həm maddi, həm mənəvi. Adamların bütün toy xərci batır, üstəlik, imiclərinə vurulan zərbə də onları məhv edir. Bu halda bir çoxu gəlinin izinə düşür, bəziləri isə "məni istəməyəni mən dünəndən istəmərəm" məntiqi ilə gəlini unudur. Vəkil-məhkəmə yolu ilə onu tərk edən qadından intiqam almaq istəyən bəylər sayca azlıq təşkil edir. Bu, daha çox kuryoz hadisələrin baş verdiyi Avropa ölkələrində ola bilər.

### Mafiya kimi qadınlar və ya ailə basqısından qurtulmaq üçün gəlinlik geyinənlər

**İkinci kateqoriya isə soyğunçuluq etmək üçün toydan qaçan gəlinlərdir.** Yuxarıda onlar barədə xırda məlumat vermişdik. Bu cür qadınlar haqda xüsusi nələrsə danışmağa ehtiyac yoxdur. Onlar mafiya kimidir. Xüsusən yaşlı, ya da əlil, köməksiz kişilərlə ailə qururlar. Toy günü isə yığılan pulu, zinyət əşyasını götürüb aradan çıxırlar.

**Üçüncü kateqroiya daha ilgincdir: onlar ailə təzyiqindən qurtulmaq üçün evlənən qızlardır.** Bu cür qızlar ailəsindən qurtulmaq üçün bu yola baş vururlar. Saçına, makiyajına, küçəyə çıxmasına qarışılan bu qadınlar ya qohum-əqrəbadan, ya da məhəllənin gənclərindən birini "qurban" olaraq seçir, evləndiyi gün aradan çıxır. Bu kateqoriyadan olan qızların zinyət əşyalarını özüylə aparması və sair dələduzluq etməsi görünməyib.

**Keçək dördüncü kateqoriyaya. Bu da sevdiyi adamla evlənmək üçün başqasıyla evlənən qadınlardır.** Yanıltmac kimi səsləndiyinin fərqindəyik. "Sevdiyi ilə evlənmək istəyirsə, elə onunla evlənsin də" deməyə tələsməyin. Həyatda hər şey ola bilər. Bu kateqoriyadan olan qızlar sevdikləri ilə ya vəlvələdən, ya zəlzələdən ayrıla bilər. Ailəsi onu başqası ilə evləndirən gün isə radikal qərar verib qaçar. Bundan başqa, sevdiyi çox kasıb, imkansız biridirsə, qız yenə də toy günü qızılları götürüb aradan çıxmaq perspektivini düşünüb, toydan qaça bilər və sair.

### Uşaq yaşdakı qızlar toy günü "yuxudan ayılır"

Türkiyəli sosioloqlar bu mövzu ilə bağlı daha bir maraqlı kateqoriya da aşkarlayıblar. Məlum olub ki, zifaf gecəsi travması ucbatından qaçan qızlar da az deyil. Bakirə olmayan və bunun üzə çıxacağının qorxusu onları son anda yaxalayır və aradan çıxırlar.

Digər kateqoriya isə evlənmək üçün canfəşanlıq edib, son məqamda bundan sıxılan qızlardır. Onlar daha çox uşaq yaşda olurlar. Evlənmək üçün tələsirlər, çünki bunu da evcik-evcik oyunu kimi görürlər. Son məqamda isə bunun oyun olmadığının fərqinə varırlar ki, nəticəni də siz bilirsiz. Qaçan gəlin və onun arxasınca saçını yolan anası, pərt vəziyyətdəki atası...

### Toydan qaçan gəlin "o, məndən elə şeylər istəyirdi ki..." deyir...

**Toydan qaçan gəlinlərin öz izahatları, hekayələri isə tamam fərqlidir. Yəqin xatırlayırsız, Lənkəran rayonunun Havzava kəndində baş tutan qəribə toy haqda məlumat vermişdik. Bu toyun qəribəliyi onda idi ki, toyuna iki gün qalmış 18 yaşlı gənc qız qəfil yoxa çıxmışdı. Bu xoşagəlməz məqama baxmayaraq, toy baş tutmuşdu. Məsələn, həmin qız - Günəş Mənsimzadə toydan qaçmasını belə izah edirdi:** "Atam hər zaman mənə fiziki təzyiq göstərirdi. Günün birində Nazim Həsənov adlı birisi mənə elçi gəldi. Ailəm məni ona vermək istədi, ağladım. Dedim ki, mən oxumaq istəyirəm, ərə getmək istəmirəm. Amma ailəm mənim dediyimə məhəl qoymadı. Bir il sonra nişan oldu. Oğlan məndən 10 yaş böyükdür. Bizim dünyagörüşümüz tamamilə fərqlənirdi. Onun istəkləri tamam başqa, mənim istəklərim isə tamamən başqa idi. İlk gündən Nazim Həsənovla mübahisələrimiz başladı. O məndən elə şeylər istəyirdi ki, mən isə onu istəmirdim".

Bu müddət ərzində isə Günəş Mənsimzadə Elyana Hüseynovanın evində qalıb. Elyana xanım deyir ki, Günəşin evdən qaçdığından xəbərsiz olub.

### Qaçan gəlinlər və son məktub...

"...Mən gedirəm. Bilirəm ki, çox şayiələr qoşacaqlar. And olsun yaradana, tək gedirəm. Qız var anasıyla qalır, onlarda qalacam bir müddət. Onların yanında da işləyəcəyəm. Bu toy olsa bədbəxtçiliklə bitəcək sonda. Yaxşısı budur olmasın. Bəri başdan evlənməmək daha yaxşıdır. Zəhləmiz gedir bir-birimizdən. Evlənmək rüsvayçılıq olardı". Bu da elə haqqında danışdığımız gəlinin yazdığı məktub. Sosioloqlar hesab edir ki, evdən qaçma da intihar aktına bənzəyir. Belə ki, qəfil və radikal qərar verən şəxslər bunun açıqlamasını da yaxın ətraflarına verməyi özlərinə borc sayır. Mütəxəssislərin fikrincə, bu, həmin şəxslərdə məsuliyyət hissinin olmasından xəbər verir.

### Gəlin toy günü 102-yə zəng vurub, keçmiş qayınanası isə onu məhkəməyə verib

2013-cü ildə Ağcabədidə baş vermiş bənzər olayda isə tamam fərqli nüanslar üzə çıxmış və məsələ məhkəmədə bitmişdi. Ağcabədi Rayon Məhkəməsində zərərçəkmiş bəy - Balabəy Əliyevin anası Zülfiyyə Əliyevanın müraciəti əsasında məhkəmə baxışı keçirilib. Z.Əliyeva məhkəmədə toya çəkilən xərc və qıza alınmış qızılları tələb edib. Qeyd edək ki, Z.Əliyeva əvvəlcə hüquq-mühafizə orqanlarına müraciət edib. Lakin işdə cinayət tərkibi aşkarlanmayıb. Ona görə də iş məhkəməyə göndərilib. Xatırladaq ki, toydan qaçan gəlin "102" qaynar xəttinə zəng vurub və zorla ərə verildiyini bildirərək, hüquq-mühafizə orqanlarından yardım istəyib. Rayon polis şöbəsindən bildirilib ki, qız gəlinlik paltarında dayısı arvadı ilə birlikdə şöbəyə gəlib. Gəlin iddia edib ki, o öz dayısı oğlunu sevir. Mübahisəli vəziyyəti araşdırmaq üçün bəy tərəfi də polisə dəvət olunub. Dindirildikdən sonra oğlan tərəfinin bu işdə heç bir günahı olmadığı müəyyənləşib.

**❑ Sevinc TELMANQIZI**

# "Hafka"nın adamları taksi sürücüsünü oğurlayıb dəhşətli işgəncə verdilər

**"Hafka" kimi tanınan oliqarx, nəqliyyat naziri Ziya Məmmədovun keçmiş biznes ortağı Hafiz Məmmədovun cangüdənləri olduğu təxmin edilən bir qrup idmançı cüssəli şəxs taksi sürücüsünü oğurlayaraq ona səhərə qədər işgəncə verib. Bu məlumatı virtualaz.org saytına zərərçəkmişin yaxınları veriblər.**

Məlumatda bildirilir ki, taksi sürücüsü, 1967-ci il təvəllüdlü Fərhad Əliyev avqustun 24-də axşam saatlarında tanımadığı şəxslər tərəfindən qaçırılıb. O, idarə etdiyi "BMW" markalı, 10 MR 051 dövlət nömrə nişanlı maşınından düşürülərək başqa maşına mindirilib və naməlum istiqamətə aparılıb. Səhər saatlarına qədər isə vəhşicəsinə döyülüb.

Buzovnada Əfəndiyev küçəsi, dalan 1, ev 3 ünvanında yaşayan Fərhad Əliyev hazırda 1 saylı Klinik Xəstəxanada (keçmiş "Semaşko") müalicə alır.

Virtualaz.org saytının müxbiri bu hadisəni araşdırmaq və döyülən taksi sürücüsü ilə görüşmək üçün xəstəxanada olub.

Özü taksi sürücüsü, həyat yoldaşı isə müəllimə olan F.Əliyev virtualaz.org saytına açıqlamasında hadisənin hansı səbəbdən baş verdiyini anlaya bilmədiyini, bu günədək heç kimlə ədavət və ya probleminin olmadığını dedi.

**Zərərçəkmiş F.Əliyev hadisəni belə nəql edir:** "Hər gün həyat yoldaşımı gətirmək üçün Binəqədiyə gedirdim. Elə həmin gün - avqustun 24-də də həyat yoldaşımı gətirmək üçün Binəqədiyə gedəndə arxadan "Nissan" markalı maşının məni izlədiyini və sıxışdırdığını gördüm. Maşının nömrəsinin yalnız son rəqəmlərini xatırlayıram - 491 idi. Mən onlara yol versəm də keçmədilər. Sıxışdırmağa başladılar. Məcbur qalıb dalanların birinə girdim. Maşını saxladılar. İki nəfər idilər. Maşından düşəndə mənə bıçaq çəkib öz maşınlarına mindirdilər. Dərhal mənə zərbə endirməyə başladılar, vurub qaşımı partlatdılar. Başıma torba keçirib apardılar".

**F.Əliyev deyir ki, hücum edən şəxslər onu tanımadığı qaranlıq bir yerə aparıblar. Ora daha 5 nəfər gəlib və onu vəhşicəsinə döyməyə başlayıblar.**

Taksi sürücüsünün danışdıqlarından: "Hər tərəf qaranlıq idi. Sonra məni döşəməsi kafellə döşənmiş bir otağa gətirdilər. İçəridə şkaflar var idi. Məni soyundurub arxadan əllərimi bağladılar, yerə oturtdular. Başladılar döyməyə. Biri sağ çiynimdə, o biri də sol çiynimdə oturmuşdu. Hərəkət edə bilmirdim. Məni beysbol dəyənəyi ilə döyürdülər. Dizlərimə, ayaqlarımın altına, bədənimin bütün nahiyələrinə zərbələr endirirdilər. Sifətimdə salamat yer qalmamışdı. Hər iki qaşım, burnum, başımın bir neçə yeri zərbələrdən partlamışdı.




Ağzıma o qədər su tökdülər ki, az qala boğulacaqdım. Elə məqsədləri də bu idi. Məni dilə gətirilməsi mümkün olmayan söyüşlərlə təhqir edirdilər. Bir-birilərinə "Emil", "Əli", "Ramal", bir də "Mıkı" deyə müraciət edirdilər".

Zərərçəkmişin dediyinə görə, onu döyənlərin öz aralarındakı danışıqlarından belə başa düşmək olurdu ki, həmin şəxslər "Hafka"nın mühafizəçiləridir.

**F.Əliyev deyir ki, onu döyənlər hamısı idmançı cüssəli idilər və döyülmə, işgəncə səhnəsini mobil telefona çəkirdilər. Zərərçəkmişin dediyinə görə, həmin şəxslərin ondan konkret nə istədiklərini dərk edə bilməyib.**

"Deyirdilər ki, hər şeyi boynuna al və bizim dediklərimizi təkrar elə. Əvvəlcə nə dediklərini anlamırdım. Vəhşicəsinə döyürdülər, söyürdülər. Ağ köynəkli, cins şalvar geyinən biri başıma silah dirədi. Etiraz etməyə cəhd edən kimi yenidən başlayırdılar döyməyə. Sonda məcbur qalıb dedim ki, nə istəsəniz deyəcəyəm, amma məni döyməyin. Bütün bunları telefona çəkirdilər. Nə dedilərsə, təkrar elədim. Vallah, söhbətin nədən getdiyini dərk edə bilmirdim. İndi də bilmirəm. O qədər döydülər ki, işgəncəyə dözməyib dediklərini təkrar etməyə məcbur oldum. Onların söylədiklərini düzgün təkrar etməyəndə yenə döyürdülər. Gah dedilər boynuna al ki, sən hansısa bağlamaları götürüb nömrəsinin sonu 826 olan "Hyundai" markalı avtomobilin arxasınca düşmüsən. Gah da deyirdilər ki, guya mənə hansısa çanta veriblər və onu harasa aparmışam. Məncə, onlar məni kiminləsə səhv salıblar və ya istədiklərini mənim boynuma qoymaqla onlara verilmiş sifarişi yerinə yetirdiklərini göstərmək istəyirdilər".

YENİ MÜSAVAT
Son səhifə
N 216 (5925) 29 avqust 2014

# İkibaşlı tısbağa

Çindən Amerikaya idxal edilən tısbağaların içindən çıxan ikibaşlı tısbağa hər kəsi şoka salıb. Amerikanın Arkanzas ştatındakı xüsusi bağçada saxlanılan tısbağalar bir neçə gün əvvəl Çinə satılıb. Mutant cinsindən olan tısbağaların ikibaşlı olması qeyri-adi haldır. Onlara hələ ad verilməyib. Qəribə tısbağanın kolleksiya həvəskarlarından birinə satılacağı gözlənilir. "Northeast Ark" tısbağa bağçasının işçiləri bu günə qədər bir neçə dəfə ikibaşlı tısbağa gördüklərini, lakin yumurtadan çıxar-çıxmaz öldüklərini deyiblər. Bir müddət əvvəl Hindistanda ikibaşlı ilan tapılmışdı.





## 7 yaşlı qız məzarından sağ çıxdı

**"Tarlanın kənarı ilə evə qayıdırdım. Axşam saatları idi. Qəflətən yolun kənarındakı qamışlıqdan qışqırtı səsləri gəldi. Uşaq idi. Qışqırır, ağlayırdı. Dərhal oraya qaçdım. Qamışları aralayanda gördüm ki, torpağın içindən mənə qız baxır".**

Alok Kumar qamışlığa basdırılmış qızı çıxarıb və evinə aparıb. Uşağın 7 yaşı olub. Milli.az Headline-a istinadən bildirir ki, olay Hindistanın Sitapur bölgəsində baş verib. Kumarın dediyinə görə, torpağı qazıb qızı çıxaranda uşaq yarımcandı. O, huşunu itirmək həddində idi.

"Uşağın dediyinə görə, bibisi ilə onun ərinin qurbanı olub. "Onlar məni döydülər, sonra da boynuma kəndir salıb boğdular, qamışlıqda basdırdılar" söylədi. Dərhal polisə yollandım", - kənd sakini Kumar deyib. Polisdən verilən məlumata görə, 7 yaşlı Tanunun boynunda kəndir izləri var. Lakhnau polisindən verilən məlumata görə, onlar Tanunun nənəsi Rajrani Avaşti ilə əlaqə saxlayıblar. R.Avaştinin sözlərinə görə, qızı və nəvəsi avqustun 20-də evdən çıxıb, bir daha geri dönməyiblər.

# Bu qəsəbədə kişi yoxdur

**Braziliyanın cənub-şərqindəki Noiva do Kordeiro qəsəbəsində yalnız qadınlar yaşayır. Onların sayı 600-dən çox, əksəriyyətini yaşı isə 35-dən yuxarıdır. Qadınlardan bəziləri evli olsalar da, həyat yoldaşlarının özləri ilə yaşamasına icazə vermirlər. Bu səbəbdən qəsəbədəki qadınlar ərə getməmişdən əvvəl sevgililəri qarşısında şərt qoyurlar ki, onlar bu qəsəbədə tək yaşayacaqlar.**

Qəsəbədə olan oğlan uşaqları da 18 yaşdan sonra buradan çıxarılır. Qadınlar həyat yoldaşlarına yalnız həftə sonlarında qəsəbəyə girməyə icazə verirlər. Noiva do Kordeiro qəsəbəsinin sakinləri hər bir işi özləri görür. Onlar qəsəbəni çox sevdiklərini və evləndəndən sonra da buradan çıxmaq istəmədiklərini deyirlər. Qadın sakinlərin bir şüarı var: "Həyat kişilər olmadan çox gözəldir!"





## Arılar evə hücum etdi

İngiltərədə bir evin qonaq otağı çağırılan qonaqların hücumuna məruz qalıb. Məlum olub ki, ev sahibləri pəncərələri açıq qoyaraq başqa yerə getdiyindən, aylarla pəncərəsi açıq qalan evə arılar hücum edib. 5 min arı evdə özləri üçün yuva qurub. Arıların evdən çıxarılması üçün Longvod servisindən yardım çağırılıb. Servis işçilərindən biri Jon Birkett 40 illik iş həyatında belə bir mənzərə ilə qarşılaşmadığını deyib. Evin tamamən arılardan təmizlənməsi bir neçə ay sürə bilər. Birkett bir neçə saat ərzində evi təmizləsə də ev sahiblərinin evə girməsini tövsiyə edib. Adının açıqlanmasını istəməyən ev sahibi pəncərəni yay aylarında evin havalanması üçün açıq qoyduğunu, başlarına belə bir hadisənin gələcəyini düşünmədiyini deyib.




**QOÇ** - Bu gün sizin üçün neytral bir təqvim olacaq. Hansısa qeyri-adi hadisə ilə rastlaşacağınızı düşünməyin. İqliminin təhərindən asılı olaraq, sağlamlığınıza da diqqəti artırın.

**BUĞA** - Bəzi sınaqlarla baş-başa qala bilərsiniz. Şəxsi işlərinizə müdaxilə edən adamlardan uzaq olmağa çalışın. Hər hansı mübahisə və ya qisasçılıq prinsipiniz başağrınıza səbəb ola bilər.

**ƏKİZLƏR** - Daxili sıxıntılarınızdan əsər-əlamət qalmayacaq. Ətrafda baş verən hər bir hadisə sizə sevinc bəxş edəcək. Bu maraqlı təqvimdə şəxsi büdcənizdə müəyyən artımlar da gözlənilir.

**XƏRÇƏNG** - Qarşınızda duran vəzifələrin çoxluğu kifayət qədər yorulacağınızdan xəbər verir. Lakin öhdəliklərinizin müsbət nəticəyə xidmət etdiyini anlayıb passivləşməyin. Nikbin olmağa çalışın.

**ŞİR** - Bütün gücünüzü iş prinsipinə həsr edin. Müvəffəqiyyətə yetişmək üçün bu, başlıca amildir. Tərəddüd etdiyiniz məsələlərdə qəti addım atmayın. Kənar təsirlərə aludə olmayın.

**QIZ** - Maddi durumunuzu yaxşılaşdırmaq üçün bütün bacarığınızı işə salın. Yalnız bu halda büdcənizi artıra bilərsiniz. Fəaliyyətlə bağlı uğurlarınız artıq yaxınlaşmaqdadır.

**TƏRƏZİ** - Nahara qədər bütün vacib işlərinizi - xüsusən də maliyyə məsələlərini yekunlaşdırın. Mənasız söhbətlərə isə əhəmiyyət verməyin. Mənfi enerjili Ay bürcünüzdə olsa da, yenilikləriniz çoxdur.

**ƏQRƏB** - Yeni əlaqələr yaratmaq üçün geniş imkanlar qazanacaqsınız. Qarşıdakı bir ayda atacağınız addımları indidən götür-qoy edin. Nahar ərəfəsində aldığınız təkliflərə ciddi yanaşın.

**OXATAN** - Şəxsi büdcənizin durumu imkan versə, doğmalarınız yaşayan ünvanlara baş çəkin. Əks təqdirdə digər məsələlər ürəyinizcə olmayan istiqamətdə cərəyan edəcək. Hündür yerə çıxmayın.

**OĞLAQ** - Olduqca rəvan gündür. Ulduzlar müdafiənizdə durduğundan qarşıya qoyduğunuz ədalətli məqsədləri reallaşdıra biləcəksiniz. Maraqlı adamlarla rastlaşma ehtimalınız da var.

**SUTÖKƏN** - İkitərəfli əməkdaşlıq zəminində müəyyən irəliləyişlərə nail olmaq üçün şans qazanacaqsınız. Amma tam bələd olmadığınız proseslər barədə qəti söz demək fikrindən yayınmalısınız.

**BALIQLAR** - Astroloji göstəricilər gün ərzində maddi durumunuzun yaxşılaşacağını bəyan edir. Günün ikinci yarısı isə bu istiqamətdə xüsusilə əlverişlidir. Aldığınız dəvətlərdən imtina etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Filmdən təsirləndi, həyatını itirdi...

Leonarda Di Kaprionun baş rolda oynadığı "The Beach" filmindən təsirlənən 21 yaşlı ingilis Jay Daviel filmi yaşamaq üçün getdiyi Tailandın bir adasında ölü olaraq tapılıb. Məlumatlara görə, Daviel cənnəti tapmaq üçün bu yerə üz tutub. 2000-ci ildə çəkilmiş filmi izlədikdən sonra bu fikrə qapılan gəncin ölüm səbəbi hələ də bilinmir. 3 il ərzində Tailandda yaşamağı planlaşdıran oğlan ailəsi və dostları ilə danışarkən adanın çox gözəl olduğunu deyibmiş. Davieli ailəsi də onun ölüm səbəbini izah edə bilmədiklərini deyib.



**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600